*Qarabağ savaşında həlak olanların əziz xatirəsinə*

# APREL ATƏŞ(KƏS)İ



"Əgər strateji yüksəkliyi geri qaytarmaq və 20 ildən çox boş qalan kəndi məskunlaşdırmaq mümkündürsə, işğal altındakı başqa əraziləri də azad etməyə gücümüz çatar"

Elxan Şahinoğlu

Research Center
Atlas
Araşdırmalar Mərkəzi

Elxan Şahinoğlu

# APREL ATƏŞ(KƏS)İ

## Table of Contents

**Giriş** ....3
2016-cı ildə müharibə olacaqdımı? ....4
Vaşinqtonun yeni prioriteti: "Dondurulmuş münaqişələr həll olunmalıdır!" ....5
ATƏT vasitəçiləri AŞPA-da Ermənistanın mövqeyini dəstəklədilər ....6
Rəsmi Bakı Minsk qrupu həmsədrlərindən imtina edəcəkmi? ....7
Avropa İttifaqı və Dağlıq Qarabağ münaqişəsi ....9
ABŞ-ın və Rusyanın Azərbaycandakı səfirləri arasındakı fərq nədədir? ....11
Rəsmi Bakı beynəlxalq aləmə "müharibə olmayacaq" mesajı verə bilməz ....11
**Rusiya və Azərbaycan prezidentləri iki gündə nə haqda danışıblar?** ....13
Üçüncü də gəlir ....14
Dmitri Roqozin Bakıya niyə gəlmişdi? ....15
XİN-in hesabatındakı iki əsas faktor ....16
Ermənistan prezidentinin Moskvaya səfəri və Putinin Bakıya mesajı ....17
Atəşkəsin pozulması halları artacaq ....19
İlham Əliyev 13 ildən sonra Vaşinqtonda… ....21
Azərbaycan ordusu Ağdamı azad etmək istəsə, bölgədə nə baş verəcək? ....22
Aprel: 4 günlük müharibənin hərbi, siyasi və diplomatik nəticələri… ....24
Müvəqqəti atəşkəs nə qədər çəkəcək? ....31
Ermənistan Rusiya və İsraildən niyə narazıdır? ....33
Cəbhə bölgəsində vəziyyət yenidən gərginləşir ....35
Rusiyanın Qarabağla bağlı yeni planı yoxdur ....36
Ermənistanda nə baş verir? ....37
Münaqişənin həll formulu necədir? ....38
Serj Sərkisyanın apreldən sonrakı itkiləri ....41
Rusiya cəbhə bölgəsindəki döyüşlərə görə niyə Ankaranı ittiham edirdi? ....42
Pan Gi Mun Bakıya niyə gəlmədi? ....43
Prezidentlərin Qarabağa səfərlərinin arxasındakı faktorlar… ....44
Vyanadan sonrakı mərhələdə nə baş verəcək? ....45
NATO Azərbaycan sərhədlərinə yaxınlaşır ....47
ATƏT sədri Qarabağla məşğul olmaq istəmir ....49
Sankt-Peterburq görüşündən çıxan nəticə(lər) ....50
Almaniyanın həll planı yoxdur ....55
Lavrovun açıqlamaları nikbinlik üçün əsas verirmi? ....55
Yeni format: Rusiya – Azərbaycan – İran ....56

Putin Sərkisyanı sakitləşdirdi ........ 58
“İsgəndər” raketləri hansı dövlətə məxsusdur: Rusiyaya, yoxsa Ermənistana? ........ 59
Serj Sərkisyanın kadr dəyişiklikləri ........ 61
Cənubi Qafqaz total müharibəyə sürüklənir ........ 62
**İlham Əliyevin mesajları...** ........ 64
Ermənilərin Bakıya gəlişi İrəvanın stereotiplərini dağıtdı ........ 65
Lələtəpədən verilən mesajlar... ........ 67
Azərbaycan daha çox silah və hərbi texnika alacaq ........ 68
Həmsədrlərin ortaq bəyanatı Azərbaycana ultimatumdur ........ 69
Rəsmi Bakının yeni strategiyası: Xalq diplomatiyasını genişləndirmək! ........ 70
Levon Ter-Petrosyanın da “Sülh Plaftorması” var ........ 71
KTMT Ermənistanı qoruya bilməyəcək ........ 73
Respondentlər nə deyir? ........ 75
Lavrov “mərhələli həll” planının əleyhinədir ........ 75
Ermənistanın boşalmasını sürətləndirən iki səbəb ........ 77
Cocuq Mərcanlıya qayıdış ........ 78
Separatçıların “referendumu” nəyə xidmət edir? ........ 78
Atəşkəs bitib ........ 80
Müharibədə Azərbaycana hansı dövlətlər dəstək verəcək? ........ 81
Türkiyə Azərbaycanda hərbi baza yerləşdirə bilərmi? ........ 82

***Qarabağ savaşında həlak olanların əziz xatirəsinə ithaf edirəm.***

## Giriş

2016 yadda qalan il oldu. Cəbhə bölgəsində 4 günlük aprel döyüşləri Azərbaycan cəmiyyətində ruh yüksəkliyi yaratdı. "Əgər strateji yüksəkliyi geri qaytarmaq və 20 ildən çox boş qalan kəndi məskunlaşdırmaq mümkündürsə, işğal altındakı başqa əraziləri də azad etməyə gücümüz çatar" fikri cəmiyyətə hakim oldu. Ancaq 2016-cı ildə ümidlə yanaşı ümidsizlik də yaşandı. Aprel savaşından sonra böyük dövlətlərin işğalçı Ermənistana təsir edib Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldacağına olan ümidlər özünü doğrultmadı. Bəlli oldu ki, hətta müharibə təhlükəsi də həmsədr dövlətlər - Rusiya, Fransa və Amerika Birləşmiş Ştatlarını Ermənistan hakimiyyətini yola gətirməyə kifayət etmir. Vasitəçilərin iştirakı ilə prezidentlərin Vyana və Sankt-Peterburq görüşləri nəticəsiz qaldı.

Aprel döyüşlərindən sonra Rusiya Ermənistana hərbi dəstəyini artırdı. Rusiya Ermənistanda əvvəlcə "İsgəndər" raketlərini yerləşdirdi, daha sonra silah almaq üçün İrəvana 200 milyon dollar kredit ayırdı. Üstəgəl, rusiyalı rəsmilərin il ərzində verdiyi açıqlamalar Moskvanın münaqişənin həllinə marağının olmadığını göstərdi.

Rusiyanın Ermənistanda "İsgəndər" raketlərini yerləşdirməsi yaxın tarixdən başqa bir hadisəni xatırlatdı. Mərhum dövlət başçısı Heydər Əliyev Moskvanın keçmiş meri Yuri Lujkovla Bakıda görüşərək, ona Rusiyanın Ermənistana verdiyi qanunsuz silahların geri qaytarılmasında heç bir nəticə əldə olunmadığını, əksinə, bu ölkəyə S-300 raket komplekslərini, yeni MiQ qırıcılarını göndərdiyini vurğulayır. Heydər Əliyev etirazını bu şəkildə bildirir: "Başa düşmürəm, Rusiyanın silahları bu qədər çoxdur ki, istədiyi ölkəyə paylayır? Bu siyasət düzgün deyil. Əksinə, Qafqazı silahsızlaşdırmaq, bölgədə sabitlik yaratmaq gərəkdir". Cavabında məsələyə açıqlama vermək səlahiyyətində olmadığını bildirən Yuri Lujkov isə ikiüzlülük edir. Çünki bundan bir qədər əvvəl İrəvana səfər edən Moskvanın keçmiş meri ölkəsinin Ermənistanla hərbi əməkdaşlığından məmnun qaldığını bildirmişdi.

Ermənistan müstəqillik qazandıqdan bu yana Rusiyanın dəstəyinə görə özünü arxayın hiss edir. Rusiya Ermənistan üzərindən dəstəyini çəkərsə, Azərbaycan qısa müddətdə torpaqları işğaldan azad edə bilər. Bunun üçün ordunun tamamən Dağlıq Qarabağı azad etməsinə də ehtiyac yoxdur. Azərbaycan ordusunun Dağlıq Qarabağ ətrafındakı rayonları azad etmək məqsədilə həyata keçirəcəyi uğurlu əməliyyatlar rəsmi İrəvanın danışıqlardakı mövqeyini dəyişəcək. Onsuz da hadisələrin inkişafı məhz buna doğru gedir.

Beynəlxalq təşkilatların xətti ilə 1998-ci ildə Ermənistana getdim. İrəvanda Ermənistanın o zamankı prezidenti Robert Köçəryan və o zamankı daxili işlər və təhlükəsizlik naziri, indiki prezidenti Serj Sərkisyandan müsahibə almaq imkanım oldu. Hər iki müsahibim suallarıma cavab olaraq "xalqların özmüqədərratını təyin etmək hüququ var" deyib dururdular. Ancaq onlara "xalqların özmüqədərratını təyin etmək hüququnun" azərbaycanlılara qarşı soyqırımlar,

etnik təmizləmələr və Dağlıq Qarabağa aidiyyatı olmayan ərazilərin işğalı hesabına başa gəldiyini xatırlatdıqda əsəblərini cilovlaya bilmədilər. Hər ikisinin cavabı oxşar idi: "Biz nə əldə etmişiksə, qanla əldə etmişik". Yəni demək istəyirdilər ki, "vuruşmuşuq, döyüşmüşük, insanları öldürmüşük, etnik təmizləmə həyata keçirmişik, ətrafı da işğal etmişik" və buna görə masa üzərində istədiklərimizi əldə etmədən geri addım atan deyilik. İllərdir danışıqların nəticəsiz qalması separatçıların məhz bu baxışının dəyişməməsi ilə əlaqəlidir. Elə bilirlər ki, həmişə belə olacaq, status-kvonu sonsuza qədər uzatmaq mümkündür.

Ermənistanda hardasa anlayırlar ki, hər istiqamətdə itkiləri çoxdur, müharibə vəziyyətində səfalətdən yaxa qurtara bilməyəcəklər, demoqrafik vəziyyətləri bərbaddır, Azərbaycan və Türkiyə ilə düşmənçilik onları geri salır, 1990-cı illərin əvvəllərində əldə etdiyi "qələbə" onları məğlubiyyətə aparır. Buna rəğmən, öz əhalisini əsarətdə saxlayan separatçılar məntiqin gücünü qəbul etmək istəmirlər. Demək, bizim amalımız həmin məntiqi zorla separatçılara anlatmaq olmalıdır.

## 2016-cı ildə müharibə olacaqdımı?

Prezident İlham Əliyev Nazirlər Kabinetinin toplantısında Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindən danışdı. Prezidentin "Ermənistan sülh istəmir" fikri 2016-cı ildə cəbhə bölgəsində gərginliyin davam edəcəyinin xəbərçisi idi.

"Atlas" Araşdırmalar Mərkəzinin 2015-ci ilin sonunda keçirdiyi sorğuda respondentlərin əksəriyyəti müharibənin başlaması ehtimalını yüksək qiymətləndirirdi. Əlbəttə, ilin əvvəlində Avrasiya bölgəsindəki mürəkkəb durumu nəzərə alaraq müharibənin 2016-cı ildə mütləq mənada baş verəcəyini söyləmək çətin idi. İlham Əliyev Nazirlər Kabinetinin toplantısındakı çıxışında qeyd etdi ki, Azərbaycan Rusiya ilə Türkiyə arasında və Səudiyyə Ərəbistanı ilə İran arasındakı münasibətlərin gərginləşməsindən narahatdır.

2016-cı ildə ən vacib sual bu idi: Azərbaycanla Ermənistan arasındakı savaşda böyük dövlətlərin davranışı necə olacaq? Bu suala cavab tapmadan işğal altındakı torpaqları azad etmək üçün orduya hücum əmri veriləcəyi az ehtimal olunurdu. Rəsmi Bakı Rusiyanın Ermənistandakı hərbi bazalarını gücləndirməsi faktorunu da nəzərə almaq məcburiyyətində idi.

Buna baxmayaraq, 2015-ci ilin sonunda o da bəlliydi ki, atəşkəs pozulacaq, itkilər olacaq. Atəşkəs ona görə pozulacaq ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazır deyil, eyni zamanda Azərbaycan ordusu qarşı tərəfi təzyiq altında saxlayacaq. Başqa alternativ yoxdur.

Belə vəziyyətdə Azərbaycan prezidentinin 2015-ci ildə olduğu kimi 2016-cı ildə də Ermənistan prezidenti Serj Sərkisyanla görüşə maraq göstərməyəcəyini proqnozlaşdırmaq mümkün idi. Buna baxmayaraq, Minsk qrupu çərçivəsində danışıqlara son qoyula bilməzdi. Çünki bu, avtomatik müharibənin başlanması demək olardı. Buna görə də bütün hallarda

Azərbaycan və Ermənistan müzakirə masasından qalxmayacaqdılar. Sadəcə, danışıqlar imitasiya xarakteri daşıyacaqdı.

## Vaşinqtonun yeni prioriteti: "Dondurulmuş münaqişələr həll olunmalıdır!"

Azərbaycanın siyasi dairələri və cəmiyyəti hər zaman böyük dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərməməsindən şikayət edir. Həqiqətən, sözdə böyük dövlətlər Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Ancaq əməldə bunu təmin edəcək alətləri işə salmırlar.

Buna baxmayaraq, Qərb dövlətləri Dağlıq Qarabağ və bənzəri münaqişələrin həllinin uzanmasının yalnız iki dövlət arasında müharibəyə yol açacağından deyil, bölgədə daha böyük təlatümlərə səbəb olacağının fərqindədirlər. Məsələn ABŞ-ın keçmiş dövlət katibi Con Kerri ölkəsinin 2016-cı il üçün xarici siyasət gündəliyini açıqlayarkən dedi ki, dondurulmuş münaqişələrin nizamlanmasına ehtiyac var.

Məsələ burasındadır ki, dondurulmuş münaqişələri həll etmədən beynəlxalq terrorun kökünü kəsmək çətin olacaq. Kerrinin sonrakı fikri də bunu sübut edirdi: *"Biz dondurulmuş münaqişələrin həlli istiqamətində nə qədər çox irəliləyiş əldə etsək, o zaman İŞİD-ə qarşı daha effektiv və dayanıqlı mübarizə aparmaq olarıq".*

Buna baxmayaraq, bu açıqlamadan sonra Barak Obama administrasiyasının dondurulmuş münaqişələrin həlli ilə məşğul olacağını söyləmək çətin idi.

**Birincisi,** dövlət katibinin açıqlamasından sonra Kerrinin də üzvü olduğu Barak Obama administrasiyasının ömrünə cəmi bir il qalırdı. Obamanın 8 illik prezidentlik müddəti başa çatırdı. Əgər Obama və Kerri dondurulmuş münaqişələrin həllini bu qədər aktual sayırdılarsa, gərək bu işə daha öncə başlayardılar.

**İkincisi,** ABŞ dünyanın əsas supergücü olsa da, əli hər yerə çatmır. Məsələn, keçmiş sovet məkanını götürək. ABŞ Rusiyanın 2008-ci ildə Gürcüstanı parçalamasına, 2014-cü ildə isə Krımın ilhaqına və Donbas separatçılarına dəstəyinə mane ola bilmədi. Bunlar da artıq dondurulmuş münaqişələrə çevrilib. Çünki nə Gürcüstan, nə də Ukrayna Abxaziya, Cənubi Osetiya, Krım və Donbasın itirilməsiylə barışıblar.

Elə bunlardan da uzun tarixə malik olan Dağlıq Qarabağ münaqişəsi də dondurulmuş münaqişədir. Dağlıq Qarabağın separatçı və terrorçu məskəni olduğunu xüsusi sübut etməyə ehtiyac yoxdur. Azərbaycan torpaqlarının işğalında ASALA və ona dəstək verən terrorçu qruplaşmaların xüsusi rolu olub. Buna baxmayaraq, Barak Obama administrasiyası Azərbaycanla Ermənistan arasında bərabərlik işarəsi qoyurdu.

Ancaq hər halda, 2016-cı ilin başlanğıcında Qarabağ məsələsində Vaşinqtonun mövqeyi Moskvanın mövqeyindən müsbətə doğru fərqlənirdi. Məsələn, ABŞ-ın Minsk qrupundakı

keçmiş həmsədri Ceyms Uorlik bir neçə dəfə "Dağlıq Qarabağ ətrafındakı torpaqlar azad olunmalıdır" fikrini təkrarladı. Onun rusiyalı həmkarından isə bircə dəfə də oxşar fikir eşitmədik.

2016-cı ildə ABŞ-dan Azərbaycana səfərlərin sayı da artdı. 2016-cı ilin yanvar ayında ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə keçmiş baş direktoru Çarlz Kupçan Azərbaycana səfər edərək prezident İlham Əliyevlə və müdafiə naziri Zakir Həsənovla görüşdü. Hər iki görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində fəaliyyəti geniş müzakirə olundu.

Bu görüş Azərbaycanla ABŞ arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıqda problemlərin olmadığını, tam əksinə, əlaqələrin inkişafını göstərdi. Bu səfərlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə birbaşa aidiyyatı olmasa da, Bakının Vaşinqtona göndərdiyi və göndərəcəyi müsbət siqnallar ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünə marağının artmasına səbəb ola bilərdi. Vaşinqton Barak Obamanın prezidentliyi dövründə Ukraynanın ərazi bütövlüyünün təmini məqsədilə Kiyevlə sıx əməkdaşlıq edir, ona hər cür dəstək verir, Rusiyaya qarşı sanksiyalar tətbiq edirdi. Rəsmi Bakı da çalışırdı ki, Vaşinqton Azərbaycanın ərazi bütövlüyünə eyni prizmadan yanaşsın.

## ATƏT vasitəçiləri AŞPA-da Ermənistanın mövqeyini dəstəklədilər

AŞPA-nın (Avropa Şurası Parlament Assambleyası) 2016-cı il yanvarın 26-da keçirdiyi sessiyada Azərbaycanın işğal olunmuş topraqları ilə bağlı iki qətnaməsi müzakirəyə çıxarıldı. Birinci qətnamə ***"Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılıq hallarının artması"***, ikinci qətnamə isə ***"Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdlə içməli sudan məhrum edilməsi"*** adlanırdı.

Bu iki qətnamə 2015-ci il ərzində AŞPA-nın komitələrində bəyənilmişdi. Ancaq AŞPA-da keçirilən səsvermə zamanı birinci qətnamə lazımi qədər səs toplaya bilmədi. Qətnamənin "lehinə" 66 səs, "əleyhinə" isə 70 səs verildi. Yəni bu qətnamənin qəbulu üçün Azərbaycana cəmi 4 səs çatmadı. İkinci qətnamə isə səs çoxluğu ilə qəbul olundu.

Buna baxmayaraq, Azərbaycan üçün birinci qətnamə ikinci qətnamədən daha vacib idi. Çünki birinci qətnamədə konkret işğal faktı və torpaqların azad olunmasının vacibliyi göstərilirdi. Bəs birinci qətnamə niyə səs çoxluğu qazana bilmədi? Bunun iki səbəbi var idi:

**Birinci səbəb** ATƏT-in Minsk qrupu həmsədrlərinin (ABŞ, Rusiya və Fransa) AŞPA-dakı səsvermədən bir neçə gün əvvəl verdikləri birgə bəyanat idi. Bəyanatda faktiki deyilirdi ki, "AŞPA həmsədrlərin işinə qarışmasın, Dağlıq Qarabağ münaqişəsinin həlliylə AŞPA yox Minsk qrupu məşğuldur". Bununla Minsk qrupu həmsədrləri AŞPA-ya təzyiq etdilər. Həmsədrlərin birgə bəyanatı AŞPA-da erməni deputatların əsaslandırmasını gücləndirdi.

**İkinci səbəb** qətnamənin qəbulu üçün Azərbaycan Xarici İşlər Nazirliyinin kifayət qədər lobbi fəaliyyəti aparmaması idi. Ermənistan xarici işlər naziri və onun müavini qətnamənin qəbul olunmaması üçün aylardır avropalı həmkarlarına zəng edir və onları deputatlarına təsir etməyə çağırırdı. AŞPA-da qətnamənin qəbul olunmaması üçün Avropadakı erməni lobbisi də fəal idi. Bunun qarşılığında Azərbaycan XİN ciddi fəaliyyət göstərmədi, qətnaməni hazırlayan azərbaycanlı deputatlara Avropada lobbi dəstəyi vermədi.

Ancaq hər iki qətnamə AŞPA-da qəbul olunsaydı belə, bu sənədlərin Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirəcəyini söyləmək çətin idi. Çünki, AŞPA-da müxtəlif illərdə Dağlıq Qarabağa aid Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən bir neçə qətnamə qəbul olunub. Buna baxmayaraq, bu qətnamələrin heç biri Ermənistanın mövqeyinə təsir etməyib. BMT-nin 1990-cı illərin əvvəllərində işğal altındakı rayonlarla bağlı qəbul etdiyi 4 qətnaməsi AŞPA-nın qətnamələrindən daha güclüdür. Buna baxmayaraq, 20 ildən çoxdur ki, həmin qətnamələr də kağız üzərində qalıb. Əsas qətnamələrin sayı deyil, vacib olan böyük dövlətlərin Ermənistan hakimiyyətinə təsir etməsidir ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılsın. Bu təzyiq olmadıqca Ermənistan hakimiyyəti heç bir sənədi yerinə yetirməyəcək.

## Rəsmi Bakı Minsk qrupu həmsədrlərindən imtina edəcəkmi?

Azərbaycan prezidenti İlham Əliyev 2016-cı il yanvarın 29-da bir qrup gənclə görüşündə ATƏT-in Minsk qrupu həmsədrlərini bu sözlərlə tənqid edirdi: *"Həmsədrlərin fəaliyyətini mənfi qiymətləndirirəm. Həmsədrlər münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Məsələnin həll olunmamasında onların böyük rolu var. Həmsədrlərin bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar. Baxın, Avropa Şurasında son dinləmələrdə onların təxribatçı fəaliyyəti nəyə gətirib çıxardı. Çünki ikili standartlar var. Səbəb nədir? Soruşanda cavab yoxdur. O da bir taktikadır. Nə vaxt ki, sual sərf etmir, cavab vermirlər. Amma bu cavabı biz bilirik - ikili standartlar. Əlbəttə ki, burada siz də bilməlisiniz, Azərbaycan xalqı da bilməlidir. Daha doğrusu, bilir, amma mən bunu deyəcəyəm. Burada din amili rol oynayır. Müsəlman olduğumuza görə bizə ikili standartlar münasibəti göstərilir. Xüsusilə indiki dövrdə ki, Avropada islamofobiya pik həddinə çatıb".*

İlham Əliyev ilk dəfəydi həmsədrləri bu cür kəskin ifadələrlə tənqid edirdi. Azərbaycan prezidentinin narazılığına səbəb olan əsas faktor Minsk qrupu həmsədrlərinin AŞPA ilə bağlı yayınladığı son bəyanat idi. Həmsədrlərin bəyanatında deyilirdi ki, AŞPA Dağlıq Qarabağla bağlı qətnamə qəbul etməməlidir. Məsələ burasındadır ki, "işğal altındakı torpaqlarda zorakı hallarla bağlı" qətnamənin qəbulu Azərbaycanın xeyrinə idi. Həmsədrlərin bəyanatı qətnamənin qəbuluna mənfi təsir etdi və sənədin qəbulu üçün lazım olan 4 səs çatmadı.

Azərbaycan prezidenti əvvəllər də həmsədrlərin fəaliyyətini tənqid edərdi, ancaq bu dəfə İlham Əliyev konkret ittihamlarını bu şəkildə bildirdi: *"Həmsədrlər münaqişənin həllində maraqlı deyillər", "Həmsədrlər Ermənistana dəstək verirlər", "Azərbaycan müsəlman dövlət olduğuna görə həmsədrlər münaqişənin ədalətli həllinə maraq göstərmirlər".*

Əslində, bu cür kəskin ittihamlardan sonra rəsmi Bakının həmsədrlərlə birgə fəaliyyəti çətin görünürdü. İlham Əliyevin son çıxışından sonra ekspert dairələrində və cəmiyyətdə iki sual ətrafında müzakirələr başladı.

**Birinci sual:** *"Azərbaycan Minsk qrupu həmsədrlərindən imtina edəcəkmi?"*

**İkinci sual:** *"Azərbaycan həmsədrlikdə hansı dövlətləri görmək istəyir?"*

ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyindən imtina etmək çətin iş deyil. Çətinlik bu qərardan sonra yaranacaq. Çünki rəsmi Bakı həmsədrlərdən imtina edəcəyi halda danışıqları sonlandıran tərəf kimi qəbul olunacaq. Rəsmi Bakının qərarının əksinə olaraq isə İrəvan Minsk qrupu həmsədrlərinin fəaliyyətindən razı qaldığını bəyan edəcək, beynəlxalq aləmdə özünü "sülhpərvər" kimi göstərməyə çalışacaq və istədiyi nəticəni əldə edəcək. Onsuz da həmsədrlər illərdir işğalla bağlı status-kvonu qoruyurlar. Bu isə Ermənistanın xeyrinədir.

Rəsmi Bakının həmsədrlərdən imtinası sülh danışıqlarının nəticə vermədiyi və Azərbaycanın torpaqları müharibə vasitəsilə geri qaytarmağa hazır olduğu mənasını verəcəkdi.

2016-cı ilin əvvəlində "Azərbaycan həmsədrlikdə hansı dövlətləri görmək istəyir" sualı da geniş müzakirə olunurdu. Rəsmi Bakı həmsədrlikdə Fransanı Almaniya ilə əvəz etmək, əlavə olaraq Türkiyəni də qrupa salmaq istəyirdi. Minsk qrupunun üzvü olan Almaniya 2016-cı ildə ATƏT-in sədri idi və Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi. Rəsmi Bakı həmsədrlərin formatını dəyişdirmək üçün ATƏT-in mənzil qərargahında – Vyanada Minsk qrupunun bütün üzv dövlətlərinin iştirakı ilə konfrans keçirməyi təklif edirdi. Rəsmi Bakı bununla istəyirdi ki, Minsk qrupunun digər üzvləri hazırki həmsədrlərin – ABŞ, Rusiya və Fransanın fəaliyyətinə qiymət versinlər, eyni zamanda özləri də fəallaşsınlar.

Problem ondadır ki, hazırki həmsədrlər – ABŞ, Fransa və Rusiya həmsədrlikdə özlərindən başqa digər dövlətləri, o cümlədən Almaniya və Türkiyəni münaqişənin həllində fəallaşmasını istəmirlər. Ermənistanın da mövqeyi eynidir. Rəsmi İrəvan Bakının Vyanada konfrans ideyasına mənfi yanaşırdı. Buna görə də yalnız rəsmi Bakının istəyi ilə Minsk qrupunun formatını dəyişdirmək çətindir.

Bu arada, 2016-cı ilin başlanğıcında Minsk qrupu ilə yanaşı digər iki formatın yaradılması barədə də xəbərlər yayılırdı.

**Birinci format:** Dağlıq Qarabağ münaqişəsinin həllinə bir neçə regional dövlət cəlb olunsun. Rusiya ilə yanaşı, İran, Qazaxıstan və Belarusun adları çəkilirdi.

**İkinci format:** Dağlıq Qarabağ münaqişəsinin həllinə Rusiya və İran cəlb olunsun. Bununla da dördlü format – Rusiya + İran + Azərbaycan + Ermənistan yaradılsın.

Hər iki format Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməyəcəkdi. Doğrudur, birinci formatda Qazaxıstan və Belarus var ki, bu iki dövlət münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyünün qorunmasını vacib sayır. Ancaq bu iki dövlət eyni zamanda Rusiyanın hərbi-siyasi müttəfiqidir və Moskvanın istəkləri əleyhinə çıxmayacaq. Moskva isə müttəfiqi

Ermənistanın maraqlarını diqqətə alır. İkinci format isə ümumiyyətlə Azərbaycanın əleyhinədir. Rusiya və İran Ermənistanın bölgədəki iki ən yaxın müttəfiqidir. Moskva və Tehran Azərbaycanın Qərblə və Türkiyə ilə əməkdaşlığına tənqidi yanaşır və Azərbaycanın ərazi bütövlüyünün bərpasında maraqlı deyillər. Ona görə də rəsmi Bakı nə birinci, nə də ikinci formata yaşıl işıq yandıracaq.

Rəsmi Bakı üçün yeganə alternativ Ermənistanı və Dağlıq Qarabağ separatçılarını təzyiq altında saxlamaq idi ki, bu, az da olsa öz müsbət nəticəsini verirdi. Ermənistan azalan insani və maliyyə potensialını işğal altındakı torpaqların qorunmasına xərcləyir və bu potensial getdikcə tükənir.

## Avropa İttifaqı və Dağlıq Qarabağ münaqişəsi

Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından narahatdır. Avropa İttifaqı məsələləri üzrə ixtisaslaşmış nüfuzlu Avropa Siyasəti Mərkəzinin (European Policy Center) Dağlıq Qarabağ münaqişəsinə dair 2016-cı ilin fevral ayında yaydığı geniş hesabat da bundan xəbər verirdi.

**Birincisi,** hesabatda vurğulanırdı ki, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin kənarında qalaraq, əvəzində bunu tamamilə ATƏT-in Minsk qrupunun çiyinlərinə yükləyib. Bunun əsas səbəbi kimi Avropa İttifaqının Azərbaycan və Ermənistana təsir alətləri olmadığı göstərilib. Həqiqətən hər iki ölkə Avropa İttifaqı ilə assosiativ sazişə qoşulmaqdan imtina edib. Halbuki, Azərbaycan və Ermənistan bu sazişə imza atsaydılar, Brüsselin Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolu arta bilərdi.

**İkincisi,** baxmayaraq ki, Avropa İttifaqı münaqişənin həllində fəal rol oynaya bilmir, Brüssel cəbhə bölgəsindəki vəziyyətdən və atəşkəsin pozulmasından ciddi narahatdır. Çünki Azərbaycanın iştirakı ilə böyük regional enerji layihələri reallaşır. Azərbaycanın əsas iştirakçısı olduğu tranzit və enerji layihələri isə bölgəni Avropa ilə birləşdirəcək. Buna görə də Avropa İttifaqı bölgədə sabitlikdə maraqlıdır. Brüssel haqlı olaraq şübhələnir ki, Azərbaycanla Ermənistan arasında müharibə başlasa, həmin layihələri təhlükə gözləyəcək. Digər tərəfdən, Brüsselin bir başqa qorxusu ondan ibarətdir ki, Rusiya müharibə vasitəsilə regional layihələrin reallaşmasına mane olacaq.

**Üçüncüsü,** Avropa İttifaqı da o qənaətdədir ki, Rusiya –Türkiyə münasibətlərinin gərginləşməsi Azərbaycanla Ermənistan arasındakı sülhü uzaqlaşdırır. Çünki Rusiya Azərbaycanla Ermənistanın barışması hesabına Türkiyənin Cənubi Qafqazda rolunun möhkəmlənməsini istəmir. Rusiya Ermənistana təzyiqini artırmaqla Türkiyə ilə Azərbaycan arasındakı müttəfiqlikdən də ehtiyat edir.

Beləliklə, Avropa İttifaqının hesabatından çıxan ümumi nəticə bu idi ki, Brüssel Azərbaycanla Ermənistanı barışdırmaq üçün Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı olsa da, Rusiyanın bu prosesə təsir imkanları daha böyükdür. Digər tərəfdən, Avropa İttifaqı

Rusiyanın bu təsirinin münaqişənin həllinə yox, onun dondurulmasına yönəldiyini etiraf edirdi.

Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsinin həllinə artan marağı Azərbaycanın maraqlarına uyğundur. Çünki Avropa İttifaqı və Avropa Parlamenti Ukraynanın ərazi bütövlüyünü dəstəklədikləri kimi, Azərbaycanın ərazi bütövlüyünü də dəstəkləyirlər. Avropa Parlamenti müxtəlif illərdə bir neçə qətnamə qəbul edərək, Ermənistanın Dağlıq Qarabağ ətrafındakı torpaqları azad etməyə çağırmışdı.

Avropa Siyasəti Mərkəzinin hesabatında da deyilirdi ki, Avropa İttifaqı, nəhayət, Qarabağ münaqişəsinin çözümü istiqamətində konkret addımlar atmalıdır. Belə olmazsa, Avropa İttifaqının birbaşa sərhədlərində olan münaqişənin çözümündə heç bir rola malik olmaması təsəvvürü yaranacaq. Hesabatın əsas yekunu bundan ibarət idi ki, Qarabağ münaqişəsi bundan sonra Rusiyanın periferiyasında lokal problem kimi deyil, Avropa İttifaqının qonşuluğunda qorxulu sabitsizlik mənbəyi və potensial böhran kimi qiymətləndirilməlidir.

Əgər Avropa İttifaqı Dağlıq Qarabağla bağlı gələcək fəaliyyətində Avropa Siyasəti Mərkəzinin bu hesabatını əsas kimi götürsə, gərək Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki təktərəfli vasitəçiliyinə alternativ yanaşma ortaya qoysun.

Rəsmi Bakı Avropa İttifaqı ilə assosiativ saziş imzalamasa da, Brüsselə strateji sənəd imzalamağı təklif etdi. Həmin sənəd 2017-ci ildə əsas müzakirə predmetinə çevrilməlidir. Böyük ehtimalla yeni sənəddə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bənd də salınacaq. Assosiativ sazişdə Dağlıq Qarabağla bağlı bənd yox idi. Ona görə də rəsmi Bakı assosiativ sazişə maraq göstərmədi. Əgər Brüssel yeni sənəddə Azərbaycanın ərazi bütövlüyünü vurğulayan bəndi qəbul etsə, onda bu sazişin imzalanması Azərbaycanın xeyrinə olacaq. Bu halda Minsk qrupu həmsədrlərinin fəaliyyətindən narazı olan rəsmi Bakı danışıqlarda Avropa İttifaqının da fəallaşmasını istəyəcək.

Buna baxmayaraq, Avropa İttifaqı ilə strateji sənədin imzalanması üçün Brüsselin də Bakıya ünvanladığı şərtlər var. Bu şərtlər Azərbaycanda siyasi, iqtisadi və məhkəmə islahatlarının dərinləşdirilməsi və Dünya Ticarət Təşkilatına üzvlüklə bağlıdır. Rəsmi Bakı öz növbəsində Brüsselin bu şərtlərini qəbul edərsə, strateji sənədin imzalanması üçün maneə qalmayacaq.

Avropa İttifaqının xarici siyasət məsələləri üzrə komissarı Federika Mogerini Bakıda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rəsmi Bakı üçün vacib açıqlamalar səsləndirdi. Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqiliyini dəstəklədiyini deyən Mogerini "status-kvo"nu qəbuledilməz adlandırdı: *"Biz Dağlıq Qarabağın müstəqilliyini tanımırıq. Bu münaqişənin həlli bizim üçün prioritet olaraq qalır. Biz həmsədrlərə dəstək olmağa hazırıq. Avropa İttifaqı sülh danışıqlarının aparılmasına tərəfdardır və münaqişənin hərbi yolla həllini görmürük. Çalışmalıyıq ki, hər iki tərəfi sülh prosesinə mane olan çıxışlardan, hərəkətlərdən çəkindirək. Avropa İttifaqı sülhə yönəlmiş fəaliyyətlərə dəstək verəcək. Münaqişə tərəflərinin yaxınlaşması üçün əlimizdən gələni edəcəyik".*

Mogerini bir tərəfdən "Dağlıq Qarabağın müstəqilliyini tanımırıq" deməklə rəsmi Bakıya dəstək verdi, digər tərəfdən "münaqişənin hərbi yolla həllinin əleyhinəyik" söyləməklə Azərbaycan hakimiyyətini torpaqların güc yoluyla alınması fikrindən daşındırmaq istədi.

## ABŞ-ın və Rusyanın Azərbaycandakı səfirləri arasındakı fərq nədədir?

2016-cı ilin başlanğıcında həm Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin, həm də ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta müxtəlif açıqlamalar verdilər. Rusiyanın səfiri işğal altındakı torpaqlardan heç nə demədi, Sekuta isə dedi ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Bundan başqa, ABŞ-ın Azərbaycandakı səfiri Xocalı soyqırımını da anaraq, bu faciəni unutmayacaqlarını bildirdi. İndiyə qədər heç bir rusiyalı diplomat "Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır" və ya "Xocalı soyqırımı böyük faciədir" kimi fikirlər səsləndirməyib. Bu da ABŞ-la Rusiyanın Azərbaycana münasibətindəki fərqini göstərirdi. Bu arada, ABŞ 2016-cı il üçün Dağlıq Qarabağ separatçılarına yardım ayırmadı. Bu, illərdir Azərbaycanı narahat edən məsələ idi.

ABŞ – Azərbaycan münasibətlərinin yaxşılaşmasından narahat olan qüvvələr var. Məsələn, erməni lobbisi ilə sıx əməkdaşlıq edən amerikalı konqresmenlərdən biri Ermənistan saytına müsahibəsində dedi ki, yanvarın 26-da AŞPA-da Azərbaycanla bağlı birinci qətnamənin keçməməsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə keçmiş köməkçisi Viktoriya Nulandın xüsusi rolu olub. Bundan sonra Azərbaycandakı bəzi saytlar bu başlıq altında xəbərlər yaydılar: "AŞPA-da Azərbaycanla bağlı qətnamənin keçməməsinin səbəbi aydın oldu". Beləliklə, Azərbaycan saytları ermənipərəst konqresmenin erməni saytına verdiyi açıqlamaya istinad edərək, bütün günahın Viktoriya Nulandda olduğunu bildirdilər.

Viktoriya Nulandın AŞPA-da Azərbaycanla bağlı qətnamənin keçməməsindəki rolu şişirdilib. Kim zəmanət verə bilər ki, erməni konqresmeninə istinadən yayılan xəbər doğrudur? Dəfələrlə olub ki, erməni mediasının dezinformasiyası Azərbaycanın informasiya məkanının baş xəbərinə çevrilib. Hazırki dezinformasiyanın məqsədi isə prezident İlham Əliyevin Vaşinqtona rəsmi səfəri ərəfəsində ABŞ – Azərbaycan münasibətlərinin gərginləşməsinə nail olmaq idi.

Viktoriya Nulandın AŞPA-da Ermənistanı qorumaq nəyinə lazımdır? Bu onun səlahiyyətinə aiddirmi? Məgər AŞPA-da işğal altındakı Azərbaycan torpaqlarıyla bağlı Uolterin qətnaməsi qəbul edilsəydi, bu, Vaşinqtona hansı problem yaradacaqdı?

## Rəsmi Bakı beynəlxalq aləmə "müharibə olmayacaq" mesajı verə bilməz

İlham Əliyevin Münhen təhlükəsizlik konfransında iştirakı bir neçə səbəbdən vacibdir.

**Birincisi,** Ermənistan prezidenti Serj Sərkisyan bir neçə ildir nə Davos İqtisadi Forumunda, nə də Münhendə təhlükəsizlik konfransında iştirak edir. Bu da İlham Əliyevə Azərbaycanın haqlı mövqeyini maneə görmədən beynəlxalq birliyə çatdırmağa şərait yaradır. Çünki, əgər Ermənistan prezidenti bu tədbirlərdə iştirak edərsə, Sərkisyan öz təbliğatına dövlət başçılarını, diplomatları və ekspertləri inandırmağa çalışacaq. Onun dediklərinə kimsə şübhə ilə yanaşacaqa, başqaları inana da bilər. Ona görə də eyni məkanda Sərkisyanın təbliğatıyla üzləşməyən İlham Əliyevin Azərbaycanın mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün zəruri imkan qazanır.

**İkincisi,** Azərbaycanın iqtisadi və sosial həyatda ciddi çətinliklərlə üzləşməsinə baxmayaraq, həm Davos, həm də Münhendə Azərbaycanın iştirakı ilə enerji və tranzit layihələrinin təqdimatı keçirilir. Bu o layihələrdir ki, Avropa və ABŞ da bunların qısa zamanda reallaşmasında maraqlıdırlar. Misal üçün İlham Əliyevin 2016-cı ildə Münhendə iştirak etdiyi paneldə əsas müzakirə mövzusu enerji resurslarının dünya bazarlarına təhlükəsiz çatdırılması idi.

**Üçüncüsü,** İlham Əliyevin Münhen təhlükəsizlik konfransında iştirakını şərtləndirən bir başqa səbəb Dağlıq Qarabağ münaqişəsidir. Rəsmi Bakı Qarabağ münaqişəsinin həlliylə bağlı beynəlxalq aləmin yanaşmasından narazı olsa da, Qərblə bu mövzu ətrafında fikir mübadiləsini davam etdirməkdə maraqlıdır.

İlham Əliyev və digər Azərbaycan rəsmiləri daima avropalı həmkarlarına anlatmağa çalışırlar ki, Azərbaycan torpaqlarının işğalı faktının davamı yalnız bölgə üçün deyil, Avropa İttifaqı üçün də ciddi təhlükə yaradır. Avropa İttifaqı Azərbaycanı Avropanın cənub sərhədi kimi dəyərləndirir. Bu isə o deməkdir ki, Dağlıq Qarabağda başlanacaq müharibə Avropa İttifaqının sərhədində gedəcək. Ona görə də əgər Avropa İttifaqı Cənubi Qafqazda yeni müharibə istəmirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə maraqlanmalıdır.

Bu mənada İlham Əliyevin Münhendəki çıxışlarının əsas qayəsini məhz o faktor təşkil edir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilmədən Cənubi Qafqazda sabitlik olmayacaq. Elə İlham Əliyevin Münhendə 2016-cı ildə erməni diplomatın sualına verdiyi cavabda da bu fikir yer alırdı ki, "əgər sabitlik istəyirsinizsə, işğala son qoyun". Bu, İlham Əliyevin artıq neçənci dəfədir ki, Ermənistana və beynəlxalq aləmə mesajıdır. Başqa sözlə, bu o deməkdir ki, işğala son qoyulmayana qədər Azərbaycan müharibə başlamayacağına dair kimsəyə təminat verməyəcək.

Bu vəziyyət Avropa strukturlarının diqqətini cəlb etməlidir. Təsadüfi deyil ki, NATO baş katibi Yens Stoltenberq "Azadlıq" radiostansiyasına müsahibəsində dedi ki, *"hazırda ən vacib məsələ Dağlıq Qarabağ münaqişəsi tərəflərinin iradə nümayiş etdirərək vəziyyətin gərginləşməsinə yol verməməsidir".*

**Rusiya və Azərbaycan prezidentləri iki gündə nə haqda danışıblar?**
Azərbaycan Xarici İşlər Nazirliyi 2016-cı il fevralın 23-də Rusiyaya nota göndərdi. Notada Rusiyanın Ermənistana silah və hərbi texnikanın alınması üçün 200 milyon dollar kredit verməsindən Azərbaycanın narahatlığı bildirildi.

Əlbəttə, istənilən ölkəyə silah satması və ya bu məqsədlə kredit ayırması Rusiyanın hüququdur. Ancaq Kreml hər yerdə beynəlxalq hüququn aliliyindən və Suriyanın ərazi bütövlüyünə hörmətdən danışır. Buna görə də Kreml Suriya kimi Azərbaycanın ərazi bütövlüyünə da hörmət etməlidir. Rusiya Ermənistana silah verə bilər, ancaq üzərinə təminat götürməlidir ki, bu silahlar Azərbaycanın işğal altındakı torpaqlarında yerləşdirilməyəcək. Elə Azərbaycan XİN-in notası da məhz bu sözlərlə bitir ki, Rusiya 200 milyon dollarlıq silah və texnikanın işğal altındakı ərazilərdə yerləşdirməyəcəyinə dair zəmanət verməlidir.

Kreml belə bir zəmanət vermədi. Çünki Rusiya həmin silah və texnikanı kasıb Ermənistana məhz ona görə verdi ki, separatçılar Azərbaycan qarşısında hərbi nöqteyi-nəzərdən zəifləməsinlər. Azərbaycanın hərbi imkanları və hərbi büdcəsi ilbəil artır. Ermənistanın isə belə imkanları yoxdur. Ona görə də Rusiya Ermənistana hərbi dəstəyini artırır.

Rusiya XİN-in sözçüsü Mariya Zaxarova həftəlik mətbuat konfransında bu mövzuda suala cavab verərkən dedi ki, Moskva Cənubi Qafqazda balansı saxlamaq üçün həm Azərbaycana, həm də Ermənistana silah satır. Əslində bu belə deyil. Rusiya Azərbaycana silah satır və pul qazanır, Ermənistana isə silahı pulsuz verir və bundan qazancı olmur.

Rəsmi Bakının Moskvaya göndərdiyi notadan iki gün sonra Azərbaycan və Rusiya prezidentləri telefonla danışdılar. Rəsmi məlumatda prezidentlərin Suriyada əldə olunan atəşkəs razılaşmasından danışdıqları bildirildi. Bir gün sonra, prezidentlər yenidən telefonla danışdılar.

Beləliklə, Azərbaycan və Rusiya prezidentləri iki gün ərzində (25 və 26 fevral) iki dəfə telefonla danışdılar. Bu ona bənzəyirdi ki, hansısa qohumuna zəng edib uzun-uzadı danışdıqdan sonra sabahısı yenə zəng edib soruşursan ki, “tamam yadımdan çıxmışdı, o biri məsələ necə oldu?”

Görəsən, Putini azərbaycanlı həmkarı ilə iki gün dalbadal müzakirə aparmağa nə vadar edib?

Yaxın tarixdə Rusiya və Azərbaycan prezidentlərinin iki gün ard-arda telefonla danışdığını xatırlamaq çətindir. Azərbaycan o ölkə deyil ki, Moskva Bakı ilə beynəlxalq mövzuları geniş müzakirə etsin. Rusiyanın Ermənistana silah almaq üçün verdiyi 200 milyon dollarlıq kreditdən sonra prezidentlərin Dağlıq Qarabağ problemini müzakirə etməsi də az ehtimal olunurdu. Bu, Putin üçün aktual mövzu deyil. Bəs onda prezidentlər nəyi müzakirə ediblər?

**Birincisi,** İlham Əliyev İrana səfərinin nəticələri barədə Vladimir Putini məlumatlandıra bilərdi. Çünki Azərbaycan prezidentinin İrana səfərinin Rusiyaya da aidiyyatı var. Azərbaycan Rusiya ilə İran arasındakı dəmir yolu tikintisini 2016-cı ilin sonuna qədər başa çatdırmaq istəyirdi. Bunun nəticəsində Rusiya öz mallarını həm İrana, həm də Fars körfəzi

üzərindən başqa Asiya ölkələrinə ixrac edəcək. İran da öz növbəsində mallarını Azərbaycan və Rusiya üzərindən Avropa ölkələrinə daşıyacaq.

**İkincisi,** Rusiya Suriya məsələsində Azərbaycanın neytral qalmasını istəyirdi. Digər tərəfdən, Putin rəsmi Bakının Suriya məsələsində Türkiyəni dəstəkləməsini  və Azərbaycanın "İslam koalisiyasında" yer almasının da əleyhinə ola bilərdi. Bu məsələdə Kremlin narahatlığı üçün əsas yox idi. Azərbaycan Suriya məsələsində neytrallığını da qorudu, "İslam koalisiyasına" üzv olmağa da hazırlaşmadığını bəyan etdi. Rəsmi Bakı Suriyaya görə balanslaşdırılmış xarici siyasətindən imtina etməyəcək.

Putin Əliyevə ikinci dəfə fevralın 26-da zəng etdi. Azərbaycanda bu tarixi Xocalı soyqırımı kimi qeyd edirlər. Ona görə də telefon danışığı ilə bağlı bu sual da aktual idi: Putin Xocalı soyqırımının ildönümü ilə bağlı Əliyevə başsağlığı verdimi? Çətin. Başsağlığı olsaydı, Azərbaycan XİN bu haqda məlumat verərdi.

## Üçüncü də gəlir

İran Xarici İşlər Nazirliyinin sözçüsü Hossein Jaber Ansari fevralın 29-da jurnalistlərə verdiyi açıqlamada dedi ki, tezliklə Azərbaycan, İran və Rusiya xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək: *"Bu görüşdə prezidentlər İlham Əliyev və Hassan Rouhaninin Tehran razılaşmalarının icrası məsələsi müzakirə olunacaq".* İran Xarici İşlər Nazirliyinin sözçüsü əlavə etdi ki, Azərbaycan və İran prezidentlərinin Tehrandakı razılaşmalarının icrası iki ölkənin bir-birilə əlaqələrinin daha da inkişafına təkan verməklə yanaşı, bunun digər qonşu ölkələrlə əlaqələrin inkişafına da müsbət təsiri var. Yəni digər qonşu ölkə dedikdə, söhbətin əsasən Rusiyadan getdiyi aydınlaşırdı.

Beləliklə, İlham Əliyevin İrana 2016-cı ildəki rəsmi səfəri bölgədə sayca dördüncü yeni üçtərəfli Azərbaycan-İran-Rusiya formatının formalaşmasına təkan verdi. Bundan əvvəl Azərbaycan digər üçtərəfli formatlarda iştirak edirdi: Azərbaycan – İran – Türkiyə, Azərbaycan – Türkiyə – Türkmənistan və Azərbaycan – Gürcüstan – Türkiyə. Adları çəkilən formatlardan yalnız Azərbaycan – Gürcüstan – Türkiyə formatı işləkdir, xarici işlər nazirləri tez-tez görüşürlər. Çünki bu üçtərəfli format konkret layihələrə və onların icrasına əsaslanır.

Azərbaycanın İranla dialoquna Rusiyanın qoşulması rəsmi Bakının maraqlarına cavab verir.

**Birincisi,** Azərbaycanla İranın dəmiryollarının birləşdirilməsi Rusiyanın da xeyrinədir, bu ölkə öz mallarını həm İrana, həm də İran üzərindən Asiya ölkələri və Fars körfəzinə daşıyacaq. Azərbaycan digər tranzit layihələrində də iştirak edir, ancaq həmin dəmiryol qovşaqları Rusiyadan yan keçir. Bu isə Moskvada narahatlıq doğurur. Ona görə də rəsmi Bakı Moskvanın narahatlığını azaltmaq üçün Rusiyanın iştirakıyla şimal-cənub dəhlizini qısa zamanda yekunlaşdırmaq istəyir. Bu bir növ Heydər Əliyevin 1990-cı illərdəki xarici siyasətini xatırladır. Heydər Əliyev neftin dünya bazarlarına daşınmasında Qərbə üstünlük verməklə yanaşı, Rusiya istiqamətindən də imtina etmədi. Heydər Əliyev indi olduğu kimi Rusiyanın narahatlığını azaltmaq üçün Bakı – Novorossiysk boru xəttinin tikintisinə razılıq

verdi. Halbuki, 2016-cı ildə Bakı – Novorossiysk boru xətti ilə Azərbaycan nefti demək olar ki, daşınmayıb.

**İkincisi,** Rusiya yeni format vasitəsilə Azərbaycanı Suriya məsələsində Səudiyyə Ərəbistanı + Türkiyə koalisiyasından uzaq tutmağa çalışacaq. Rəsmi Bakı onsuz da bu məsələyə qarışmır. Ancaq rəsmi Bakı Azərbaycan – Rusiya – İran formatı çərçivəsində Türkiyə və Səudiyyə Ərəbistanının əleyhinə çıxa bilməzdi. Yəni Moskva və Tehran 2016-cı ildə Bakıdan Türkiyə və Səudiyyə Ərəbistanının əleyhinə bəyanat verməsini istəsəydi, Azərbaycan hakimiyyəti bu cür mətndən imtina edəcəkdi. Azərbaycanın imza atacağı mətndə yalnız iki cümlə yer ala bilərdi: "Azərbaycan Suriyanın ərazi bütövlüyünü dəstəkləyir", "Azərbaycan Suriyada sülhün bərqərar olmasını istəyir". Bundan artığına getmək həm Azərbaycanın təhlükəsizlik maraqlarına, həm də balanslaşdırılmış xarici siyasətinə zidd olacaqdı. Rəsmi Bakı birgə bəyanatda Əsədi dəstəkləyə bilməzdi.

Vaşinqton Azərbaycan – Rusiya – İran formatının əleyhinə çıxmayacaqdı. Əksinə, Azərbaycanın Rusiya ilə İran arasında sabitləşdirici rol oynaması ABŞ-ın xeyrinədir. Çünki adı çəkilən 3 ölkədən məhz Azərbaycan ABŞ-la enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq edir və rəsmi Bakı Moskva və Tehranın arzusu ilə ABŞ-la əməkdaşlıqdan imtina etməyəcək.

Azərbaycan Türkiyənin əleyhinə heç bir blokda yer almayacaq, əksinə, Azərbaycan yeni formatda öz maraqları ilə yanaşı, Türkiyənin də maraqlarını nəzərə alacaq. Bu mənada Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlunun 2016-cı il martın 4-də İrana həyata keçirdiyi səfər Azərbaycanın xeyrinə idi. Digər dövlətlər kimi Türkiyə də İran bazarı uğrunda yarışa qoşulur. Davudoğlu Tehrandakı danışıqlarda İranın TANAP layihəsinə qoşulmasını təklif etdi. İranın öz qazını Azərbaycan və Türkiyə üzərindən Avropa bazarlarına daşıması realdır. Doğrudur, Suriya məsələsində Ankara ilə Tehranın baxışları fərqlidir, ancaq bu, iqtisadi və ticarət əməkdaşlığının genişlənməsinə, birgə regional layihələrin icrasına mane olmamalıdır. İran hakimiyyəti Kremldən fərqli olaraq 2016-cı il ərzində Türkiyə ilə münasibətləri pisləşdirmədi, əməkdaşlığı davam etdirdi. Türkiyə ilə İran arasında ticarət mübadiləsinin həcminin 10 milyard dollardan 30 milyard dollara çatdırılması planlaşdırılır.

## Dmitri Roqozin Bakıya niyə gəlmişdi?

Rusiya baş nazirinin müavini, Rusiya – Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Dmitri Roqozin 2016-cı il martın 3-də Azərbaycana səfər edərək prezident İlham Əliyevlə görüşdü. Roqozinin səfəri əvvəlcədən planlaşdırılmamışdı. Buna görə də səfər günü Rusiyanın "Kommersant" qəzeti belə bir məqalə yayınladı ki, rəsmi Bakı Rusiyadan silah alışı üçün pulun ödənişini gecikdirir.

Roqozin il ərzində bir neçə dəfə Azərbaycana gəlir. O, Rusiya hakimiyyətində hərbi sənaye kompleksinə və bu sahənin inkişafına cavabdeh şəxsdir. Azərbaycan isə bir neçə ildir Rusiyadan müasir silahlar alır. Bu baxımdan Roqozin Bakıya Rusiya ilə Azərbaycan arasında hərbi əməkdaşlığın genişləndirilməsi məqsədilə gəlmişdi.

İki ölkə arasında hərbi əməkdaşlığın genişlənməsində Roqozinin rolu böyükdür. O, Rusiya ilə Azərbaycan arasında hərbi əməkdaşlığın bünövrəsini qoyan şəxsdir. Roqozin hazırki vəzifəsinə təyin olunana qədər Azərbaycan Rusiyadan indiki qədər silah və sursat almırdı. Müqavilələrin həcmi 4 milyard dollara çatır.

Buna baxmayaraq, "Kommersant" qəzetinin də yazdığı kimi mümkün idi ki, Rusiyadan silah və hərbi texnikanın alınması ilə bağlı Azərbaycanın obyektiv çətinlikləri yaranmışdı. Çünki Azərbaycanın neft gəlirləri azalmışdı, Rusiya ilə müqavilələr isə maliyyənin çox olduğu illərdə imzalanmışdı.

Bütün hallarda rəsmi Bakı Rusiya ilə imzaladığı müqavilələrdən imtina etməyəcəkdi. Əksinə, bütün çətinliklərə rəğmən, 2016-cı ilin büdcəsində hərbi xərclər bir az daha artırıldı. Sadəcə, silah və sursatın alınması məqsədilə ödəmənin hissə-hissə həyata keçirilməsi razılaşdırıla bilərdi. Roqozinin özü də Bakı səfərindən razı qaldı. O, səfərin yekununa dair "Twitter"dəki səhifəsində belə bir cümlə yazdı: *"Bakı səfərinin əsas yekunu: tərəflər hərbi-texniki əməkdaşlıq kimi həssas sahədə məsuliyyətli və etibarlı tərəfdaş olduqlarını təsdiqlədilər".*

Azərbaycan prezidenti böyük ehtimalla Roqozinlə qapalı danışıqlarda Rusiyanın Ermənistana silah və sursat alması üçün ayırdığı 200 milyon dollar kreditdən də danışıb. Bu faktor rəsmi Bakını ciddi narahat edirdi. Rəsmi Bakının Moskvadan əsas istəyi o idi ki, həmin silah və sursat işğal altındakı torpaqlarda yerləşdirilməsin. Moskva isə əvvəlkitək Azərbaycana belə bir təminat vermir.

## XİN-in hesabatındakı iki əsas faktor

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 2016-cı ildə "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabat yayınladı. Hesabatın hazırlanması zamanı 500-ə yaxın mənbəyə istinad edilib.

**Birincisi,** hesabatdan aydın oldu ki, Ermənistan müxtəlif beynəlxalq şirkətləri işğal altındakı torpaqlarda qeyri-qanuni fəaliyyətə cəlb etdirir.

**İkincisi,** Ermənistan işğal altındakı torpaqlarda qeyri-qanuni məskunlaşdırma fəaliyyətini davam etdirir.

XİN-in bu hesabatı hazırlaraykən yalnız Ermənistanın açıq mənbələrinə istinad etməsi doğru yanaşmadır. Bu taktika imkan verir ki, Azərbaycan XİN özünü beynəlxalq təşkilatların və Ermənistanın subyektiv tənqidlərindən qorusun. Çünki faktların yalan olduğunu iddia etsələr, bütün maraqlı tərəflərə Ermənistan istinadlı xəbərləri göstərmək olar. Əgər hətta faktların yalan olduğunu iddia etsələr, bunun özü belə Azərbaycanın xeyrinədir. Demək, Ermənistan bununla işğal altındakı torpaqlarda fəaliyyətin və məskunlaşmanın qeyri-qanuni olduğunu etiraf etmiş olacaq. Faktların doğruluğunun etirafı isə Ermənistanın beynəlxalq hüquqa hörmətsizliyinin göstəricisi kimi dəyərləndiriləcəkdi. Yəni, Ermənistan hakimiyyətinin

sənəddəki faktların doğru və yalan olduğunu iddia etməsi hər iki halda Azərbaycanın xeyrinə idi. Bunun nəticəsidir ki, Ermənistan hesabata heç bir reaksiya vermədi.

Buna baxmayaraq, beynəlxalq təşkilatların bu hesabatdan çıxış edərək Ermənistana təzyiq edəcəyi problematik idi. Beynəlxalq təşkilatlar məsələyə obyektiv yanaşsaydılar, birinci növbədə Ermənistana təzyiq edərdilər ki, silahlı qüvvələrini heç olmazsa Dağlıq Qarabağ ətrafındakı torpaqlardan çıxartsınlar. Bu, illərdir baş vermir və heç bir dövlət Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmaq üçün Ermənistan hakimiyyətinə təzyiq etmir. Ermənistana təzyiq yoxdursa, qeyri-qanunu məskunlaşdırma və ya işğal altındakı fəaliyyətə görə rəsmi İrəvana heç bir dövlət və təşkilat təzyiq etməyəcək.

Rəsmi Bakı bir neçə dəfə ATƏT-ə müraciət edərək işğal altındakı torpaqlara faktaraşdırıcı missiya göndərməyi tələb edib. XİN-nin hazırladığı hesabat əsasında ATƏT-dən növbəti dəfə faktaraşdırıcı missiyanın işğal altındakı torpaqlara göndərilməsi tələb oluna bilərdi. Ancaq bu missiyanın məsələyə aydınlıq gətirəcəyini vurğulamaq mümkün deyildi. Çünki, rəsmi Bakının tələbi ilə ATƏT oxşar missiyaları bir neçə dəfə işğal altındakı torpaqlara göndərib. Ancaq faktaraşdırıcı missiyanın hazırladığı hesabatlar "balanslı" olub. Faktaraşdırıcı missiya balanslı hesabatla nə Azərbaycanı, nə də Ermənistanı günahlandırmaq istəyib. Böyük ehtimalla ATƏT işğal altındakı torpaqlara yeni missiya göndərsə, hazırlanan hesabat Minsk qrupu həmsədrlərinin açıqlamalarına bənzəyəcəkdi. Çünki ATƏT rəhbərliyinin məntiqinə görə, heç bir təşkilat və hesabat Minsk qrupu həmsədrlərinin fəaliyyətinə mane olmamalıdır. Digər tərəfdən, Ermənistanın suriyalı qaçqınları Dağlıq Qarabağ ətrafındakı rayonlarda yerləşdirməsi siyasəti də Avropada etiraz doğurmayacaq. Tam əksinə, Brüssel Ermənistanın bu addımını miqrant probleminə kömək kimi qiymətləndirəcək.

## Ermənistan prezidentinin Moskvaya səfəri və Putinin Bakıya mesajı

Ermənistan prezidenti Serj Sərkisyan 2016-cı ilin martın 10-da Moskvaya Azərbaycandan şikayət etməyə və Rusiyadan pul istəməyə getmişdi. Rusiya və Ermənistan bərabərhüquqlu ölkələr deyillər. Ermənistan Rusiyadan asılı dövlətdir. Ermənistan Rusiyanın tapşırıqlarını yerinə yetirməlidir, Sərkisyan Moskvada təklif və istəklərini dilə gətirə bilər, ancaq heç bir zəmanət yoxdur ki, Kreml sadalananlardan çıxış edərək hansısa addımlar atacaq. Məsələn Serj Sərkisyan az qala bütün müsahibələrində deyir ki, "Rusiyanın Azərbaycana silah satmasına təəssüf edirik". Sərkisyan mövcud vəziyyətdən yalnız "təəssüflənə" bilər, Moskva isə öz bildiyi kimi hərəkət edəcək.

Serj Sərkisyanın Moskvaya səfərindən bir gün əvvəl Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan Rusiyanın "Kommersant" qəzetinə müsahibə verdi. O da prezidenti kimi Rusiyanın Azərbaycana silah satmasından narahatlığını bildirdi. Ermənistan rəsmiləri məsələni belə qoyurlar ki, "Rusiyanın Cənubi Qafqazda tək hərbi-strateji müttəfiqi Ermənistan olduğu halda, Moskvanın Azərbaycana silah satması Ermənistanın mövqelərini zəiflədir və rəsmi Bakı həmin silahlardan Ermənistana qarşı istifadə edir". Kreml vassalının bu tip açıqlamalarını qulaqardına vurur. Məsələ burasındadır ki, Azərbaycana satdığı silah və

hərbi texnikadan Rusiya milyardlarla dollar qazanır, Ermənistan isə Moskvaya əlavə yükdür, bu dövlətə verilən silah və hərbi texnikadan bir rubl qazanc yoxdur.

Rusiya ilə İran əməkdaşlığının Azərbaycan üzərindən qurulması da İrəvanı ciddi narahat edir. Ermənistan hakimiyyətinin son günlərə qədər iki böyük ümidi var idi ki, Rusiya və İran ortaq layihələrdə Ermənistana üstünlük verəcəklər. Ancaq bu ümidlərin heç biri gerçəkləşmədi.

**Birinci ümid** o idi ki, Rusiya-İran arasındakı dəmiryol xətti Ermənistandan keçəcək. Bu alınmadı. Azərbaycan prezidenti İlham Əliyev İranda səfərdə olarkən İrəvanın bu gözləntisinin üstündən xətt çəkdi. Tehranda əldə olunan razılaşmaya görə, Rusiya ilə İranı birləşdirəcək dəmiryolu Azərbaycandan keçəcək və tranzit haqlarından əldə edilən gəlir Azərbaycana çatacaq. Başqa cür olması da çətindir. Azərbaycanda dəmiryol xətləri hazır vəziyyətdədir, qısa məsafəni inşa etmək üçün maliyyə də var. Bunların heç biri Ermənistanda yoxdur. Ermənistanın Rusiya ilə İran arasında tranzit dəmiryolu tikintisi üçün dağlardan yollar çəkilməlidir, bu isə milyardlarla dollar xərc deməkdir. Ermənistanda bu qədər pul yoxdur, nə Rusiya, nə də İran buna yatırım qoymaz. Hazır yol varkən, Ermənistana üstünlük verilməsi iqtisadi baxımdan səmərəsizdir.

**İrəvanın ikinci ümidi** İran qazının Ermənistan üzərindən Gürcüstana çatdırılması idi. İrəvanın bu ümidi də nəticəsiz qaldı. Çünki Azərbaycan Dövlət Neft Şirkəti Gürcüstanla razılaşaraq bu ölkəyə satacağı qazın həcmini artırdı. Rəsmi Tiflis bəyanat verdi ki, belə olan halda Gürcüstanın İran qazına ehtiyacı qalmayıb. Ermənistan Gürcüstana ötürüləcək İran qazı ilə bölgədə statusunu artırmaq istəyirdi. Bu da alınmadı. Sərkisyan bütün regional layihələrdən kənarda qalması mövzusunu da böyük ehtimalla Moskvada müzakirə edib. Ancaq bu məsələdə də Moskvanın Sərkisyana dəstəyi mümkün deyil. Zaman keçdikcə erməni cəmiyyəti Ermənistanın niyə bütün regional layihələrdən və gəlirlərdən məhrum olmasının səbəblərini ölkəni səfalətə sürükləyən hakimiyyətindən soruşacaq. Ermənistan Dağlıq Qarabağ və ətraf rayonları işğal etməsəydi və ya vaxtında ədalətli sülhə razılaşsaydı, bu gün regional layihələrdən Gürcüstanın əldə etdiyi qazanclar Ermənistana çatacaqdı.

Nalbandyan "Kommersant"a müsahibəsində atəşkəsin pozulmasına görə Azərbaycanı ittiham edir və belə bir görüntü yaradır ki, guya İrəvan Minsk qrupunun bütün təkliflərindən razıdır, ancaq rəsmi Bakı işləri pozur. Sərkisyan da hər yerdə eyni şikayəti səsələndirir.

Aydındır ki, Kreml Azərbaycanla Ermənistan arasında müharibədə maraqlı deyil. Kreml eyni zamanda Azərbaycanın hərbi yolla işğal altındakı torpaqlar üzərində nəzarətini bərpa etməsini də istəmir. Ancaq Rusiya Ermənistanın təhlükəsizliyinə cavabdehdir, Dağlıq Qarabağ və ətraf rayonların Rusiyaya aidiyyatı yoxdur. Azərbaycan ordusu işğalçının Dağlıq Qarabağ ətrafındakı hərbi postlarını vurduqda Rusiya bunun qarşısını alacaq addımlar atmır. Çünki Moksvanın buna kəskin reaksiya verməsi məntiqdən kənar olar, Rusiya Dağlıq Qarabağ ətrafındakı torpaqları Azərbaycan ərazisi sayır. Ümumiyyətlə, Qarabağ mövzusu Putin üçün maraqlı deyil. Təsadüfi deyil ki, Moskvada mətbuat konfranslarından birində azərbaycanlı jurnalistlərdən biri ona sual vermək istədikdə "Yenə Qarabağdan sual verəcəksiniz" deyərək başqa mövzuya keçmişdi.

Serj Sərkisyanın Moskvadakı görüşlərdə Türkiyədən də şikayət etdiyini proqnozlaşdırmaq olardı. Ermənistan hakimiyyəti 2016-cı ildə gərginləşən Moskva – Ankara münasibətlərindən öz məqsədləri üçün istifadə etmək istəyirdi. Sərkisyan Putindən xahiş edə bilərdi ki, Türkiyənin Cənubi Qafqazda fəallaşmasına imkan verməsin, Ermənistanı Türkiyə – Azərbaycan hərbi ittifaqından qorusun. Türkiyə – Azərbaycan hərbi ittifaqı möhkəmlənir, ayrıca, birgə hərbi təlimlər planlaşdırıldığı kimi, 2016-cı ildə də uğurla həyata keçirildi. Buna nə İrəvan, nə də Moskva mane ola bilərdi. Necə ki, Rusiya Ermənistanla hərbi ittifaqını hər keçən gün gücləndirir, bu ölkədəki hərbi bazasına modern silahlar yerləşdirir, eləcə də Azərbaycanın tam ixtiyarı çatır ki, Türkiyə ilə hərbi-strateji müttəfiqliyini daha üst səviyyəyə qaldırsın.

Bu arada, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov martın 11-də verdiyi açıqlamada dedi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli beynəlxalq vasitəçilər tərəfindən deyil, yalnız onun iştirakçıları tərəfindən tapıla bilər. Onun sözlərinə görə, Rusiya münaqişənin həllinə yardım etmək üçün beynəlxalq formatlarda fəaliyyətini davam etdirir.

Rusiya prezidentinin mətbuat katibinin sözlərini belə anlamaq lazım idi ki, Azərbaycan və Ermənistan prezidentləri Rusiyadan Dağlıq Qarabağ münaqişəsinin həllini gözləməsinlər. Əslində Ermənistanın heç belə bir gözləntisi də yoxdur. Dmitri Peskovun mesajı daha çox rəsmi Bakıya ünvanlanmışdı. Çünki məhz Azərbaycan hakimiyyəti Rusiyanın Ermənistana təsir edəcəyini gözləyir. Rusiya prezidenti Vladimir Putin isə mətbuat katibinin sözləri vasitəsi ilə demək istəyirdi ki, Moskva İrəvana təsir etməyəcək və Dağlıq Qarabağla bağlı status-kvo Kremli narahat etmir, tam əksinə, indiki vəziyyətdən razıdırlar.

Dmitri Peskovun dediyi kimi, əgər Dağlıq Qarabağ münaqişəsinin həlli beynəlxalq vasitəçilər tərəfindən deyil, yalnız onun iştirakçıları tərəfindən tapılmalıdırsa, Putin niyə ara-sıra Azərbaycan və Ermənistan prezidentlərini görüşdürür və ya keçmiş dövlət başçısı Dmitri Medvedyev niyə azərbaycanlı və erməni həmkarını düz 10 dəfə bir araya gətirmişdi?

## Atəşkəsin pozulması halları artacaq

ATƏT sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik 2016-cı ilin Pasxa və Novruz bayramlarında Azərbaycanla Ermənistanın atəşkəs rejiminə əməl etməsi ilə bağlı çağırış etdi. Onun bu çağırışını ATƏT-in fəaliyyətdə olan sədri Almaniya və Minsk qrupunun həmsədrləri də dəstəklədilər. Həmsədrlərin bəyanatında deyilirdi ki, Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsində irəliləyişə nail olmaq və dinc əhaliyə qarşı zorakılıqdan qaçınmaq üçün tərəflər təmas xəttində və Azərbaycanla Ermənistan sərhədində bütün tədbirləri görməlidirlər.

Buna baxmayaraq, bayram günlərində atəşkəsə riayət olunmadı, itkilər qeydə alındı. Atəşkəsin pozulması faktları göstərdi ki, beynəlxalq vasitəçilərin çağırışları Bakı və İrəvanda nəzərə alınmır. Minsk qrupu həmsədrlərinin fəaliyyətindən ən çox narazı olan isə rəsmi Bakıdır.

İlham Əliyev 2016-cı ildə Novruz bayramı münasibətilə keçirilən tədbirdəki çıxışında dedi ki, həmsədrlərin fəaliyyətindən həmişə narazı olub, ancaq onların yanvar ayında atdıqları addım onu daha çox narazı salıb. Söhbət yanvar ayında Avropa Şurası Parlament Assambleyasında Qarabağla bağlı iki qətnamənin səsverməyə çıxarılmasından gedir. Bu səsvermədən əvvəl ATƏT-in Minsk qrupu həmsədrləri ortaq bəyanat yayaraq AŞPA-dakı qətnamələrin onların fəaliyyətinə mane olacağını bildirmişdilər. Bunun nəticəsində iki qətnamədən biri qəbul edilmədi. İlham Əliyevin çıxışından gəlinən nəticə budur ki, həmsədrlər belə bir bəyanat verməsəydilər, AŞPA-da hər iki qətnamə qəbul ediləcəkdi.

Həqiqətən həmsədrlər AŞPA-dakı səsvermənin əleyhinə çıxmaqla faktiki Ermənistanın mövqeyini dəstəklədilər. Çünki, rəsmi İrəvan da AŞPA-da Qarabağla bağlı qətnamələrin müzakirəsinin əleyhinədir. Elə buna görə də Ermənistandan olan deputatlar AŞPA komitələrində Qarabağla bağlı müzakirələrə qatılmaq istəmirlər. Bunun səbəbi var. Çünki AŞPA bu növ məsələlərdə ərazi bütövlüyü prinsipindən çıxış edir. Məsələn, AŞPA Ukraynanın ərazi bütövlüyünü dəstəkləyərkən, Azərbaycanla bağlı fərqli mövqe tuta bilməz. Bu, ikili standart olar. Ona görə də rəsmi Bakı AŞPA-da Qarabağla bağlı daha çox müzakirələrin keçirilməsinə və qətnamələrin qəbuluna çalışır. Ancaq problem ondadır ki, bu müzakirə və qətnamələr münaqişənin həlli prosesinə təsir etmir. Məsələn, AŞPA-nın yanvar sessiyasında Azərbaycanın işğal altındakı ərazilərində su mənbələrinin istifadəsinə dair qətnamə qəbul edildi. Ancaq həmin qətnamə də yerinə yetirilmədi. 2005-ci ildə də AŞPA-da Qarabağla bağlı qətnamə qəbul edilmişdi. Üstündən 11 il keçdikdən sonra həmin qətnamə də unudulub.

İlham Əliyev Novruz bayramı ilə bağlı çıxışında vacib bir cümlə də işlətdi: ***"Azərbaycanın cəbhə bölgəsindəki üstünlüyü artıb"***. Bu sözləri necə başa düşmək lazım idi?

**Birincisi,** İlham Əliyev bununla demək istəyirdi ki, Azərbaycan status-kvonun uzanmasına şərait yaradan atəşkəsdən narazıdır. Çünki bu halda beynəlxalq vasitəçilər yalnız atəşkəsin qorunması haqqında düşünür, münaqişənin həlliylə məşğul olmurlar.

**İkincisi,** İlham Əliyevin sözlərindən bunu anlamaq lazım idi ki, Azərbaycan getdikcə Ermənistana hərbi təzyiqi artıracaq. Bu məqsədlə Azərbaycan ordusu daha da gücləndiriləcək, ordu üçün yeni silah və hərbi texnika alınacaq.

Beləliklə, münaqişənin sülh yolu ilə həlli uzandıqca bölgədə vəziyyətin getdikcə gərginləşəcəyi şəksiz idi. Bunu 2016-cı ilin mart ayında açıq hiss etmək mümkün idi. Rəsmi Bakı Ermənistana təzyiqin artırılması üçün beynəlxalq vasitəçilərin atəşkəsin pozulması hallarını araşdıran qrupun yaradılmasına razılıq vermədi.

Əslində rəsmi İrəvan da anlayırdı ki, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa razı olmayana qədər atəşkəs daima pozulacaq, bölgədə müharibə risqi azalmayacaq. Buna baxmayaraq, 2016-cı il ərzində də Ermənistan prezidenti Serj Sərkisyan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq qərarına hazır deyildi. Həmin rayonların işğalında Serj Sərkisyan bilavasitə iştirak edib. Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan 1990-cı illərin ortalarında Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazır idi. Bu plana

mane olmaq üçün Levon Ter-Petrosyanı  məhz keçmiş nazirlər Serj Sərkisyanla Robert Köçəryan hakimiyyətdən devirdilər. İndi Serj Sərkisyan Dağlıq Qarabağ üçün status və ya referendum tarixi almadan Dağlıq Qarabağ ətrafındakı rayonları azad etsə, belə çıxacaq ki, o, Levon Ter-Petrosyanı nahaq yerə devirmişdi.

Bütün hallarda münaqişənin həlli Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasından keçir. Bu olmadan müharibənin hər an başlaya biləcəyi sezilirdi.

## İlham Əliyev 13 ildən sonra Vaşinqtonda...

Prezident İlham Əliyevin 2016-cı ildə ABŞ-a səfəri tarixi əhəmiyyət daşıyırdı. Tarixilik ondan ibarət idi ki, İlham Əliyev prezident olduğu 13 ildə ilk dəfə ABŞ-a bu qədər vacib səfər edirdi. Doğrudur, Azərbaycan prezidenti Vaşinqtona nüvə təhlükəsizliyi konfransı ilə əlaqədar gedirdi və ABŞ prezidenti Barak Obama İlham Əliyevlə xüsusi olaraq görüşüb geniş fikir mübadiləsi aparmadı. Ancaq bütün hallarda İlham Əliyev Vaşinqtonda çoxlu görüşlər həyata keçirməli idi.

Əgər əvvəllər İlham Əliyev ancaq BMT tədbirlərində iştirak etmək üçün ABŞ-a səfər edir və görüşlərin məkanı Nyu-York olurdusa, Azərbaycan prezidenti bu dəfə Amerikanın paytaxtında ikitərəfli münasibətlərin keçmişi, bu günü və gələcəyini müzakirə etdi. Bu, hər iki dövlətin maraqlarına xidmət edirdi. Əslində İlham Əliyevin ABŞ-dakı görüşləri səfərdən əvvəl nəticə verməyə başladı. Səfər ərəfəsində Azərbaycanda onlarla siyasi məhbus azad edildi. İlham Əliyevin əfv siyasəti konqresmen Kristofer Smitin Azərbaycan hakimiyyəti əleyhinə hazırladığı qanun layihəsinin aktuallığını da azaltdı.

Azərbaycan prezidenti 30 mart tarixində ABŞ-ın keçmiş dövlət katibi Con Kerri, bu ölkənin keçmiş ticarət naziri Penni Pritzker, ayrıca, konqresmenlərlə və yəhudi lobbisinin rəhbərləri ilə görüşlər keçirdi. Həm İlham Əliyevin, həm də Con Kerrinin görüş sonrası brifinqdə verdikləri mesajlar əhəmiyyətli idi. Kerrinin birinci mesajı o oldu ki, ABŞ-ın Azərbaycanla üzərində birgə işlədiyi çox sayda ümumi maraqları var. Daha sonra Kerri Azərbaycanın mürəkkəb regionda yerləşdiyini xatırladaraq "Cənub Qaz Dəhlizi"nin reallaşmasında İlham Əliyevin xüsusi rolunu qeyd etdi. Kerri enerji mövzusundakı fikrini belə yekunlaşdırdı ki, enerji mənbələrinin diversifikasiyası məsələsində Avropanın uzunmüddətli strateji maraqları baxımından Azərbaycan çox vacib rol oynayır.

İlham Əliyev də Amerikanın ünvanına xeyli tərif söylədi. İlham Əliyevin Azərbaycanın müstəqil olduğu 25 ildə ABŞ-ın ölkəmiz üçün etdiyi bütün yaxşılıqları xatırlatdı. Amerikanı dost və strateji tərəfdaş adlandıran İlham Əliyev qarşılıqlı əlaqələri yüksək qiymətləndirdi, ayrıca, bu müddətdə ABŞ şirkətlərinin Azərbaycan iqtisadiyyatına təxminən 10 milyard dollar sərmayə qoyduğunu deyərək Cənub Qaz Dəhlizi layihəsinin üzərində xüsusi dayandı.

İlham Əliyev Kerri ilə görüşdə və bundan əvvəl də ABŞ-ın enerji layihələrinə verdiyi dəstəyi xatırladırdı. İlham Əliyev fikirlərini hətta ona qədər inkişaf etdirdi ki, Vaşinqtonun dəstəyi olmasaydı, Azərbaycanın öz enerji resurslarını dünya bazarlarına çatdırması prosesi xeyli

uzanardı. Əslində, İlham Əliyev bunu deyərkən həm özünün, həm də keçmiş prezident Heydər Əliyevin  təcrübəsindən çıxış edirdi. Çünki 1990-cı illərin əvvəllərində İlham Əliyev Dövlət Neft Şirkətinin vitse-prezidenti olub və bütün xarici şirkətlərlə danışıqlara məsul idi. O zaman isə Rusiya hakimiyyəti Bakıya təzyiq edirdi ki, Azərbaycan neftini dünya bazarlarına daşıyacaq Bakı–Tiflis–Ceyhan boru xətti tikilməsin, Azərbaycanın bütün nefti Rusiya üzərindən daşınsın. Rəsmi Bakı təkbaşına Kremlə müqavimət göstərə bilməzdi. Bu zaman rəsmi Bakının köməyinə Vaşinqton çatdı. Və elə indinin özündə də TAP və TANAP layihələrinin reallaşması üçün Vaşinqton səylərini əsirgəmir. İş o yerə çatıb ki, amerikalı diplomatlar Avropanın qərar verən müxtəlif mərkəzlərində TAP və TANAP layihələri üçün lobbiçilik fəaliyyəti aparırlar. Halbuki, TAP və TANAP boru xətləri ilə daşınacaq qazın Amerikaya dəxli yoxdur, qaz Avropa ölkələrinə satılacaq. Buna baxmayaraq, Vaşinqton bu layihələrin reallaşmasıyla Avropanı az da olsa Rusiyanın qaz asılılığından qurtarmaq istəyir, eyni zamanda Azərbaycanın da inkişafını istəyir ki, ölkəmiz şimal və cənub istiqamələrindən təhlükələrlə üzləşməsin. Cənubi Qafqazda güclü Azərbaycanın varlığı ABŞ-ın xeyrinədir.

Buna baxmayaraq, ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllindəki passiv mövqeyi Azərbaycan hakimiyyətini, siyasi dairələrini və cəmiyyətini razı sala bilməzdi. Doğrudur, İlham Əliyev Con Kerri ilə görüşdə münaqişənin həlli yollarının tapılmasındakı səylərinə görə ABŞ hökumətinə minnətdar olduğunu dedi. ABŞ-ın keçmiş vitse-prezidenti Cozef Bayden də İlham Əliyevlə görüşdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini dedi. Ancaq bu sözlər sadəcə, diplomatik ifadələr idi. Reallıqda isə ABŞ Qarabağ münaqişəsinin həllində daha böyük məsafə qət edə bilərdi. Bunun üçün Vaşinqton Ermənistan hakimiyyətinə təsir etməliydi ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılsın.

## Azərbaycan ordusu Ağdamı azad etmək istəsə, bölgədə nə baş verəcək?

Mart ayının sonlarında cəbhə bölgəsində vəziyyət gərginləşdi. Atəşkəsin pozulması halları intensiv hal aldı. Müharibə ab-havası hiss olunurdu.

Ağdam rayonu cəbhə bölgəsinin ən həssas nöqtəsində yerləşir. Qarabağ düzünün ən iri şəhəri olan Ağdam 1993-cü ilin iyul ayından işğal altındadır. Azad olunmalı rayonlar və şəhərlər içərisində Ağdam ilk sırada gəlir.

Azərbaycan ordusu Ağdamı işğaldan azad etmək istəyərsə, bölgədəki vəziyyət hansı ssenari üzrə inkişaf edə bilər?

**Birinci ssenari.** Məlumdur ki, separatçılar Ağdam şəhərinin içərisini və ətrafını minalayıblar. Buna baxmayaraq, Ağdamın özündə separatçıların hərbi birləşmələri yoxdur. Azərbaycan ordusu bu faktordan istifadə edərək Ağdamı azad etmək əməliyyatına başlayarsa, erməni separatçıları Ağdamın nəzarətdə saxlanılması üçün güclü müqavimət göstərməyəcəklər. Çünki separatçılar Ağdamı özününkü saymır. Ağdam şəhəri dağıdılıb, orada kimsə yaşamır. Azərbaycan ordusu Ağdamı ələ keçirməklə Ermənistan üzərində hərbi və mənəvi üstünlük

qazanacaq və bununla Xankəndi ilə arasındakı məsafəni qısaldacaq. Ağdamın azad olunması Ermənistan hakimiyyətini danışıqlarda güzəştə məcbur edəcək və beləliklə, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması mövzusu xeyli aktuallaşacaq.

**İkinci ssenari.** Azərbaycan ordusu Ağdamın azad olunması əməliyyatına başladıqdan sonra Ermənistan Ağdam ətrafında əlavə hərbi qüvvələr toplayacaq və əks-hücumla Azərbaycan ordusunu əvvəlki mövqeyinə qaytarmağa çalışacaq. Bu müddətdə İrəvan ATƏT-dən tələb edəcək ki, atəşkəsi pozduğuna görə Azərbaycana təzyiq etsinlər və müharibəni dayandırsınlar. Ermənistan anlayır ki, Azərbaycan ordusu Ağdamın azad olunması ilə kifayətlənməyəcək, hərbi uğurunu genişləndirməyə və Dağlıq Qarabağ ətrafındakı digər rayonları da boşaltmağa çalışacaq. Bu isə artıq genişmiqyaslı müharibənin başlanması demək olacaq.

**Üçüncü ssenari.** Azərbaycan ordusu hücuma keçdikdən sonra Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağla yanaşı, Azərbaycanla sərhəddə – Qazax və Tovuz istiqamətlərində diversiyalar həyata keçirməyə çalışacaqlar. Azərbaycan ordusu bu diversiyalara cavab vermək məcburiyyətində qalacaq və Ermənistandakı hədəfləri vuracaq. Nəticədə Rusiya prosesə qarışacaq və Ermənstana hərbi dəstəyini artıracaq. Bu halda Azərbaycan Türkiyədən hərbi dəstək istəyəcək. Dağlıq Qarabağ uğrunda savaş regional savaşa çevriləcək. Türkiyə 1921-ci il Qars müqaviləsindən çıxış edərək öz qoşunlarını Naxçıvanda yerləşdirəcək.

**Dördüncü ssenari.** Azərbaycan ordusunun Ağdamda başlayacağı əməliyyat rəsmi Bakının Ermənistana təzyiq məqsədi daşıyacaq. Azərbaycan yalnız Ağdamın azad olunması ilə kifayətlənəcək və beynəlxalq təşkilatların prosesə qarışması nəticəsində ordu irəli getməyəcək. Ancaq bunun qarşılığında Bakı həm beynəlxalq təşkilatlardan, həm də Moskvadan təminat alacaq ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları hissə-hissə boşaldacaq. Əslində hadisələrin bu istiqamətdə inkişafı Ermənistanın da xeyrinədir. Çünki Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması, üstəgəl, azərbaycanıların Şuşa, Laçın və Kəlbəcərə geri dönmələrinə şərait yaratmaqla həm bölgədə müharibə risqini ortadan qaldıracaq, həm də Dağlıq Qarabağda yaşayan ermənilər üçün təhlükəsizlik təminatı alacaq.

Bu ssenarilərdən hər hansı birinin reallaşması Rusiyanın hansı addımlar atacağından asılıdır.

<u>Əsas sual budur:</u> ***Rusiya Azərbaycan ordusunun Ağdamın azad olunması əməliyyatına necə reaksiya verəcək?***

**Birinci variant** odur ki, Azərbaycan ordusu Ağdama daxil olan kimi Rusiya Gürcüstanda olduğu kimi Ermənistan üzərindən Azərbaycana hərbi müdaxilə edəcək. Məqsəd Azərbaycan ordusunun Ağdamı nəzarət altına almasına mane olmaq və Azərbaycan ordusunu əvvəlki pozisiyaya qayıtmağa vadar etməkdir. Ancaq bu halda Rusiya Azərbaycanla dost münasibətləri pozacaq, illərlə qurulmuş əlaqələr zədələnəcək. Digər tərəfdən, Türkiyə prosesdən kənarda qalmayacaq, Azərbaycana hərbi dəstək verəcək və bununla Cənubi Qafqazda Rusiya–Türkiyə hərbi qarşıdurması yaranacaq.

**İkinci variant** isə odur ki, Kreml Ağdamın Azərbaycan ordusu tərəfindən azad olunması əməliyyatına soyuqqanlı yanaşacaq, Ermənistana hərbi dəstəyini artırmaqla və Bakıya ünvanlanmış "müharibəni dayandırın" tipli bəyanatlar verməklə kifayətlənəcək, Dağlıq Qarabağa qoşun yeritməyəcək. Rusiyanın Ermənistan üçün edə biləcəyi ən böyük yaxşılıq İrəvanı Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa razı salmaqdır. Əgər Rusiya bu istiqamətdə addımlar atarsa, Azərbaycan ordusu yalnız Ağdam əməliyyatı ilə kifayətlənəcək. Bununla Rusiya Azərbaycanla dost münasibətlərə də zərər verməyəcək, Türkiyə ilə qarşıdurmadan da çəkinəcək, üstəgəl, bölgədəki sülhün əsas təminatçısı statusunu qazanacaq.

Ağdamın işğalçılardan təmizlənməsi əməliyyatı heç zaman aktuallığını itirməyib.

## Aprel: 4 günlük müharibənin hərbi, siyasi və diplomatik nəticələri...

Azərbaycanla Ermənistan arasında atəşkəs sazişi 1994-cü ildə Qırğızıstanın paytaxtı Bişkəkdə imzalanıb. 10 il ərzində atəşkəsə ciddi riayət olundu, cəbhə bölgəsində təsadüfi hallarda insidentlər qeydə alınırdı. İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra Ermənistan qarşısında qəti tələb qoydu: Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Ermənistan hakimiyyəti bununla razılaşmadı və danışqlarda Dağlıq Qarabağın statusunu ön planda tutdu.

2006-cı ildən Azərbaycanın neft gəlirləri artmağa başladı və orduya xərclənən vəsait dəfələrlə artdı. Nəticədə Azərbaycanın hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çox oldu. Azərbaycan müxtəlif dövlətlərdən müasir silahlar aldı. Daha sonra Azərbaycan prezidentinin qərarı ilə Hərbi-Sənaye Nazirliyi yaradıldı, yeni hərbi zavodlar işə başladı. Artıq aydın idi ki, Azərbaycan silah və texnikaya milyardlarla dolları konkret məqsəd üçün xərcləyir.

Nəhayət, atəşkəsin imzalandığı 22 ildən sonra Azərbaycan ordusu cəbhə xəttinə irəliləməyə qərar verdi. Bununla bağlı iki sual müzakirə olunur.

**Birinci sual:** *Atəşkəsi birinci hansı tərəf pozdu?*

Ermənistan atəşkəsi geniş şəkildə pozmaqda maraqlı deyildi. Çünki Ermənistan hakimiyyəti düşünürdü ki, istəyinə 1994-cü ildə nail olub, Dağlıq Qarabağdan əlavə Azərbaycanın digər 7 rayonunu da işğal edib və buna "bufer zonası" adı verib. Başqa sözlə, İrəvan status-kvonun saxlanmasında maraqlı idi. Ancaq son illər Azərbaycan ordusu kimi Ermənistan ordusu da cəbhə bölgəsində atəşkəsi pozurdu ki, Azərbaycana gücünü göstərsin. Azərbaycan ordusu isə atəşə atəşlə cavab verirdi. Bu dəfə isə rəsmi Bakının planı belə olub ki, Ermənistan atəşkəsi pozsa, ordu hücuma keçəcək və strateji yüksəklikləri nəzarətə götürəcək. Belə də oldu. Ermənistan ordusunun atəşkəsi pozmaq təxribatına Azərbaycan ordusu hücumla cavab verdi. Bunu Ermənistan hakimiyyəti və Dağlıq Qarabağdakı separatçılar gözləmirdilər.

**İkinci sual:** *Atəşkəsin pozulmasında Rusiyanın rolu olubmu?*

Həmin günlərdə belə bir fikir var idi ki, əgər Azərbaycan ordusu Dağlıq Qarabağ ətrafındakı rayonlardan bir neçəsini azad etmək istəsə, Rusiya bu prosesə qarışmayacaq, separatçılara dəstək verməyəcək. Yəni Rusiya Azərbaycana kiçik müharibə aparmağa mane olmayacaq.

Bu, Rusiyaya ona görə lazım idi ki, Ermənistan hakimiyyətinə təzyiq etsin, sülh sazişi imzalansın və bununla Azərbaycanı da öz siyasi orbitinə cəlb edə bilsin. Əgər Rusiya işğal altındakı torpaqların boşaldılmasında aparıcı dövlət olarsa, Azərbaycan Moskvanın istəyi əsasında Rusiyanın planlarında yer almalı olacaq.

Döyüşlərin ilk günündə Rusiya rəsmiləri cəbhə bölgəsindəki gərginliyə görə Azərbaycanı tənqid etmədilər. Mümkündür ki, bu, İrəvanı narazı saldı. Ermənistanda düşünürdülər ki, Rusiya Azərbaycan ordusunun irəliləməsinə birinci gündən imkan verməyəcək. Ancaq ilk günlər Rusiya proseslərə qarışmadı. Rusiya üçün iki qırmızı xətt var idi. **Birinci qırmızı xətt** odur ki, Azərbaycan ordusu Ermənistan ərazisinə təhlükə yaratmasın. Azərbaycanın onsuz da belə bir planı yoxdur. Rusiya üçün **ikinci qırmızı xətt** odur ki, Azərbaycan ordusu Xankəndiyə daxil olmasın. Azərbaycanın ilkin mərhələdə belə bir planı yoxdur. Əsas vəzifə Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasıdır.

"Rusiya Ukraynada olduğu kimi separatçılara dəstək məqsədilə Dağlıq Qarabağa da xüsusi təyinatlı dəstələr göndərə bilərmi" sualı da Azərbaycanda ciddi müzakirə olunurdu. Rusiya bu risqli addımı atmadı. Çünki Rusiyada anlayırdılar ki, Dağlıq Qarabağa Ermənistan üzərindən qeyri-rəsmi şəkildə xüsusi hərbi dəstələr göndərsələr, Azərbaycana müttəfiq olan dövlət və xalqlardan, o cümlədən Türkiyə, Pakistan və İranın azərbaycanlı əhalisindən də Azərbaycan tərəfə könüllülər gələcək. Bu isə müharibəni Dağlıq Qarabağın kənarına, o cümlədən Şimali Qafqaza keçirə bilər. Bu isə Rusiyanın maraqlarına uyğun deyil.

Bütün hallarda İlham Əliyev Kremlin istəyi ilə aprelin 6-da atəşkəsə razılaşdı. Azərbaycanın və Ermənistanın baş qərargah rəisləri Moskvaya dəvət olundular və Rusiya paytaxtında atəşkəs razılaşdırıldı. Bunun özü də bölgədəki nəzarətin Rusiyanın əlində olduğunu göstərdi.

Bu baxımdan başqa bir sual da meydana çıxırdı: *Azərbaycan ordusu döyüşləri hələ bir müddət də davam etdirə bilərdimi?*

Əlbəttə, Azərbaycan ordusu cəbhə bölgəsində xeyli irəli getsəydi və bir neçə rayonun azad olunması prosesini sürətləndirsəydi, dövlət başçısı Kremlin təzyiqinə baxmayaraq, müharibəni bir neçə gün də davam etdirəcəkdi. Ancaq cəbhədəki vəziyyəti prezidentdən və müdafiə naziri Zakir Həsənovdan yaxşı bilən yox idi. Ona görə də əgər prezident atəşkəsə razılaşdısa, o bu qərarı həm cəbhədəki vəziyyətə, həm də gedən diplomatik danışıqlara görə verdi.

Buna baxmayaraq, Azərbaycan tilsimi qırdı.

**Birincisi,** 22 ildən sonra Azərbaycan ordusu öz gücünü göstərdi. Azərbaycan ordusu ilə Ermənistan ordusu arasındakı fərqi hamı gördü. Əgər Azərbaycan ordusunun arsenalında modern silahlar və ağır hərbi texnika varsa, Ermənistan ordusunun 1980-ci illərin silahları ilə savaşdığı bəlli oldu. Bunu Ermənistan prezidenti Serj Sərkisyan aprelin 6-da Berlindəki çıxışı zamanı da etiraf etdi.

**İkincisi,** Azərbaycan ordusunun hücuma keçməsi cəmiyyətdə böyük ruh yüksəkliyi yaratdı. 22 ildən sonra Azərbaycan məğlub sindromdan qurtuldu, həmin günlərdə Azərbaycan bayrağı

evlərdə, küçələrdə, maşınlarda dalğalanırdı. İşğalçı ilə müharibə və Dağlıq Qarabağın azad olunması Azərbaycan xalqının milli və birləşdirici ideyasına çevrildi. Cəmiyyət sanki oyandı və hakimiyyətdən tələb etdi ki, bütün torpaqları güc yoluyla azad etsin. Azərbaycanın müasir tarixində ilk dəfə olaraq müxalifət də hakimiyyətə dəstək verdi.

**Üçüncüsü,** beynəlxalq aləmə ciddi mesaj verildi. Mesajın əhəmiyyəti onda idi ki, Azərbaycan uzun müddət işğal faktına dözməyəcək. Bu hadisəyə qədər beynəlxalq aləmdə Dağlıq Qarabağ ətrafındakı rayonlar mövzusu aktual deyildi. Cəbhə bölgəsindəki toqquşmalardan sonra beynəlxalq aləmin Dağlıq Qarabağ ətrafındakı rayonlara marağı artdı, hətta Qərbdə "bu rayonlar azad olunmalıdır" fikirləri eşidilməyə başladı. Bu faktor da Azərbaycanın diplomatik uğuru sayıla bilərdi.

Aprel döyüşü bir həqiqəti də üzə çıxartdı: Ermənistan danışıqlarda öz istəyi ilə Dağlıq Qarabağ ətrafındakı 5 rayonu azad etməsə, atəşkəs yenidən pozulacaq və Azərbaycan ordusu yenidən irəliləməyə çalışacaq. Hadisələrin necə inkişaf edəcəyi Moskvadan asılıdır. Əgər Kreml Cənubi Qafqazda müharibənin davamını istəmirsə, Ermənistan prezidenti Serj Sərkisyanı ilkin şərt irəli sürmədən 5 rayonu azad etməyə məcbur etməlidir. Əks halda, yəni danışıqlar yenə uzanacaqsa, bunun davamının nə olacağı İrəvana və Kremlə bəllidir.

Rusiya Cənubi Qafqazdakı proseslərə ən çox təsiri olan dövlətdir. Rusiya Ermənistanın strateji müttəfiqi, Azərbaycanın isə tərəfdaşıdır. Azərbaycanla Ermənistan arasında ədalətli sülhün əldə olunması Rusiyanın maraqlarına cavab verməlidir. Bununla Rusiya iki məqsədinə nail ola bilər.

**Birinci məqsəd** – Azərbaycanla Ermənistan arasında sülhə nail olan Rusiyanın bölgədəki rolu artacaq.

**İkinci məqsəd** – Azərbaycan Rusiyanın istəyi ilə Gömrük İttifaqı ilə Avrasiya İqtisadi Birliyinə üzv olacaq.

Moskvanın bu iki məqsədini reallaşdırmaq üçün Ermənistan prezidentinə təsir etməsi lazımdır. Bunun məhz belə olacağı bugünə qədər bəlli deyil.

Rusiya xarici işlər naziri Sergey Lavrov döyüşlərin səngiməsindən bir gün sonra, yəni aprelin 7-də Azərbaycana səfər etdi. Bu, planlaşdırılan səfər idi. Azərbaycan prezidentinin İrana son uğurlu səfərindən sonra üçlü formatın (Azərbaycan – Rusiya – İran) yaradılması ideyası bəyənilmişdi. Bakıda Azərbaycan, Rusiya və İran xarici işlər nazirləri yeni formatda bir araya gəldilər. Əsas müzakirə mövzusu iqtisadi layihələr və nəqliyyat yolları idi. Azərbaycan Rusiya ilə İran arasında nəqliyyat yollarını inkişaf etdirməklə regional tranzit statusunu artırmaq istəyir. Bu layihələr hər 3 ölkənin maraqlarına cavab verir. Bakıda razılaşdırıldı ki, üçlü format çərçivəsində Azərbaycan, Rusiya və İran prezidentləri birlikdə görüşəcəklər.

Ancaq aydın idi ki, Sergey Lavrov Bakıda Dağlıq Qarabağ mövzusunu da müzakirə etməli idi. Lavrov dedi ki, Moskvanın müşaqişənin həlliylə bağlı konkret təklifləri var. Ancaq təkliflərin konkret nədən ibarət olduğu açıqlanmadı. Lavrov Rusiyanın "TASS" agentliyinə verdiyi müsahibədə iki məqama toxundu.

**Birincisi,** Lavrov dedi ki, 7 rayonun boşaldılması Dağlıq Qarabağın statusuyla eyni vaxtda həll olunmalıdır. Əgər 7 rayonun boşaldıması əvəzinə Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək refendum tarixi sənəddə qeyd olunacaqsa, bu, Azərbaycanın maraqlarının əleyhinədir. Çünki həmin referendumda Dağlıq Qarabağın erməni əhalisi müstəqilliyə səs verəcək. Rəsmi Bakı isə işğal altındakı rayonların ilkin şərt irəli sürmədən azad olunmasını tələb edir.

**İkincisi,** Lavrov dedi ki, cəbhə xəttindən snayperlərin geri çəkilməsini sürətləndirmək lazımdır. Bu da yeni təklif deyildi. Bunu Minsk qrupu həmsədrləri də zaman-zaman dilə gətirirlər. Bu təklif də Azərbaycanın maraqlarına cavab vermir. Çünki Azərbaycanın strategiyası belədir ki, torpaqlar işğaldan azad olunmayana qədər işğalçı qoşunlar təzyiq altında olmalıdır. Məsələ burasındadır ki, snayperlərin və ağır texnikanın geri çəkilməsi Ermənistan ordusunu rahatladacaq və atəşkəsin bu şəkildə qorunması status-kvonun uzanmasına gətirib çıxaracaq. Azərbaycan isə status-kvonu dəyişmək istəyir.

Kremlin daha bir təklifi Dağlıq Qarabağda sülhməramlı qüvvələrin yerləşdirilməsiylə bağlıdır. Onsuz da münaqişənin hansısa mərhələsində sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsi reallaşa bilər. Sadəcə, bu qüvvələrin ancaq Rusiya hərbçilərindən formalaşdırılması Azərbaycan üçün təhlükəlidir. Rusiya sülhməramlıları Dağlıq Qarabağda yerləşdirilsə, ordan bir daha çıxmayacaq və digər bölgələrdə olduğu kimi separatçılara dəstək verəcəklər. Buna görə də sülməramlıların tərkibi müxtəlif dövlətlərin hərbçilərindən formalaşdırılmalı və Rusiyanın payı digər ölkələrin payından çox olmamalıdır.

Sergey Lavrovdan sonra Rusiyanın baş naziri Dmitriy Medvedyev də Bakıya gəldi. Lavrovun səfərindən fərqli olaraq Medvedyevin səfəri əvvəlcədən planlaşdırılmamışdı. Səfər məhz cəbhə bölgəsindəki vəziyyətlə əlaqəli idi. Medveydev prezident olduğu illərdə Azərbaycan və Ermənistan prezidentlərini 10 dəfə görüşdürmüşdü. O zaman bu görüşlərdən nəticə çıxmadı. Görünür, Medvedyev o illərdəki təşəbbüsünü yenidən aktuallaşdırmaq istəyirdi. O, prezident Vladimir Putinin təlimatıyla hərəkət edirdi.

Cəbhə bölgəsindəki müvəqqəti atəşkəs Ermənistan prezident ilə yanaşı Minsk qrupu həmsədrlərinə də ciddi təzyiq vasitəsidir. Çünki həmsədrlərə də aydındır ki, əvvəlki illərdə olduğu kimi turist kimi bölgəyə səfərlər, uzun-uzadı mənasız danışıqlar dövrü bitib, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını sürətləndirmək lazımdır. Həmsədrlərin başqa alternativi yoxdur. Onlar yenə də bölgəyə səfərlər edə bilərlər və edirlər də, ancaq bunun əhəmiyyətsiz iş olduğu çoxlarına bəllidir.

ABŞ-ın Minsk qrupundakı keçmiş həmsədri Ceyms Uorlik təxminən açıqlamalarında Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması zərurətindən danışırdı. Uorlik hazırda həmsədr deyil, Rusiya ilə əlaqəli şirkətdə çalışır və o Dağlıq Qarabağla bağlı fikirlərini sərbəst şəkildə ifadə edir. Ancaq indi onun dediklərinin əhəmiyyəti yoxdur. O həmsədr olan dövrdə tərəflərin mövqelərini uzlaşdırmağa çalışmalı idi. Masa üzərindəki danışıqların hazırki durumu sülhü yaxınlaşdırmır. Ona görə də cəbhə bölgəsində vəziyyət gərgin olaraq qalacaq. Bunu Ermənistan prezidenti Serj Sərkisyanda anlayır. Təsadüfi deyil ki, Ermənistan prezidenti son

müsahibələrinin birində müharibənin hər an başlaya biləcəyini deyib. Sərkisyan haqlıdır. Belə vəziyyətdə toqquşmaların davamı labüddür.

Aprel döyüşləri göstərdi ki, Azərbaycan cəmiyyəti müharibədə itkilərə hazırdır, Ermənistan cəmiyyətində isə belə hazırlıq yoxdur. Serj Sərkisyan həm 22 ildir işğal altında saxladığı torpaqların bir hissəsini itirdi, həm də canlı qüvvəsi və texnikası azaldı. Ermənistan kasıb və əhalisi azalan dövlətdir. Bu itkilərin yerini doldurmaq, orduya və hərbi texnikaya kasıb büdcədən pul xərcləmək, eyni zamanda vətəndaşlara övladlarının itkisini başa salmaq getdikcə çətinləşir. Ən azı İrəvandakı əsgər anaları "Sən qarabağlısan deyə, bizim övladlarımızı Ermənistandan kənarda ölümə göndərməlisən?" şüarı ilə Sərkisyana əlavə problemlər yaradacaqlar.

Sərkisyanın keçən il **iki yolu** var idi: o ya müvəqqəti atəşkəsdən sonra Dağlıq Qarabağda itirdiyi mövqeləri yenidən geri almağa çalışacaqdı, ancaq bu, uzunmüddətli müharibə ilə yanaşı Ermənistanın itkilərinin artması demək olacaqdı, ya da itirdikləri ilə barışaraq, üstəgəl, "münaqişənin" həlliylə bağlı "mərhələli həll" planına yaşıl işıq yandıracaqdı. Ancaq bu yollardan hər hansı birinin seçimi Sərkisyanın siyasi karyerasının sonunu gətirəcəkdi. Sərkisyan "mərhələli həll" planına razılaşacaqsa, ona ünvanlanan ciddi suallardan biri bu olacaqdı ki, "əgər "mərhələli həll" planına razılaşacaqdınızsa, onda 1990-cı illərin ortalarında eyni plana razılaşan Ermənistanın qanuni prezidenti Levon Ter-Petrosyanı niyə devirirdiniz?"

Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı "mərhələli həll" (ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını nəzərdə tutur) planına razılaşmağa yaxın idi, ancaq 1990-cı illərin ortalarında indiki prezident, o illərin daxili işlər və təhlükəsizlik naziri Serj Sərkisyan və o illərin baş naziri Robert Köçəryan onu devirdilər.

Serj Sərkisyan 2016-cı ilin aprelin 6-da Berlində Almaniya kansleri Angela Merkellə görüşdü. Daha sonra Sərkisyan mətbuat konfransında etiraf etdi ki, Azərbaycanın hərbi texnikası Ermənistanın hərbi texnikasını xeyli üstələyir və moderndir. 2-6 aprel tarixlərində hər iki tərəf itki verdi. Atəşkəsin bərpasından sonra Kəlbəcər istiqamətində 2 erməni əsgəri həlak oldu. Vəziyyət dəyişməsə və atəşkəs qorunsa belə, snayper və ya dəqiq minomyot atəşi ilə 2-3 erməni əsgəri öldürülsə, bu, il ərzində 700-800 nəfər edəcək. Əlbəttə, Azərbaycan ordusunda da itkilər var. Ancaq Ermənistandan fərqli olaraq, Azərbaycan cəmiyyəti yorucu və uzunmüddətli döyüşlərə hazırdır. Azərbaycanın strategiyası belədir ki, işğal davam edənə qədər Ermənistan hakimiyyətinə və Dağlıq Qarabağdakı separatçılara rahatlıq vermək olmaz.

Serj Sərkisyanın Berlindəki mətbuat konfransında dediyi bir başqa fikir də diqqəti çəkdi. Sərkisyan dedi ki, Rusiyanın Azərbaycana silah satmasından narahatdır. Bu, yeni yanaşma deyildi. Ermənistan rəsmiləri bu narazılığı yumşaq şəkildə zaman-zaman dilə gətirirlər. Vacib olan Kremlin Azərbaycana silah satıb-satmamaq məsələsində siyasətini bundan sonra necə müəyyənləşdirəcəyi idi. Rusiya Azərbaycana silah satışından imtina etməz. Yox, əgər imtina edərsə, Azərbaycan silahı başqa ölkələrdən alacaq və Rusiya vacib gəlir mənbəyindən məhrum olacaq. Əksinə, aprel döyüşlərindən sonra da Bakıya səfərlər edən Dmitri Roqozin

Rusiyanın Azərbaycana silah satmaqda davam edəcəyini bildirdi. Bu, Ermənistan hakimiyyəti üçün növbəti pis xəbər idi.

Həmin ərəfədə Ermənistan hakimiyyəti daha bir təhlükəli addım atdı. Qarabağda, Tovuz və Qazax istiqamətində atəşkəsin pozulması illərdir adi haldır. Buna baxmayaraq, Ermənistan Naxçıvanla sərhəddə təxribatdan çəkinərdi, Azərbaycan – Ermənistan sərhədinin bu istiqamətində atəşkəsə riayət olunurdu. Ermənistan ordusu uzun illərdən sonra Naxçıvana da atəş açmağa başladı. Bu o deməkdir ki, Ermənistan Cənubi Qafqazda Türkiyəni Rusiya ilə toqquşdurmaq istəyirdi. Çünki Türkiyə ən azı 1921-ci ildə Qars müqaviləsindən (bu müqaviləyə görə, Türkiyə Naxçıvanın təhlükəsizliyinin təminatçısıdır) çıxış edərək Naxçıvanın uzun müddət atəş altında saxlanılmasına seyrçi qalmayacaq. Ermənistan Naxçıvana qarşı təxribatlarını davam etdirərsə, Qarabağ istiqamətində atəşkəsə riayət etməyə Azərbaycanın səbəbi qalmayacaq.

Dağlıq Qarabağ və Azərbaycan – Ermənistan sərhədindəki vəziyyət müxtəlif dövlətlərin diqqət mərkəzindədir. Çünki bir çox dövlət Dağlıq Qarabağda başlanacaq müharibənin regional müharibəyə çevriləcəyindən ehtiyat edir.

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili aprelin 3-də xarici işlər və digər güc nazirləri, o cümlədən parlament komitələrinin rəhbərləri ilə görüşdü. Mövzu Dağlıq Qarabağ bölgəsində yaranan gərginlik idi. Gürcüstan hakimiyyətinin narahatlığı üçün ciddi əsası var. **Birincisi,** Gürcüstan Azərbaycanla Ermənistan arasında çətin seçim etmək istəmir. Azərbaycan Gürcüstanın müttəfiqi, Ermənistan isə tərəfdaşıdır. **İkincisi,** rəsmi Tiflis Ermənistanla Azərbaycan arasındakı münaqişənin Gürcüstan ərazisinə keçməsindən ehtiyat edir. Azərbaycanla Ermənistan arasındakı müharibə Gürcüstanda yaşayan yüzminlərlə azərbaycanlı ilə ermənini qarşı-qarşıya qoya bilər.

Azərbaycanla Ermənistan arasındakı döyüşlər İrandakı rejimi də çətin vəziyyətdə qoydu. Tehran bir tərəfdən hər yerdə şiə-müsəlman həmrəyliyindən danışır və məhz bu amilə görə Əsəd rejiminə dəstək verir, ancaq Dağlıq Qarabağla bağlı qəti surətdə demir ki, "Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarını boşaltmalıdır".

İranın ali dini lideri, milliyyətcə azərbaycanlı olan Ali Xamaneyinin İranın azərbaycanlı deputatlarından birinə "Qarabağ müsəlman torpağıdır və işğalçılardan azad olunmalıdır" fikrini söylədiyi bildirilir. Ancaq ali dini liderin bu sözü geniş kütlə qarşısında deməsi faktı yoxdur. Bunun əvəzinə ali dini liderin Azərbaycan şəhərləri olan Təbriz və Ərdəbildəki dini nümayəndələri 8 apreldəki Cümə xütbələrində Dağlıq Qarabağ savaşında Azərbaycana dəstək verməyə hazır olduqlarını dedilər.

Buna baxmayaraq, cəbhə bölgəsində vəziyyət gərginləşən kimi İrandakı əsas televiziya kanalları, radio və mətbuat anti-Azərbaycan ritorikasını artırdılar. Ən maraqlısı odur ki, İranın dini rejiminə qatı müxalifətdə olan şah rejiminin Amerika və Avropadakı təşkilatları da Azərbaycan əleyhinə təbliğat apardılar. Onların nəzarətindəki media da xaricdən Azərbaycan əleyhinə verilişlər yayınladı. "Amerikanın Səsi"nin və "BBC"nin fars dilindəki redaksiyaları

cəbhə bölgəsindəki durumla bağlı xəbərlərində daha çox Ermənistanın mövqeyini əks etdirdilər.

Buna baxmayaraq, cəbhə bölgəsindəki döyüşlərə reaksiya verənlər arasında İranda yaşayan fəal azərbaycanlılar oldu. **Birincisi,** Azərbaycan ordusunun Dağlıq Qarabağ istiqamətindəki hücumları Güney Azərbaycan şəhərlərində Bakıda olduğu kimi böyük ruh yüksəkliyi yaratdı. **İkincisi,** İrandakı ərəb mənşəli fəallar da Qarabağ məsələsində Azərbaycana dəstək verdiklərini bildirdilər.

İrandakı azərbaycanlıların fəallaşması həm İran, həm də Ermənistan hakimiyyətini ciddi düşündürməli idi. İran hakimiyyətini ona görə düşündürməlidir ki, güney azərbaycanlılar Qarabağa öz torpaqları kimi baxır və bu torpaqların işğalını həyata keçirən dövlətlə isti münasibətlər quran Tehranın siyasətindən narazıdırlar. Ermənistan hakimiyyəti isə ona görə narahat olmalıdır ki, İranda yaşayan azərbaycanlıların Azərbaycana dəstəyi daha da artacaq.

Cəbhə bölgəsindəki vəziyyəti Qərb ölkələri də diqqətlə izlədilər. 1990-cı illərdə Qarabağda gedən müharibə zamanı Azərbaycan informasiya blokadasında idi. ABŞ və Avropada ancaq Ermənistanın mövqeyi əks olunurdu. Bunda erməni lobbisinin də rolu var idi. Bunun nəticəsi olaraq ABŞ Konqresində 1992-ci ildə Azərbaycana dövlət yardımını qadağan edən “907-ci düzəliş” qəbul edildi. 22 ildə Azərbaycanın Qərblə əməkdaşlığı artdı, enerji layihələri reallaşdı, boru xətləri tikildi, Ermənistanın isə Rusiyadan asılılığı artdı. Bununla Qərbdə Dağlıq Qarabağ probleminə baxış tədricən dəyişdi. Və təsadüfi deyil ki, cəbhə bölgəsindəki döyüşlər zamanı artıq qərbli siyasətçilər və media münaşiqəyə ədalətli yanaşma ortaya qoydu, Ermənistanın Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltması fikri populyarlaşdı. Qərbli diplomatlar arasında hətta bu fikirlər səsləndi: “Azərbaycanın ərazi bütövlüyünü istənilən yolla bərpa etmək hüququ var, işğal olunmuş torpaqlar azad olunmalıdır və Qərb hərbi uğurlarla bağlı Azərbaycan cəmiyyətindəki ruh yüksəkliyini maraqla izləyir”. Bu sözlərin mahiyyəti həm də ondan ibarətdir ki, Qərb işğal faktının güc yoluyla ortadan qaldırılmasına qarışmayacaq. Ancaq Qərbin narahatlığı var, o da Rusiyadır. Qərbli diplomatlar Rusiyanın Azərbaycanı öz təsir dairəsinə salacağından ehtiyat edirlər.

Belarus Xarici İşlər Nazirliyinin Azərbaycanın ərazi bütövlüyünü vurğulayan açıqlama yayması Azərbaycanda müsbət, Ermənistanda isə mənfi qarşılandı. Ermənistan hakimiyyəti o qədər narazı qaldı ki, Belarusun İrəvandakı səfirini Xarici İşlər Nazirliyinə çağırdı. Ancaq Belarusun addımı gözlənilən idi. Çünki son illər Bakı ilə Minsk arasında sıx əlaqələr qurulmuşdu. Belarus prezidenti Aleksandr Lukaşenkoya ölkəsi üçün təcili olaraq 200 milyon dollar kredit lazım olduqda bu pulu ona İlham Əliyev vermişdi. Belarus və Qazaxıstan prezidentlərinin Avrasiya İqtisadi Birliyinin İrəvan toplantısında iştirak etmək istəməməsi Ermənistan hakimiyyətini narazı saldı.

Cəbhədəki döyüşlər zamanı Azərbaycana ən güclü dəstək, gözlənildiyi kimi, Türkiyədən gəldi. İstanbulda Azərbaycana dəstək mitinqləri keçirildi. Türkiyənin rəsmiləri Azərbaycanı bütün hallarda dəstəkləyəcəklərini açıqladılar. Rusiyayla Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə baxışlarındakı fərq döyüşlər zamanı da özünü göstərdi. Rusiyanın xarici işlər və müdafiə nazirləri Bakıya açdıqları telefon zəngində azərbaycanlı həmkarlarına bunu dedilər:

"Cəbhə bölgəsindəki vəziyyətin gərginləşməsindən narahatıq". Türkiyə prezidenti, baş naziri və müdafiə nazirinin Bakıya açdıqları telefon zənglərində isə azərbaycanlı həmkarlarına bunu dedilər: "İşğal altındakı torpaqların qaytarılması - haqlı mübarizənizdə Azərbaycanın yanındayıq".

Azərbaycanla Ermənistan arasında müharibə informasiya məkanında da gedir. Ermənistan cəbhə bölgəsindəki döyüşlər zamanı Azərbaycana qarşı dezinformasiyalar yayırdı. Ermənistanın məqsədi bununla Azərbaycan cəmiyyətində panika yaratmaq və beynəlxalq aləmə yanlış məlumat ötürmək idi. Qərb mətbuatı bu dezinformasiyaya yer vermədi. Rusiya mediası isə əsasən Ermənistan tərəfinin mövqeyini işıqlandırırdı.

Azərbaycan Müdafiə Nazirliyi döyüşlərin ilk günündən operativ xəbərlər yaymaqla Ermənistandan ötürülən dezinformasiyaların qarşısını almağa çalışdı. Ancaq erməni dezinformasiyalarını nisbətən neytrallaşdırdıqdan sonra Azərbaycandakı internet saytlarının bir qismi şişirtmə xəbərlərə yer verdi. Bu isə cəmiyyətdə hədəflərin yüksəlməsinə yol açdı. Azərbaycan ordusunun Ağdərə və Füzuli rayonlarını işğaldan azad etməsi xəbərləri doğru çıxmadı. Halbuki, Azərbaycan ordusunun əldə etdiyi real hərbi nəticələr də uğurlu idi. Daha sonra Azərbaycan informasiya məkanında “Sərkisyan kompromisə hazırdır” xəbəri yayıldı. Bu xəbər də doğru çıxmadı.

## Müvəqqəti atəşkəs nə qədər çəkəcək?

Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında əldə olunan atəşkəsin uzun müddət davam edəcəyini söyləmək problematikdir. Çünki Rusiya işğal faktına son qoymağa hazır deyil. Azərbaycan və Ermənistan prezidenlərinin nə vaxt və hansı ölkənin vasitəçiliyi ilə görüşəcəyi isə məlum deyil. Böyük ehtimalla bu görüş yenə Rusiya ərazisində keçiriləcək. Ancaq Moskva hələ ki, gözləmə mövqeyindədir.

Rusiya prezidenti Vladimir Putin 2016-cı il aprelin 14-də canlı yayımda ictimaiyyətin suallarına cavab verdi. Suallardan biri Dağlıq Qarabağla bağlı idi. Putin mövzuyla bağlı iki maraqlı fikir bildirdi.

**Birinci fikir:** *“Rusiya vasitəçi olaraq Azərbaycanla Ermənistanı barışdırmağa yaxın idi. Ancaq alınmadı”*. Böyük ehtimalla Putin 2011-ci ildə prezidentlərin Rusiyanın Kazan şəhərində keçirilən görüşünü nəzərdə tutur. Həmin görüşün yekunu olaraq “Kazan prinsipləri” hazırlandı. Bu prinsiplər “Madrid planı”na yaxın idi. Yəni ilkin mərhələdə işğal altındakı 5 rayon boşaldılmalı, bir neçə ildən sonra isə Kəlbəcər və Laçın rayonları azad olunmalı, qaçqınlar geri qaytarılmalı idi. Ancaq “Kazan prinsipləri”nin ən təhlükəli maddəsi Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə bağlıdır.

**İkinci fikir:** *“Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etmək üçün hər şey edəcək”*. Putinin bu sözlərindən çıxan nəticə odur ki, Kreml münaqişənin həlli məqsədilə təkbaşına vasitəçiliyini davam etdirəcək. Ancaq Moskvanın konkret təklifləri yoxdur. Kreml üçün bu gün başlıca vəzifə müharibənin başlamasına imkan verməməkdir.

Bütün hallarda Rusiya Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasında və müharibə yoluyla işğal altındakı torpaqları azad etməsində maraqlı deyil. Rəsmi Bakı isə Kremlin münaqişənin həlliylə bağlı təkliflərini yerinə yetirməyəcək. Kremlin iki təklifi var:

**Birinci təklif** odur ki, 5 rayonun azad olunmasıyla paralel olaraq Dağlıq Qarabağın statusu müəyyənləşdirilməlidir.

**İkinci təklif** isə odur ki, Rusiyanın sülhməramlı qüvvələri Dağlıq Qarabağ və ətraf rayonlarda yerləşdirilməlidir.

Bölgədə toqquşmaların apreldən sonra da davam edəcəyi görünürdü. Rusiya hərbi toqquşmaların qarşısını ala bilmədi. Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrinin itkisini artırmağa çalışır. Rəsmi Bakı bu yolla Ermənistan hakimiyyətinə təzyiqi artırmağı planlaşdırır.

Apreldən sonra rəsmi Bakı elə diplomatik addımlar atmalı idi ki, Rusiya təkbaşına vasitəçi olmasın. Ancaq bu, yalnız rəsmi Bakının istəyindən asılı deyildi. ATƏT-in Minsk qrupunun digər iki həmsədri – Fransa və ABŞ-ın münaqişənin həlli prosesində – danışıqlarda fəallaşmasına ehtiyac var idi. Fransa prezidenti 2-6 aprel tarixlərində cəbhə bölgəsindəki vəziyyətlə bağlı açıqlama verdi. ABŞ prezidenti Barak Obama isə heç bir reaksiya vermədi. Vaşinqtonun bu passivliyi Moskvanın maraqlarına cavab verirdi. Kreml Vaşinqtonun Dağlıq Qarabağ münaqişəsinin həllindəki passivliyindən istifadə edərək Azərbaycandakı mövqelərini gücləndirməyə çalışırdı. Rusiya prezidenti Dağlıq Qarabağ münaqişəsinin həllini amerikalı və ya avropalı rəsmilərlə deyil, telefonla Qazaxıstan prezidenti ilə müzakirə etdi. Bu o deməkdir ki, Putin Qarabağ mövzusunu qərbli rəsmilərlə müzakirə etməyə ehtiyac görmür. Putinin bu siyasəti Qərbin Cənubi Qafqazdakı maraqlarının sıxışdırılmasına hesablanıb.

Putin Qərbin həmişə ikili standartlardan çıxış etdiyini bildirir. Ancaq Rusiya prezidenti Dağlıq Qarabağ münaqişəsinin həllində özü də ikili standartlardan çıxış edir. Putin və onun nazirləri Dağlıq Qarabağda döyüşlərə 4 gündən çox imkan vermədilər, açıq-aşkar təzyiq etdilər ki, Azərbaycan ordusu hücumu dayandırsın. Halbuki, cəbhə bölgəsindən verilən məlumatlara görə, Azərbaycan ordusunun bir az daha irəliləməyə, ən azı Sərsəng su anbarını işğaldan azad etməyə imkanı var idi.

Rusiyalı rəsmilər deyirdilər ki, müharibə problemi həll etməyəcək, danışıqları davam etdirmək lazımdır. Ancaq Azərbaycan 22 ildir danışıqlar aparır, nəticə isə yoxdur. Azərbaycanı sakitliyə çağıran Putin 1990-cı illərin sonunda ikinci çeçen müharibəsində ordusuna hücum əmri vermişdi. Çeçenistanda döyüşlər zamanı kəndlər, evlər dağıdıldı. Rusiya Çeçenistan üzərindəki nəzarəti bərpa etmək və ərazi bütövlüyünü təmin etmək məqsədilə aylarla müharibə apardı. Qərb Putinə deyirdi ki, müharibə problemi həll etməyəcək, çeçen separatçıları ilə danışıqları davam etdirmək lazımdır. Putinin buna reaksiyası sərt olur, cavabında deyirdi ki, Rusiyanın daxili işlərinə qarışmayın. Eynilə Rusiya kimi Azərbaycan da öz daxili problemini həll etmək istəyir.

Bu arada, İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) aprelin 14-də zirvə toplantısı keçirildi. Təşkilatın əvvəlcə Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirildi. Toplantıda Qarabağ məsələsi müzakirə olundu. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin prinsipial mövqeyini bir daha bəyan edərək dedi ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Ermənistanın son təxribatlarını pisləyən türkiyəli nazir dedi ki, işğal davam etdikcə toqquşmalar da davam edəcək. Dövlət başçılarının toplantısında da Qarabağ mövzusuna toxunuldu. İlham Əliyev çıxışında dedi ki, İslam Konfransı Təşkilatına üzv dövlətlərin xarici işlər nazirləri səviyyəsində Qarabağla bağlı "kontakt qrupu" yaradıldı.

İslam Konfransı Təşkilatı bütün toplantılarında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Maraqlıdır ki, Ermənistan hakimiyyəti heç vaxt İslam Konfransı Təşkilatının Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamələrinə reaksiya vermir. Görünür, Ermənistan bununla islam dünyası ilə münasibətlərini gərginləşdirmək istəmir. Buna baxmayaraq, nazirlərin yaratdığı "kontakt qrupu" Ermənistana əlavə təzyiq faktoru olmalı idi.

Avropa İttifaqı və ATƏT-in ötənilki sədri Almaniya da Dağlıq Qarabağdakı vəziyyətdən narahat idilər. Həm Brüssel, həm də Berlin status-kvonun dəyişdirilməsi vacibliyini bildirirdilər. Ancaq Avropa da ABŞ kimi Rusiyanın gerisində qaldı. Həmin ərəfədə Almaniya Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 7 maddəlik təkliflər paketi olduğunu açıqladı. Böyük ehtimalla bu təkliflər "Madrid planı"ndan fərqlənmirdi. Yəni birinci növbədə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Vacib olan Berlinin bu istiqamətdə danışıqları intensivləşdirməsi idi. Ancaq sonrakı mərhələdə bu 7 maddəlik təkliflər paketinin nədən ibarət olduğu aydınlaşmadı. Bununla da Berlinin bir neçə günlük fəallığı arxa plana keçdi.

Beynəlxalq aləm işğalçı ilə işğala məruz qalan dövlət arasında bərabərlik işarəsi qoymaq siyasətini davam etdirdikcə Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə həll edilməyəcək. Ermənistanı Dağlıq Qarabağ ətrafındakı 5 rayonu boşaltmağa məcbur etmək lazımdır. Bunun başqa alternativi yoxdur. Ermənistan hakimiyyəti bunu anlamayana qədər bölgədə hərbi toqquşmalar da davam edəcək, hər iki tərəfin itkiləri də artacaq. Azərbaycan mümkün itkilərə psixoloji baxımdan hazırdır, Ermənistanın isə yeni itkilərə hazır olduğunu vurğulamaq çətindir. Bunu Ermənistan prezidenti Serj Sərkisyan da anlayır. Təsadüfi deyil ki, o, qəfildən Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanla görüşdü. Doğrudur, bu görüşün nəticəsi olaraq Levon Ter-Petrosyan cəmiyyəti birliyə çağırdı. Ancaq bir müddət keçdikdən sonra Ermənistan müxalifətinin və cəmiyyətin Sərkisyana qarşı təzyiqləri artacaqdı. Çünki Ermənistan parlament seçkisinə gedirdi, hakimiyyətlə müxalifət arasında kəskin rəqabət gözlənilirdi.

## Ermənistan Rusiya və İsraildən niyə narazıdır?

Ermənistan aprel döyüşlərindən sonra Rusiya və İsrail hakimiyyətinə müraciət edir ki, bu iki ölkə Azərbaycana silah satmasın. İrəvanda hətta Rusiya əleyhinə mitinq və yürüşlər keçirilir. Bu etiraz Ermənistan – Rusiya münasibətləri tarixində ilk dəfədir baş verirdi. Ermənistan

cəmiyyətinə aydın deyildi ki, niyə Rusiya Ermənistanın hərbi-siyasi müttəfiqi olduğu halda Azərbaycana silah satır?

Rusiyanın və İsrailin Ermənistanın müraciətlərinə verdiyi cavab belə idi: “Biz Azərbaycana silah satmasaq, Azərbaycan həmin silahları başqa ölkələrdən alacaq və qazanc da həmin ölkələrə qalacaq”. Rusiya baş nazirinin müavini Dmitri Roqozin isə Azərbaycana silah satıb-satmamaq məsələsini açıq ifadə etdi: “Rusiya Azərbaycana silah satmasa, Azərbaycan NATO ilə yaxınlaşacaq və beləcə, biz Azərbaycanı itirəcəyik”. Əslində isə Dağlıq Qarabağ münaqişəsinə görə NATO-nun Azərbaycana və Ermənistana silah satmamaq barədə ümumi razılığı var.

Bir ölkə silahı hansı ölkədən alırsa, həmin ölkə ilə də sıx əlaqələr qurur. Bunun nəticəsidir ki, rəsmi Bakı mövcud problemlərə rəğmən, Rusiyanı, o cümlədən İsraili strateji tərəfdaş adlandırır. Rusiya və İsrail bundan sonra da Azərbaycana silah satacaqlar. Çünki bu həm qazanc, həm də Azərbaycanla strateji tərəfdaşlığın davamına təminat deməkdir. Rusiya və İsrail Azərbaycana silah satmaqdan imtina edərsə, rəsmi Bakının hər iki ölkə ilə münasibətləri soyuyacaq.

Buna baxmayaraq, rəsmi İrəvan suyu bulandırmaq təşəbbüslərindən əl çəkmir. Məsələn, Ermənistanın Misir və İsraildəki səfiri Armen Melkonyan cəbhədəki döyüşlərdən dərhal sonra İsrail Xarici İşlər Nazirliyində görüşlər keçirdi. İsrailin “Haarets” qəzetinin yazdığına görə, erməni diplomat İsraildən Azərbaycana pilotsuz təyyarələr (dronlar) satmamağı xahiş etdi. Ermənistan İsrail dronlarından qorxur. Çünki 2-6 tarixlərindəki müharibədə İsrail dronları Ermənistanın işğalçı qüvvələrinə böyük zərbələr endirdi və separatçılar xeyli itki verdilər. İsrail hərbi komandanlığı dronların Dağlıq Qarabağdakı döyüşlərdə özünü necə göstərməsiylə maraqlandılar. Bu, İsrailin hərbi-sənaye kompleksinin də xeyrinə idi. Çünki Dağlıq Qarabağdakı döyüşlərdə özlərini müsbət tərəfdən göstərən dronlara silah bazarında tələbat artacaqdı. İsrailin Azərbaycana tank əleyhinə xüsusi lazerli raketləri satdığı da xəbərlər arasında idi. Azərbaycanla İsrailin silah razılaşmalarının ümumi dəyəri 5 milyard dollar təşkil edir.

Buna baxmayaraq, Azərbaycanın hələ də İsraildə səfirliyi yoxdur. Bu faktordan Ermənistan öz maraqları üçün istifadə etməyə çalışır. Ermənistan və erməni lobbisi israilli rəsmilərin İrəvana səfərlərinin sayını artırmağa çalışır (İsrail parlamentinin vitse-spikeri aprel ayının əvvəlində İrəvanda olmuşdu), İsrailin özündə isə anti-türk təbliğatını gücləndirirlər. Azərbaycan rəsmiləri qeyri-rəsmi söhbətlərdə İsraildə səfirliyin açılmasının gecikdirilməsini İran faktoru ilə əlaqələndirir. Ancaq bu faktor artıq aktual deyil. Birincisi, İranın özü Qərb dünyası ilə münasibətləri normallaşdırır, ikincisi, rəsmi Bakı bundan sonra da İsraildən silah almaq istəyirsə, bu ölkədə mütləq şəkildə səfiri olmalıdır. Azərbaycan silahı İrandan almır, İsraildən alır və silahların böyük effekti var. Buna görə Tehran Bakıya təzyiq edə bilməz ki, Azərbaycan ordusunda İsrail istehsalı olan silahların sayı niyə çoxdur?

## Cəbhə bölgəsində vəziyyət yenidən gərginləşir

Apreldən sonra da cəbhə bölgəsində vəziyyət gərgin olaraq qalırdı. Böyük toqquşmalar olmasa da, atəşkəs pozulur, snayperlərin atəş səsləri azalmırdı. Ümumiyyətlə, 2-6 aprel tarixlərində baş verən döyüşlərdən sonra atəşkəsə riayət olunacağını vurğulamaq problematik idi.

Bu arada, Dağlıq Qarabağ münaqişəsi ilə bağlılığı olan 4 hadisəni göstərmək olardı:

**Birinci hadisə.** Azərbaycanın siyasətçiləri və siyasi ekspertləri Laçın dəhlizinin beynəlxalq sülhməramlı qüvvələrin nəzarətinə verilməsinin əvəzində Azərbaycanla onun bir hissəsi olan Naxçıvanı birləşdirən Mehri dəhlizinin də açılması vacibliyini müzakirə etməyə başladılar. Ermənistan Laçın dəhlizi vasitəsilə Dağlıq Qarabağla daimi əlaqənin olmasını tələb edir. Bu, sülh danışıqlarının da əsas mövzularından biridir. Eyni zamanda rəsmi Bakının da sülh danışıqlarında Laçın dəhlizinin əvəzində Mehri dəhlizinin açılması tələbini irəli sürməsi hüququ var.

**İkinci hadisə.** Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 19 aprel sessiyasında Dağlıq Qarabağla bağlı vəziyyət müzakirə olundu. Müzakirələr azərbaycanlı və erməni deputatların qarşılıqlı ittihamları ilə yadda qaldı. Bu müzakirələrin nəticəsi olmadı. Çünki yekunda AŞPA rəhbərliyi yenə də vurğuladı ki, münaqişənin həlli ilə ATƏT məşğul olur. Buna baxmayaraq, AŞPA həm Azərbaycana, həm də Ermənistana müraciət edərək, hər iki tərəfi atəşkəsə riayət etməyə çağırdı. Bu çağırışın Azərbaycan üçün əhəmiyyəti yox idi. Çünki AŞPA Dağlıq Qarabağla bağlı qəbul etdiyi 2 qətnaməni Ermənistanın yerinə yetirilməsinə nail ola bilmir. AŞPA Azərbaycan üçün, sadəcə, mövqeyini çatdırmaq üçün siyasi meydandır.

Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlu AŞPA-dakı çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsindən də danışdı. Davudoğlu ərazi bütövlüyünün təmin olunması məsələsində Ankaranın Azərbaycana dəstəyini bundan sonra da davam etdirəcəyini dedi. Əhməd Davudoğlu çıxışında bir cümlə ilə Naxçıvanı da xatırlatdı. O, Ermənistan ordusunun Naxçıvana atəş aşmasını təhlükəli adlandırdı. Davudoğlunu Naxçıvanı xatırlatmaqla həm Ermənistana, həm də beynəlxalq aləmə mesaj göndərdi. Mesajın mənası o idi ki, Ermənistan Naxçıvanı atəş altında tutmağa davam edərsə, Türkiyə 1921-ci il Qars müqaviləsindən çıxış edərək prosesə qarışmalı, Naxçıvanın müdafiəsi üçün ciddi tədbirlər görməli olacaq.

**Üçüncü hadisə.** Ermənistan prezidenti Serj Sərkisyan aprelin 19-da Dağlıq Qarabağın paytaxtı Xankəndiyə gəldi. Ermənistan prezidentinin Xankəndiyə gəlməsində iki məqsədi var idi. Onun birinci məqsədi Dağlıq Qarabağ əhalisinə dəstək vermək idi. Yəni Sərkisyan Xankəndidə olmaqla sanki Dağlıq Qarabağın erməni əhalisinə demək istəyirdi ki, qorxmayın, arxanızda Ermənistan və onun ordusu dayanıb. Əslində bu o deməkdir ki, Sərkisyan da anlayır ki, 2-6 aprel döyüşlərindən sonra Dağlıq Qarabağın erməni əhalisi qorxu içindədir. Qorxu üçün ciddi əsas var. Azərbaycan ordusunun bir gün sürətli yürüşü kifayət edəcək ki, Xankəndi azərbaycanlı hərbçilərin gözlə görünən məsafəsində olsun.

Sərkisyanın Xankəndiyə səfərində ikinci məqsədi Azərbaycanı təxribata çəkmək idi. Yəni Sərkisyan ona ümid edirdi ki, o Xankəndidə olduğu müddətdə cəbhədə vəziyyət gərginləşəcək

və o, bununla beynəlxalq aləmə deyəcək ki, Azərbaycan ordusu onun Dağlıq Qarabağa səfərini pozmaq üçün atəşkəsi pozub. Ancaq Azərbaycan ordusu Sərkisyanın Xankəndidə olduğu müddətdə atəşkəsi pozmadı və bununla Sərkisyan ikinci məqsədinə də nail olmadı.

Serj Sərkisyan Xankəndidə separatçıların rəhbərliyi ilə qapalı müşavirə keçirərək helikopterlə Ermənistana qayıtdı. Onun Xankəndiyə gəlişi nə bölgənin erməni əhalisini, nə də separatçıları ruhlandırdı, generallarla bir-iki görüş keçirib, xəritələrin qarşısında poz verməklə Sərkisyan heç bir problemi həll edə bilmədi. Ermənistan cəmiyyəti də Sərkisyanın əlacsızlığının fərqindədir.

Bu arada, Ermənistan hakimiyyəti başqa təxribata əl atdı. İrəvandan belə bir açıqlama verildi ki, Ermənistan ordusu Mingəçevir su elektrik stansiyasına raket zərbəsi endirə bilər. Mingəçevir su elektrik stansiyası Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir. Stansiyaya raket zərbəsinin vurulması həm bölgədə ekoloji fəlakət yaradacaq, həm də Azərbaycanın böyük hissəsini elektriksiz qoyacaq. Əgər Ermənistanın ordu komandanlığı Mingəçevirə raket zərbəsi endirərsə, bu halda nə baş verəcək?

**Birincisi,** Azərbaycan ordusu da eyni ilə Ermənistandakı stansiyaları uzaq mənzilli raketlərlə vuracaq. Hətta Ermənistanın "Metsamor" atom elektrik stansiyası da hədəf götürülə bilər.

**İkincisi,** Mingəçevir su elektrik stansiyasına raket zərbəsindən sonra Azərbaycan ordusu Dağlıq Qarabağ istiqamətində hücuma başlayacaq və bu müharibəni dayandırmaq mümkün olmayacaq.

**Üçüncüsü,** Azərbaycan müharibəni Ermənistan ərazisinə keçirəcək və bu halda Azərbaycan üçün Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlüyü əhəmiyyət kəsb etməyəcək.

## Rusiyanın Qarabağla bağlı yeni planı yoxdur

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun 2016-cı il aprelin 22-də İrəvanda verdiyi açıqlamalar ondan xəbər verirdi ki, Rusiyanın münaqişənin ədalətli həlliylə bağlı yeni planı və ya təklifləri yoxdur. Lavrovun İrəvana səfərindən çıxan başqa bir nəticə isə bundan ibarət idi ki, Dağlıq Qarabağ ətrafındakı 5 rayonun ilkin şərt irəli sürmədən azad olunması məqsədilə Kremlin İrəvana təzyiq etmək fikri yoxdur.

Lavrov İrəvanda dedi ki, Kazan prinsipini Ermənistan rədd etməyib. Lavrovun sözlərindən belə çıxırdı ki, Ermənistan rədd etməyibsə, danışıqların ikinci tərəfi – Azərbaycan rədd edib. Əslində isə Azərbaycan Kazan prinsiplərinin əleyhinə deyil. Bu sənəddə rayonların boşaldılmasının, qaçqınların geri qayıtmasının və kommunikasiya xətlərinin açılmasının vurğulanması Azərbaycanın maraqlarına cavab verir. Sadəcə, Azərbaycan sənəddə statusun müəyyənləşməsi maddəsinin əleyhinədir. Ermənistan isə bu maddəni əsas tutaraq, digər bütün maddələri statusundan asılı vəziyyətə gətirir.

Lavrov İrəvanda dedi ki, ATƏT sədri olan Almaniya münaqişənin həllində fəallıq nümayiş etdirməlidir. Bununla Moskva münaqişənin həllinin uzanmasında başqa dövlətlərin, o cümlədən Almaniyanın məsuliyyət daşıdığına işarə edirdi. Rusiya xarici işlər nazirinin Azərbaycan üçün daha bir ziyanlı fikri bu idi: "Cəbhə bölgəsindəki insidentləri araşdırmaq lazımdır". Azərbaycanın strategiyası belədir ki, torpaqlar boşaldılmayana qədər işğalçı Ermənistan daima təzyiq altında saxlanılmalıdır. Lavrov isə əksinə, deyir ki, atəşkəs müddətsizdir və ona riayət etmək lazımdır.

Aprelin 12-də Rusiyanın ATƏT-dəki daimi nümayəndəliyi Azərbaycanın daimi nümayəndəliyinə nota təqdim edərək Azərbaycanı atəşkəs razılaşmalarına əməl etməyə çağırdı. Maraqlıdır ki, nota təkcə Azərbaycan nümayəndəliyinə verildi, Ermənistan nümayəndəliyinə təqdim edilmədi. Bu ondan xəbər verirdi ki, Moskva aprelin 2-də cəbhə bölgəsindəki atəşkəsi məhz Azərbaycanın pozduğuna işarə edirdi.

Lavrovun İrəvanda Türkiyə əleyhinə söylədiyi fikirlər də Azərbaycanın maraqlarının əleyhinə idi. Lavrov Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin rolunu tənqid edir, Ankaranın Qarabağla bağlı açıqlamalarını təxribatçı adlandırırdı. Lavrov, heç şübhəsiz, Ankaranın "biz Bakının işğala son qoymaq siyasətini dəstəkləyirik" ifadəsini nəzərdə tuturdu. Daha öncə isə Rusiyanın baş naziri Dmitri Medvedyev də Türkiyəni nəzərdə tutaraq "cəbhə bölgəsindəki münaqişəni üçüncü qüvvə qızışdırıb" demişdi. Bu da kökündən səhv yanaşmaydı. Rusiya ilə Türkiyə arasında münasibətlər normallaşdıqdan sonra rusiyalı rəsmilər Türkiyə əleyhinə açıqlamalarına son verdilər.

## Ermənistanda nə baş verir?

2-6 aprel tarixlərindəki döyüşlər Ermənistanı silkələdi. Döyüşün nəticələri, Ermənistanın itkiləri müzakirə olunur, ayrıca İrəvanda Rusiya əleyhinə mitinq və yürüşlər keçirilirdi. Bundan başqa, Qazaxıstanın mövqeyi tənqid olunaraq Ermənistanda Qazaxıstan prezidenti Nursultan Nazarbayevin adına olan küçənin adını dəyişdirdilər ki, bununla Astananı da qəzəbləndirdilər. Əlavə olaraq, Ermənistanda iqtidar-müxalifət münasibətləri kəskinləşdi.

Bunun qarşılığında Azərbaycanın siyasi həyatında sakitlik hökm sürürdü, Dağlıq Qarabağda verilən itkilərə görə hakimiyyət olsa-olsa ancaq sosial şəbəkələrdə tənqid olunurdu. Azərbaycanla Ermənistan arasındakı bu fərq bir daha onu göstərirdi ki, Azərbaycan cəmiyyəti işğal altındakı torpaqların azad edilməsi yolunda məhrumiyyətlərə hazırdır. Ayrıca, işğal altındakı torpaqların istənilən vasitə ilə geri qaytarılması Azərbaycan cəmiyyətinin sosial sifarişinə çevrilib. Ermənistan cəmiyyəti isə Dağlıq Qarabağ və ətraf rayonları qorumaq üçün insan itkilərinə hazır deyil və bu itkilərdə hakimiyyəti günahkar sayır. İtkilərin sayı isə hələ qurtarmır.

Ermənistanda həmin günlərdə hadisələr 3 istiqamətdə inkişaf edirdi.

**Birinci istiqamət.** Ermənistanda anti-Rusiya meylləri getdikcə artırdı. Ermənistan hakimiyyətinin özü də cəmiyyətdə bu cür əhval-ruhiyyənin yaranmasına şərait yaradırdı.

Rusiyanın İrəvandakı səfirliyi qarşısında mitinqlər bir-birini əvəz edirdi. Bu arada, Ermənistanda qərbmeyilli siyasətçilər və ekspertlər fəallaşdılar. Onlar fürsətdən istifadə edərək Ermənistanın Rusiya ilə sıx bağlılığını tənqid edirdilər.

**İkinci istiqamət.** Hakimiyyət içində problemlər artırdı. Təsadüfi deyildi ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan İrəvana qayıtdı. O, apreldən sonrakı günlərdə Serj Sərkisyanın siyasətini tənqid edirdi. Halbuki, Köçəryanla Sərkisyan Dağlıq Qarabağda separatizmin əsasını qoyanlardan və vaxtilə siyasi müttəfiq idilər. Ancaq Köçəryan artıq Sərkisyanın müttəfiqi sayılmırdı. Köçəryan Ermənistanda dərin iqtisadi böhrana görə də Sərkisyanı tənqid edirdi.

**Üçüncü istiqamət.** Serj Sərkisyanın cəbhədəki uğursuzluqlarına görə özünün siyasi karyerasını xilas etmək haqqında düşünürdü. Ermənistan prezidenti bu məqsədlə yeni müttəfiqlər axtarırdı. Sərkisyan həmin günlərdə məhz buna görə keçmiş prezident Levon Ter-Petrosyanla tez-tez görüşürdü. Levon Ter-Petrosyan Köçəryanın yenidən siyasi arenaya qayıtmasını istəmir. Ona görə də Ter-Petrosyan müvəqqəti – taktiki səbəblə Sərkisyanla ittifaq qura bilərdi. O anlayırdı ki, Sərkisyanın siyasi perspektivi yoxdur, buna görə də ona dəstək verməklə Köçəryanın hakimiyyətə gəlişini əngəlləmək istəyirdi. Hazırda Levon Ter-Petrosyan üçün Köçəryan daha təhlükəli fiqurdur. Sonrakı mərhələdə isə Sərkisyan – Ter-Petrosyan ittifaqı da dağılacaq. Ermənistanda 2014-cü illə müqayisədə 2015-ci ildə hərbi xərclər 4,2 dəfə, polisin xərcləri isə 13,7 dəfə artıb. Bu o deməkdir ki, Serj Sərkisyan hakimiyyətini qorumaq üçün ordudan çox polisin dəstəyinə ehtiyac duyur.

Beləliklə, cəbhə bölgəsində 4 günlük döyüşlər olmasaydı, Ermənistanda bütün bunlar yaşanmayacaqdı və ya seçkiyə yaxın yaşanacaqdı. Bu proseslər həm də Azərbaycan ordusunun Dağlıq Qarabağdakı işğalçı qüvvələri daima təzyiq altında saxlamasının doğruluğunu göstərir.

## Münaqişənin həll formulu necədir?

Moskvada aprelin 27-də Beynəlxalq Təhlükəsizlik konfransı keçirildi. Konfransda 82 ölkədən nümayəndə iştirak edirdi. Azərbaycanı bu konfransda müdafiə nazirinin müavini təmsil etdiyi halda, Ermənistandan Rusiya paytaxtına keçmiş müdafiə naziri Seyran Ohanyan getdi. Halbuki, cəbhə bölgəsindəki indiki ağır vəziyyətdə işğalçı qüvvələrə nəzarət etməsi üçün Ohanyanın öz ölkəsində olmasına ehtiyac var idi. Demək, Ermənistan ordusunun vəziyyəti o qədər ağır idi ki, Ohanyan Moskvaya dəstək istəməyə getmişdi.

İrəvanın Moskvadan birinci istəyi odur ki, Rusiya Azərbaycan hakimiyyətinə təsir etsin, işğal altındakı torpaqlarda döyüşlər dayandırılsın, separatçıların itkiləri artmasın. İrəvanın ikinci istəyi isə 200 milyon dollar kreditlə bağlı idi. Rusiya Ermənistana 200 milyon dollar kredit verməlidir ki, İrəvan özünə silah-sursat alsın. Ancaq o günlərdə Rusiya bu pulu hələ Ermənistana verməmişdi. Ermənistan nə yeni hərbi texnika ala, nə də cəbhə bölgəsində itirdiklərinin yerini doldura bilirdi. Ermənistan həmin pulu əldə edib Rusiyadan 200 milyon dəyərində hərbi texnika alsa belə, bu, müharibə şəraitində olan dövlət üçün böyük məbləğ

deyil. 4 günlük müharibədə işlətdiyi hərbi sursatın yerini doldurmaq və itirdiyi hərbi texnikanın əvəzinə yenilərini almaq üçün 200 milyon dollar kifayət etməyəcəkdi. Azərbaycan illərdir hərbi texnikanın alışına milyardlarla dollar xərcləyir və bu xərclər hər keçən ay artır. Bunun özü də bir yarışdır. Müharibə döyüş ruhu ilə yanaşı, həm də maliyyədir, kim hərbə çoxlu pul xərcləyirsə, onun finişə birinci çatmaq şansı yüksəlir.

4 günlük döyüşlərdən sonra da cəbhə bölgəsində atəşkəsə riayət olunmurdu. Hər iki tərəf ağır texnikadan istifadə edir, itkilərin sayı azalmırdı. Azərbaycan tərəfdən əsasən Tərtər rayonu atəş altında idi, buna cavab olaraq Azərbaycan ordusu Ermənistan ordusunun Ağdərədəki postlarına zərbələr endirirdi. Tərtərin daima atəş altında olması Azərbaycan ordusunun Ağdərə istiqamətində irəliləməsi məsələsini aktuallaşdırırdı.

Ümumiyyətlə, cəbhə bölgəsində vəziyyətin yenidən gərginləşməsinin iki səbəbi var idi.

**Birinci səbəbi** o idi ki, 2-6 aprel döyüşlərindən sonra beynəlxalq aləm danışıqları intensivləşdirməyib. Şablon ifadələr səsləndirən rusiyalı rəsmilərin bölgəyə səfərləri də həmişəki kimi real nəticə verməyib. Belə olan halda cəbhə bölgəsində sakitlik və tərəflərin atəşkəsə riayət edəcəyini gözləmək çətin idi.

**İkinci səbəb** isə o idi ki, Ermənistan prezidenti Serj Sərkisyan itirdiyi yüksəklikləri geri qaytarmaq haqqında düşünür, çünki o hələ cəmiyyətin "Ermənistan həmin yüksəklikləri niyə itirdi" sualına cavab verməyib, ona görə də bu sual aktuallaşmamış cəbhədə əks-hücumla uğur qazanmaq istəyirdi. Ancaq nəticədə Ermənistanın itkiləri artırdı.

2-6 aprel tarixlərindəki döyüşlər və əldə olunan nəticələr Azərbaycan cəmiyyətində Dağlıq Qarabağ münaqişəsinin həlli formulunu aydınlaşdırdı: birincisi, işğal altındakı Ermənistan ordusuna zərbələr endirməklə onların itkilərini artırmaq, ikincisi, bu yolla İrəvana təzyiqi gücləndirmək, üçüncüsü isə Moskva ilə tərəfdaşlıq siyasətini davam etdirmək lazımdır.

İkinci amil ona görə vacibdir ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinə birbaşa qarışmayana qədər rəsmi Bakı Kremllə münasibətləri tərəfdaş səviyyəsində saxlayacaq. Dağlıq Qarabağ Abxaziyaya, Cənubi Osetiyaya və ya Donbasa bənzəmir. Rusiyanın digər separatçı bölgələrindən fərqli olaraq Dağlıq Qarabağla sərhədi də yoxdur. İkinci tərəfdən, Gürcüstan və Ukraynadan fərqli olaraq Azərbaycan Rusiya ilə strateji tərəfdaşlıqdan imtina etmir. Ancaq Rusiya hakimiyyəti və hərbi komandanlığı Dağlıq Qarabağdakı döyüşlərə birbaşa müdaxilə edərsə, həm Azərbaycanla münasibətləri gərginləşdirəcək, həm də müharibənin miqyasının genişlənməsinə şərait yaradacaqlar.

Bu arada, Vaşinqtondan da səs çıxmağa başladı. Keçmiş dövlət katibi Con Kerri aprelin 25-də Azərbaycan və Ermənistan prezidentlərinə zəng edərək, İlham Əliyev və Serj Sərkisyanla Dağlıq Qarabağ münaqişəsinin həlli vacibliyindən danışdı.

Kerrinin telefon zəngi gecikmişdi. 6 aprel tarixindən sonra rusiyalı rəsmilər Bakıya və İrəvana səfər edərək tərəflərlə intensiv danışıqlar apardılar, münaqişənin həlliylə bağlı 5 il öncəki Kazan planını xatırlatdılar. Bu müddətdə Vaşinqton Moskvanın təkbaşına fəallığını müşahidə etdi. ABŞ-ın keçmiş prezidenti Barak Obama üçün Cənubi Qafqazın problemləri aktual

deyildi. Obamanın passivliyi Moskvaya Cənubi Qafqazda geniş manevr imkanı qazandırırdı. Vaşinqton Azərbaycanla təmaslarını yalnız enerji reruslarının dünya bazarlarına daşınması və Əfqanıstana yardım üzərində qurub, Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərmir. Hətta Fransa münaqişənin həlli məsələsində Vaşinqtondan öndədir. Azərbaycan və Ermənistan prezidentlərini görüşdürməyə çalışdıqları fikrini də aprelin 26-da ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Pyer Andrie bildirdi. Bundan başqa, prezident İlham Əliyev aprelin 26-da Bakıda Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Arlem Dezirlə görüşdü. Bu görüşdə Fransa ilə Azərbaycan arasında ikitərəfli və regional məsələlərlə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həlli və son proseslər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Con Kerrinin Bakıya və İrəvana etdiyi telefon zəngləri Rusiyaya da mesaj idi. Vaşinqton telefon zəngi ilə Moskvaya mesaj göndərdi ki, "Cənubi Qafqazda biz də varıq". Əlbəttə, Fransa və ABŞ-ın fəallaşmasının sülhün əldə olunması prosesini sürətləndirəcəyini söyləmək çətin idi. Ancaq rəsmi Bakı bütün hallarda Parislə Vaşinqtonun fəallaşmasından istifadə etməliydi ki, Kremlin Dağlıq Qarabağ münaqişəsinin həllindəki təkbaşına vasitəçilik təşəbbüslərinin qarşısını mümkün qədər əngəlləsin. Çünki bu təşəbbüslər Azərbaycanın xeyrinə deyildi.

Azərbaycan 1990-cı illərin əvvəllərində də Rusiyanın Dağlıq Qarabağla bağlı planlarını məhz Qərb dövlətlərinin dəstəyi ilə pozmuşdu. Rusiya Dağlıq Qarabağa öz sülhməramlı qüvvələrini yerləşdirmək istəyirdi, bu məqsədlə Azərbaycan hakimiyyətinə təzyiq edirdi. Rəsmi Bakı 1994-cü ildə Budapeştdə keçirilən ATƏT sammitindən istifadə etdi. Qərb dövlətləri həmin sammitdə belə qərar qəbul etdilər ki, Dağlıq Qarabağa yalnız bir ölkənin sülhməramlıları yerləşdirilə bilməz, bölgədə sülhməramlıların tərkibi proporsional şəkildə müəyyənləşməlidir. Rusiya bu qərarın əleyhinə çıxa bilmədi.

2016-cı ilin aprelində də oxşar vəziyyət yarandı. Rusiya Dağlıq Qarabağ münaqişəsini və həll prosesini öz nəzarətinə keçirmək istəyirdi. Ona görə də elə etmək lazım idi ki, ATƏT-in Minsk qrupunun digər iki həmsədri – Fransa və ABŞ, o cümlədən ATƏT-in hazırki sədri Almaniya prosesdə fəal iştirak etsinlər, Rusiyanın təkbaşına vasitəçilik missiyasına imkan verməsinlər.

İlham Əliyev tez-tez eyni fikri təkrarlayır: "Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək". Əslində bu, ermənilərin planında da yoxdur. Ermənistan hakimiyyətinin məqsədi əvvəlcə "referendum" yoluyla Dağlıq Qarabağın müstəqilliyinə nail olmaq, daha sonra isə ikinci "referendumla" bölgəni Ermənistanla birləşdirməkdir. Elə Dağlıq Qarabağda 1980-ci illərin ortalarında separatizm məhz "miatsum" (erməni dilində "birləşmə" deməkdir) şüarı ilə başlamışdı. Sadəcə, İrəvan Dağlıq Qarabağla birləşmədən indi ona görə danışmır ki, bu, beynəlxalq vasitəçilərin iştirakı ilə keçirilən danışıqlarda Ermənistanın mövqeyini zəiflədəcək, "birləşmə" siyasətinə Rusiya belə dəstək verə bilməyəcək. Ona görə də "birləşməni" sonrakı "mərhələyə" saxlayıblar. Ancaq hadisələrin inkişafı göstərir ki, Ermənistan yaxın gələcəkdə nəinki "birləşmə" ideyasından imtina etməli olacaq, eyni zamanda Dağlıq Qarabağın yüksək muxtariyyat modelinə də razılaşmaq məcburiyyətində qalacaq.

## Serj Sərkisyanın apreldən sonrakı itkiləri

Ermənistan prezidenti Serj Sərkisyan 2-6 aprel döyüşlərində Ermənistan ordusunun geri çəkilmədiyini və böyük itkilər vermədiyini iddia edirdi. Ancaq Sərkisyan aprelin 26-da ordu rəhbərliyində ciddi kadr dəyişiklikləri etdi. Ermənistan prezidentinin fərmanı ilə müdafiə nazirinin müavini, nazirliyin maddi-texniki təminat departamentinin rəisi Alik Mirzabekyan, rabitə qoşunlarının rəisi, Müdafiə Nazirliyinin rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri idarəsinin rəisi, general-mayor Komitas Miradyan və Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat idarəsinin rəisi, general-mayor Arşak Karapetyan da vəzifələrindən azad edildilər.

Bu generalların işdən çıxarılması o demək idi ki, əslində Ermənistan prezidenti 2-6 aprel tarixlərindəki döyüşdə ordunun geri çəkildiyini və ciddi itkilər verdiyini etiraf edib. Bu generallara Ermənistanın ərazisini tərk etmək qadağan edilib. Bu isə o deməkdir ki, Serj Sərkisyan həmin generalların korrupsiya yolu ilə varlandıqlarını, müdafiə məqsədi üçün ayrılan pulların bir hissəsinin oğurlandığını etiraf edib.

Ermənistan prezidenti həmin günlərdə “Bloomberq” agentliyinə verdiyi müsahibədəki sözlərlə də yadda qaldı.

Serj Sərkisyan müsahibədə dedi ki, *“indiki şərtlər altında danışıqlar mümkün deyil, çünki Dağlıq Qarabağın təhlükəsizliyinə təminat yoxdur”.* Bu cavabın mənası o idi ki, Ermənistan ordusu cəbhədə itirdikləri mövqeləri – strateji yüksəklikləri geri qaytarmağa çalışacaq.

Serj Sərkisyan Rusiya hakimiyyətinin istəyinin əleyhinə gedə bilməzdi. O, müsahibədə “danışıqlara ehtiyac yoxdur” desə də, Rusiya prezidenti Vladimir Putin Azərbaycan və Ermənistan prezidentlərini danışıqlar üçün Moskvaya dəvət etsə, Sərkisyan “yox” deməyəcək.

Ermənistan prezidenti Rusiya xarici işlər naziri Sergey Lavrovun İrəvana səfərində hansısa konkret həll planının olmadığını da vurğuladı.

Bu məsələdə Sərkisyan haqlı idi. Həqiqətən Lavrovun münaqişənin həlliylə bağlı yeni planı yox idi. Kreml Bakı və İrəvanla Kazan prinsiplərini müzakirə etmək istəyirdi. Bu prinsiplər vaxtilə Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin rəhbərliyi ilə hazırlanıb. Kreml apreldən sonra Kazan prinsiplərini yenidən canlandırmaq istəyirdi.

Ermənistan prezidentinin müsahibədə dediyi sonrakı fikir daha maraqlı idi. Sərkisyan dedi ki, o, Kazan prinsipləri əsasında Azərbaycanın 5 rayonunu azad etməyə hazır idi. Əslində 5 rayonun azad olması maddəsi bütün həll planlarında var, sadəcə, Ermənistan rəsmiləri heç zaman bu haqda açıq danışmırdılar. Çünki Ermənistan cəmiyyətinin buna etiraz edəcəyindən ehtiyat edirdilər. İndi isə Serj Sərkisyan “5 rayonun azad olunması” fikrini xatırlatmaqla faktiki cəmiyyətinə “Ermənistan bufer zonadan imtina etmək məcburiyyətində qalacaq” fikrini təlqin edirdi. Sərkisyanın bu cür açıqlaması 4 günlük döyüşün nəticəsiydi. Bu o deməkdir ki, Azərbaycan ordusu növbəti döyüşlərdə yenidən uğur qazanarsa, Serj Sərkisyan başqa həqiqətlərdən də danışmağa başlayacaq, məsələn, deyəcək ki, "Şuşa və Laçına

azərbaycanlılar qayıdacaqlar, ancaq..." Bu cümlələrdə "ancaq" əhəmiyyətli deyil, cümlənin birinci hissəsində Ermənistan cəmiyyətinə mesaj var.

Sərkisyanın açıqlamaları və Rusiyanın apardığı siyasət Ermənistanda qarışıqlıq yaratdı. Ermənistanda bəzi siyasi qruplar və fəallar Rusiyanı Ermənistanı satmaqda ittiham etdilər, eyni zamanda Dağlıq Qarabağ məsələsində Sərkisyanın güzəştə getməyə hazır olduğunu bildirdilər. Əslində bu ittihamların ciddi əsası yox idi. Rusiya Ermənistanı satmağı düşünmürdü, ən azı ona görə ki, Ermənistan Kremlin Cənubi Qafqazdakı yeganə forpostudur. İkincisi, Serj Sərkisyan vaxtilə Dağlıq Qarabağ separatçılarının əsas fiqurlarından biri olub, Azərbaycan torpaqlarının işğalında onun bilavasitə iştirakı var. Belə bir şəxs Dağlıq Qarabağ məsələsində güzəştə gedə biləcək ən son siyasətçidir.

## Rusiya cəbhə bölgəsindəki döyüşlərə görə niyə Ankaranı ittiham edirdi?

Moskvada 2016-cı ilin aprelin 27-də keçirilən 5-ci Təhlükəsizlik konfransını məşhur Münhen təhlükəsizlik konfransına bənzətmək istəyirdilər. Ancaq budəfəki konfransa NATO ölkələrindən heç kim qatılmadı. Halbuki, birinci konfransda Qərb ölkələrinin təmsilçiləri də iştirak etmiş və tədbir maraqlı diskussiya ilə yadda qalmışdı. Budəfəki konfransda isə çıxışların çoxu monoloq xarakteri daşıyırdı.

Rusiyanın Krımı işğal etməsi NATO ölkələrinin Moskva konfransına marağını azaldıb. Konfransda yalnız Avrasiya ölkələrinin nümayəndələri iştirak edirdilər. İran, Suriya, Pakistan, Əfqanıstan və Çinin nümayəndələri Moskvada qlobal təhlükəsizlikdən çox başqa ölkələrə qarşı iddialar səsləndirdilər. Məsələn, Moskvada çıxış edən İran nümayəndəsi bütün problemlərin kökündə sionizmin dayandığını iddia etdi. Halbuki, Rusiya hakimiyyəti İsraillə sıx münasibətlərə çalışır və İsrailin əleyhinə olan belə çıxışlar Kremldə diskomfort yaratmalıdır.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu konfransdakı çıxışında ABŞ və NATO-nu tənqid etdikdən sonra Qərbin təzyiqlərinə alternativ yol göstərdi: *"Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində hərbi əməkdaşlığı genişləndirmək və təşkilatda hərbi məsləhətçilər institutu yaratmaq lazımdır".*

Şoyqunun bu ideyasının reallaşması problematikdir. Çünki Krımın işğalından sonra Rusiyadan nəinki Qərb dövlətləri, hətta öz müttəfiqləri də ehtiyat edirlər. Şanxay Əməkdaşlıq Təşkilatında Rusiyadan başqa digər əsas iki dövlət Çin və Qazaxıstandır. Astana ilə Pekin Rusiya ilə iqtisadi-ticarət əlaqələrini genişləndirmək, o cümlədən birgə regional layihələr həyata keçirmək istəyir. Ancaq nə Astana, nə də Pekin Kremlin hərbi avantüralarına şərik olmaq istəyirlər. Qazaxıstanla Çin Rusiyadan fərqli olaraq, Qərb ölkələri ilə körpüləri yandırmır, tam əksinə, Vaşinqton və Brüssellə müxtəlif istiqamətlərdə əməkdaşlıq etməkdə maraqlıdırlar. Rusiya Şanxay Əməkdaşlıq Təşkilatını hərbi bloka çevirməkdənsə, "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı niyə yararsızdır" sualına cavab axtarmalıdır. Sualın cavabı

isə yenə Rusiyanın xarici siyasətində, Moskvanın Krımı işğalında və ətrafdakı separatçılara verdiyi dəstəkdədir. Ona görə də heç bir dövlət Rusiya ilə hərbi müttəfiq olmaq istəmir. İki il əvvələ qədər Ukrayna ilə Türkiyə Rusiyanın strateji tərəfdaşı idi. İndi isə Rusiya hər iki ölkəni özünə düşmən edib.

Rusiya rəsmiləri və ekspertləri aprelin 2-dən bu yana eyni ittihamı təkrarlayırdı: *"Dağlıq Qarabağda müharibəni Türkiyə qızışdırıb, Ankaranın məqsədi Rusiyaya Cənubi Qafqazda problem yaratmaqdır"*. Bu məntiqsiz açıqlamanı başqa şəkildə belə oxumaq lazım idi: *"Türkiyə Azərbaycan vasitəsilə cəbhə bölgəsində atəşkəsi pozub"*. Türkiyəli rəsmilər Moskvanın bu ittihamına susdular, səbr nümayiş etdirdilər, ancaq bir az sonra türkiyəli rəsmilər və diplomatlar qarşılıqlı açıqlamlar səsləndirdilər. Bakıda BMT-nin Qlobal Forumunda çıxış edən Türkiyənin Avropa Birliyi məsələləri üzrə keçmiş naziri Egemen Bağış dedi ki, Ermənistan müstəqil dövlət deyil, qərarlar Moskvada verilir. Bunun əksini sübut etmək çətindir. Rusiyalı rəsmilər Egemen Bağışın doğru demədiyini sübut etmək üçün Ermənistanın müstəqil dövlət olduğunu, bu ölkədə başqa dövlətin hərbi bazalarının olmadığını, sərhədi Ermənistan sərhəd qoşunlarının qoruduğunu, silah almaq üçün başqa dövlətdən 200 milyon dollar dilənmədiyini, əsas fabrik və zavodların isə Ermənistana məxsus olduğunu sübut etməlidirlər.

## Pan Gi Mun Bakıya niyə gəlmədi?

Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirildi. BMT-nin Sivilizasiyalar Alyansı 11 il əvvəl Türkiyə və İspaniyanın təşəbbüsü ilə yaradılıb. Forumda 140-dan artıq ölkə nümayəndəsi iştirak edirdi. Tədbirdə BMT keçmiş baş katibi Pan Gi Munun iştirakı da gözlənilirdi. Ancaq o, Bakıya gəlmədi, bunun əvəzinə forumda onun video-müraciəti yayımlandı.

Pan Gi Mun Azərbaycanla yanaşı Ermənistana səfərini də təxirə saldı. BMT katibliyi bölgəyə səfərin təxirə salınmasını baş katibin "təcili işləri" ilə əlaqələndirdilər. Ancaq bu səbəb inandırıcı səslənmədi. Çünki Pan Gi Mun Bakıdakı forumda iştirakını 2015-ci ildən təsdiqləmişdi.

Pan Gi Munun Cənubi Qafqaza səfərinin təxirə salınmasının iki versiyası var idi:

**Birinci versiya** o idi ki, cəbhədə vəziyyətin gərginləşməsi fonunda Bakıda BMT baş katibinə ciddi suallar veriləcəkdi. BMT-nin Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı 20 il əvvəl qəbul etdiyi 4 qətnamə yerinə yetirilmir. BMT baş katibi Bakıda bu suala cavab vermək məcburiyyətində qalacaqdı. BMT baş katibinin Bakıya səfərinin təxirə salınması bir daha onu göstərdi ki, Dağlıq Qarabağ münaqişəsinin həllində bu təşkilatdan real addımlar gözləməyə dəyməz. BMT Dağlıq Qarabağ münaqişəsinin həllində iştirak etmək istəmir.

**İkinci versiya** isə Ermənistanla bağlı idi. Pan Gi Munun proqramına görə, o, Bakıdan əvvəl İrəvana səfər etməli idi. Ancaq bu səfər 24 aprel tarixinə təsadüf edirdi. Həmin tarixdə isə Ermənistanda "soyqırım gününü" qeyd edirlər. Pan Gi Mun həmin tarixdə İrəvanda olsaydı,

“soyqırımla” bağlı tədbirlərdə iştirak etmək məcburiyytində qalacaqdı. Bu isə Türkiyə və Azərbaycanda narazılıqla qarşılanacaq, BMT-nin “erməni soyqrımını” tanımaq mənasını verəcəkdi. Ona görə də BMT baş katibi belə şəraitdə həm Ermənistana, həm də Azərbaycana səfərini təxirə salmağa üstünlük verdi.

Azərbaycan hakimiyyətinin bu cür beynəlxalq forumları Bakıda keçirməkdə iki məqsədi var:

**Birinci məqsəd** beynəlxalq tədbirlər vasitəsilə Azərbaycanı və burada mövcud olan tolerantlıq, dini dözümlülük və multikulturalizm ənənələrini tanıtdırmaqdır. Bu istiqamətdə rəsmi Bakı son illərdə xeyli müsbət nəticə əldə edib. Azərbaycanın əldə etdiyi müsbət nəticələr haqqında beynəlxalq aləmdə və dünyanın tanınmış siyasətçilərində ümumi məlumat var.

**İkinci məqsəd** beynəlxalq konfranslar vasitəsilə Azərbaycanın ərazi bütövlüyünə dəstəyi aktuallaşdırmaqdır. Məsələn, 10 və ya 20 il əvvələ görə beynəlxalq birlik və müxtəlif dövlətlər Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini daha yaxşı anlayır və Bakıya dəstək ifadə edirlər.

## Prezidentlərin Qarabağa səfərlərinin arxasındakı faktorlar…

Cəbhə bölgəsində atəşkəsə riayət olunmur. Bu təbiidir. Çünki atəşkəsin ardınca danışıqlar intensivləşməli idi. Bunun əvəzinə 6 aprel tarixindən bu yana Bakı və İrəvana nəticəsi olmayan səfərlər reallaşdı. Nə rusiyalı rəsmilər, nə də avropalı diplomatlar Bakı və İrəvana səfərlərində konkret təkliflər səsləndirmədilər, heç kəs İrəvanı inandırmadı ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmadan problem həll olunmayacaq. Ona görə də bu gedişat bölgəni növbəti genişmiqyaslı hərbi toqquşmalara aparır.

Müharibənin baş vermə ehtimalını Ermənistan ordusunun cəbhə bölgəsindəki təxribatları da artırır. Ermənistan hakimiyyəti və ordu komandanlığı 1990-cı illərin əvvəllərindəki taktikanı təkrarlamağa çalışır. Həmin illərdə Ermənistan ordusu Azərbaycanın kənd və rayonlarını bombalayır, bu da mülki əhali arasında itkilərin sayının artmasına gətirib çıxarırdı. Digər tərəfdən, Azərbaycan ordusu nizamlı deyildi, silahlı birləşmələr müxtəlif siyasi fiqurlara tabe idi. Və həmin siyasi fiqurlar arasındakı gərginləşən münasibətlər silahlı birləşmələrin döyüş əhval-ruhiyyəsinə mənfi təsir edirdi. Kənd və rayonların boşalması da savaşan insanların döyüş ruhuna mənfi təsir edirdi.

İndi isə Azərbaycanda vəziyyət tam fərqlidir. Azərbaycanda 24 ildə nizami ordu quruldu, könüllü batalyonlar yoxdur, ordu yalnız müdafiə nazirinin əmrlərinə tabedir. Ordunun silah və sursatı da 1990-cı illərdəkindən daha moderndir. Digər ən böyük faktor Ermənistan ordusunun bombardmanlarına baxmayaraq, mülki əhali yaşayış yerini tərk etmir. Yəni Ermənistan hakimiyyətinin və ordusunun 1990-cı illərdəki “mülki əhalini qorxu altında saxlamaq” strategiyası işləmədi. Əksinə, Azrəbaycanın rayon və kəndlərinin bombardman edilməsi Azərbaycan ordusunu işğalçı qüvvələrə qarşı yeni əks-hücuma həvəsləndirir. Həm də əgər Ermənistan ordusu yaşayış məntəqələrini bombalayırsa, Azərbaycan ordusunun əks-

hücuma keçməsi üçün əngəl qalmır. Beynəlxalq aləmin, o cümlədən Rusiyanın Azərbaycan ordusunun hücuma keçməsinə mane olması siyasəti zəifləyir. Çünki atəşkəsin Ermənistan tərəfdən pozulduğu aşkardır. Aprelin 6-da Azərbaycan hakimiyyəti Kremlin atəşkəs təklifini qəbul etdi. Növbəti savaşda Azərbaycan ordusunu atəşkəslə dayandırmaq çətin olacaq. Bunu torpaqların boşaldılmasıyla bağlı ordudakı və cəmiyyətdəki yüksək əhval-ruhiyyə də sübut edir. Azərbaycan hakimiyyəti isə zabit heyətinin və cəmiyyətinin bu sifarişi ilə hesablaşmaq məcburiyyətindədir.

2-6 aprel tarixlərindəki döyüşlərdən sonra həm Ermənistan, həm də Azərbaycan prezidenti Qarabağda oldular. Ermənistan prezidenti Serj Sərkisyan 6 aprel tarixindən sonra Dağlıq Qarabağa hərbi geyimdə gəldi. Sərkisyanın hərbi geyimdə Xankəndiyə gəlməsi və oradakı hərbçilərin bir qisminə medal verməsi Dağlıq Qarabağın Ermənistanın işğalı altında olmasının bariz nümunəsi idi.

Azərbaycan prezidenti İlham Əliyev isə mayın 2-də Ağdam və Tərtər rayonlarına səfər etdi. Sərkisyandan fərqli olaraq İlham Əliyev cəbhə bölgəsinə mülki geyimdə gəldi. Bunun da mənası o idi ki, Azərbaycanda hərbi vəziyyət yoxdur, həyat davam edir, Bakıda konsertlər də keçirilir, idman yarışlarına hazırlıq gedir. Başqa sözlə, Azərbaycan cəmiyyəti müharibədən qorxmur.

Hər iki prezidentin cəbhə bölgəsinə səfərinin məqsədi eyni idi. Prezidentlər atəş altında olan insanlara dəstək vermək, onların əhval-ruhiyyəsini qaldırmaq üçün Qarabağa gəlmişdilər. Ancaq münaqişə həll olunmayana qədər Dağlıq Qarabağın erməni əhalisini rahat həyat gözləmir, onlar hər an müharibənin başlayacağından ehtiyat edirlər. Vaxtilə bu hissi Qarabağın azərbaycanlı əhalisi də yaşayıb. İndi isə vəziyyət dəyişib. Cəbhə xəttinə yaxın məntəqələrdə yaşayan azərbaycanlılar Ermənistan ordusunun bombardmanlarından qorxmur və keçmiş illərdən fərqli olaraq dağılmış evlərini tərk etmir, əkin-biçinlə məşğul olurlar. Həmin evlər nə qədər dağıdılsa da, Azərbaycan dövlətinin pulu kifayət qədərdir ki, həmin evləri hər dəfə bərpa etsin.

## Vyanadan sonrakı mərhələdə nə baş verəcək?

Azərbaycan və Ermənistan prezidentlərinin mayın 16-da Vyanada keçirdiyi görüş nəticəsiz qaldı. Görüşdə Rusiya və ABŞ xarici işlər nazirləri də iştirak edirdilər. Görüşün yekununda ATƏT-in Minsk qrupunun həmsədrləri ortaq bəyanat yaydılar. Həmin bəyanatda münaqişənin həlliylə bağlı hansı addımların atılacağı göstərilmədi. Bunun əvəzinə bəyanatda xüsusi detallar yer aldı.

***Açıqlamadakı birinci detal:*** "Münaqişə hərbi yolla həll edilə bilməz".

Bu fikri həmsədrlər hər zaman təkrarlayır və sənədlərdə əks etdirirlər. Ancaq əgər Ermənistan danışıqları əvvəlkitək uzadacaqsa, Azərbaycanın qarşı tərəfə apreldə olduğu kimi gücünü göstərməkdən başqa alternativ qalmayacaq.

***Açıqlamadakı ikinci detal:*** "Tərəflər təmas xəttində gərginliyi azaltmaq üçün qısa müddət ərzində ATƏT-in araşdırıcı mexanizmləri üzərində işi başa çatdırmaq barədə, həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mövcud idarəsinin səlahiyyətlərinin genişləndirməsi barədə razılığa gəliblər".

Vasitəçilər hərbi insidentləri araşdırmaq istəyirlər. Bu daha çox Ermənistanın maraqlarına xidmət edir. Çünki insidentlərin araşdırılması Ermənistanın status-kvonu uzatmaq siyasətinə uyğundur. Məsələ burasındadır ki, Azərbaycan ordusu işğalçı Ermənistan ordusunu Ağdam, Füzuli və digər istiqamətlərdə daima təzyiq altında saxlamasa, rəsmi İrəvan öz istəyi ilə işğal altındakı torpaqları boşaltmayacaq. Ermənistan torpaqları azad etmək istəsəydi, bunu danışıqların getdiyi 22 ildə edərdi. Ona görə də Dağlıq Qarabağ ətrafındakı rayonlar azad olunmayana qədər rəsmi Bakı hərbi insidentlərin araşdırılmasına razılaşmayacaq. Belə çıxacaq ki, ATƏT-in müşahidəçiləri öz torpaqlarını azad etmək üçün Azərbaycana qadağa qoyurlar. Ona görə də bu mexanizm işləməyəcək. Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin 2011-ci ildə Azərbaycan və Ermənistan prezidentləri ilə keçirdiyi görüşdə də insidentlərin araşdırılması ilə bağlı razılıq əldə olunmuşdu. Ancaq o razılıq da işləmədi. İşləyə də bilməzdi. Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər nə insidentlərin araşdırılmasına, nə də atəşkəsə riayət etmək mümkündür.

Necə ki, rəsmi Bakı işğal ortadan qaldırılmayana qədər snayperlərin və ağır hərbi texnikanın geri çəkilməsinə də razılıq vermir. Halbuki, beynəlxalq vasitəçilər bunu da Azərbaycan hakimiyyətindən tələb edirlər. ATƏT həmsədrlərinin bəyanatı imzalanan sənəd deyil, rəsmi Bakının üzərinə məsuliyyət qoymur, ona görə də Azərbaycan hakimiyyətinin bəyanata riayət edəcəyi problematikdir.

Atəşkəsə riayət etməyi tələb edən hər hansı sənədin imzalanmasını Azərbaycan cəmiyyəti də qəbul etmir. 1994-cü ildə Dağlıq Qarabağda və ümumən Azərbaycanda vəziyyət ağır idi, Azərbaycan hakimiyyəti məcbur qalıb ermənilərlə Bişkəkdə atəşkəs sazişi imzaladı. Ancaq Azərbaycan torpaqları illərlə işğal altında qaldığına görə Bişkək sazişinin əhəmiyyəti azaldı. Digər tərəfdən bu müddətdə Azərbaycanda siyasi və iqtisadi sabitlik bərpa olundu və ordu gücləndi.

Azərbaycan cəmiyyətinin və ordunun işğala dözüm limiti bitib. Beynəlxalq vasitəçilər isə yenidən Azərbaycanı 22 il əvvələ qaytararaq Bişkək sazişinə riayət etməyə çağırırlar, üstəgəl, təmas xəttində ATƏT-in monitorinq qrupunun üzvlərinin sayını artırmaq istəyirlər ki, hərbi insidentlər araşdırılsın. Vyanada vasitəçilərdən heç biri demədi ki, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması mövzusu da müzakirə olunmalıdır. Əvəzində hamısı atəşkəsin qorunması vacibliyindən danışdı. Başqa sözlə, Azərbaycan hakimiyyətinə və cəmiyyətinə verilən mesaj budur ki, "münaqişəni indi həll etmək mümkün deyil, ona görə ən azı atəşkəsə riayət olunmalıdır". Əgər Azərbaycan atəşkəsə riayət edəcəksə, insidentlərin araşdırılmasına yaşıl işıq yandıracaqsa və bunun müqabilində Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaqsa, işğal altındakı torpaqlar necə azad olunacaq? Bu suala vasitəçilərin cavabı yoxdur.

Bu arada, bəzi xəbər agentlikləri Vyana görüşündən sonra belə bir məlumat da yaydılar ki, guya prezidentlərin görüşündə cəbhə boyu videokameraların quraşdırılması mövzusu da müzakirə olunub. Kameraların quraşdırılması da Ermənistanın maraqlarına uyğundur. Kameraların Azərbaycan – Ermənistan, üstəgəl, Naxçıvan – Ermənistan sərhədi boyunca quraşdırılması vacibdir.  Yoxsa Azərbaycanı öz torpaqlarından ayıran işğal altındakı ərazilərdə kameralar hansı məntiqlə quraşdırıla bilər? Rəsmi Bakı bu ideyanı da qəbul etməyəcək.

Bütün hallarda nəticəsiz olsa belə, Vyana görüşü rəsmi Bakıya lazım idi. Çünki bu, Azərbaycan ordusunun aprel ayında cəbhə bölgəsində əldə etdiyi uğurdan sonra prezidentlərin vasitəçilərin iştirakı ilə ilk görüşü idi. Beynəlxalq aləm gördü ki, Azərbaycan danışıqların qeyri-müəyyən müddətə qədər uzanmasından narazıdır. Vyanadakı görüş Azərbaycandakı əhval-ruhiyyənin daşıyıcısına çevrilməli idi. Ancaq əgər Vyanadan sonrakı müddətdə Ermənistan heç bir addım atmazsa, növbəti görüşlər rəsmi Bakının əleyhinə işləyəcək. Çünki münaqişənin həllində konkret addımlar atılmadan görüşlərin davamı dövlət başçısı İlham Əliyevin dediyi kimi imitasiya xarakteri daşıyacaq. İmitasiya isə status-kvonun davamı deməkdir.

Prezidentlərin Vyana görüşü nəticəsiz qaldığına görə Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə ümid yenə azaldı. Əvvəlkitək nə Ermənistan qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonları azad etməyə hazırlaşır, nə də ki, böyük dövlətlər bununla bağlı İrəvana təzyiq etməyi planlaşdırırlar. Bu isə Azərbaycan ordusunun Ermənistana təzyiqi artırmağı yenidən aktuallaşdırır. Prezidentlərin iyun ayının sonundakı növbəti görüşünə qədər cəbhə bölgəsində atəşkəsə ciddi riayət ediləcəyi problematikdir. Elə Vyanada prezidentlərin görüşünün getdiyi saatlarda da atəşkəs pozulurdu.

Ermənistan prezidenti Serj Sərkisyanın özü də Vyanadakı sözlü razılaşmaların işləyəcəyinə əmin deyil. Bunu onun Vyana görüşündən sonra erməni jurnalistlərə verdiyi açıqlamadan da anlamaq olar. Demək, hər iki tərəf yenə öz bildiyini edəcək. Ermənistan işğalı uzatmaq, Azərbaycan isə işğalçıya təzyiqi artırmaq siyasətinə üstünlük verəcək.

## NATO Azərbaycan sərhədlərinə yaxınlaşır

Amerika Birləşmiş Ştatlarının Avropa Komandanlığının rəhbəri, general Ben Hodces Bakıda oldu. Amerikalı general 3 vacib təklifini Azərbaycan rəsmilərinin diqqətinə çatdırdı.

**Birinci təklif:** Gələn il Gürcüstanda birgə hərbi təlimlər keçiriləcək. ABŞ həmin təlimlərdə Azərbaycan hərbçilərini də görmək istəyir.

**İkinci təklif:** Yay aylarında Rumıniyada da birgə hərbi təlimlər planlaşdırılıb. ABŞ bu təlimlərə Azərbaycan hərbçilərini də dəvət edib.

**Üçüncü təklif:** Rəsmi Bakının dəvəti olacağı təqdirdə ABŞ hərbçiləri Azərbaycana gəlib, birgə təlimlərdə iştirak etmək istəyirlər. Amerikalı generalın sözlərinə görə, amerikalı hərbçilər bu bölgəyə xas olan təcrübəni öyrənməkdə maraqlıdırlar.

Rəsmi Bakı üçün amerikalı generalın hər 3 təklifinə "hə" deməsi problematik idi. Çünki rəsmi Bakı Kremlin reaksiyasından ehtiyat edir. Məsələn, may ayının sonunda Gürcüstanda ABŞ və Böyük Britaniya hərbçilərinin və döyüş texnikasının iştirakı ilə birgə hərbi təlimlər keçirildi. Əslində Azərbaycan bu təlimlərə də dəvətli idi. Ancaq Rusiya hakimiyyəti Tiflis yaxınlığında – Vazianidəki təlimlərə etiraz etdi. Əgər Azərbaycan hərbçiləri də həmin təlimlərdə iştirak etsəydilər, bu, Bakı ilə Moskva arasındakı münasibətlərdə müəyyən suallar yaradacaqdı. Azərbaycan hakimiyyəti isə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı indiki həssas məqamda Rusiya ilə münasibətlərdə gərginlik yaşamaq istəmir.

Buna baxmayaraq, NATO istər-istəməz Azərbaycan sərhədlərinə yaxınlaşıb və yaxın gələcəkdə rəsmi Bakı seçim etmək məcburiyyətində qalacaq. ABŞ-ın Gürcüstanda kiçikmiqyaslı hərbi bazasını formalaşdırması reallığa çevrilir. NATO Azərbaycanla da hərbi əməkdaşlığa maraq göstərir. NATO ən azı Azərbaycandan keçən boru xətlərinin mühafizəsi məsələsində Bakı ilə dialoqu genişləndirməyə ümidlidir. Digər tərəfdən, NATO sturkturları Azərbaycanın ərazi bütövlüyü məsələsində qətiyyətli mövqe nümayiş etdirir, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yanaşmasına dəstək verirlər. NATO-nun bu yanaşması istər-istəməz Azərbaycanla NATO arasındakı əməkdaşlığın genişləndirilməsini zəruri edir.

Rəsmi Bakı birbaşa NATO və ABŞ-la hərbi əməkdaşlığın genişlənməsi məsələsində bir qədər ehtiyat etsə də digər NATO üzvü olan Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməkdən çəkinmir və bu zaman Azərbaycan hakimiyyəti Rusiyanın mövqeyini nəzərə almır. Rusiya hakimiyyətinin özü də NATO-nun Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığından narahat olsa da, Bakı – Ankara hərbi əməkdaşlığını özü üçün təhlükə kimi qiymətləndirmir. Çünki bilir ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Rusiyanın əleyhinə yönəlməyib, həm də Kreml eyni dilə və kökə malik olan Azərbaycanla Türkiyənin hərbi və siyasi ittifaqının da zərurətdən irəli gəldiyini anlayır.

Bu baxımdan Azərbaycan Türkiyənin dəvət etdiyi bütün birgə hərbi təlimlərdə iştirak edir. Məsələn, Azərbaycan hərbçiləri 2016-cı ilin yay aylarında Türkiyədə iki hərbi təlimdə iştirak etdilər. Birinci təlimlər Türkiyənin İzmir şəhərində keçirildi. "Efes" adlanan təlimləri Türkiyənin prezidenti və baş naziri ilə yanaşı Azərbacanın müdafiə naziri də izlədi. Təlimlərdə Türkiyə, Azərbaycan, ABŞ, Almaniya, İngiltərə, Polşa, Pakistan, Səudiyyə Ərəbistanı və Qətər hərbçiləri iştirak etdilər. Bu o demək idi ki, əslində rəsmi Bakı Türkiyə və ABŞ hərbçilərinin iştirak etdikləri təlimlərdən yayınmır. Əsas şərt təşəbbüskarın Türkiyə olmasıdır. Eyni günlərdə Azərbaycan hərbi pilotları Türkiyənin bir başqa şəhəri – Konyada keçirilən hərbi təlimlərdə də iştirak etdilər. "Anadolu Qartalı – 2016" adlanan təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 pilotu təmsil olunurdu.

Beləliklə, ABŞ və NATO Rusiyanın qonşuları ilə əməkdaşlığı genişləndirmək istəyir. Baltik ölkələri, Ukrayna, Moldova, Gürcüstan bu əməkdaşlıqda maraqlıdır. Çünki Rusiyadan təhlükə

gözləyirlər. Azərbaycan hakimiyyəti NATO-nun Qərbdən olan üzvləri ilə birgə hərbi təlimlərdən ehtiyat etsə də, ordunu NATO standartlarına yaxınlaşdırmaq istəyir. NATO standartlarını isə NATO-nun hərbi strukturlarında çalışan hərbçilər bilirlər. Ona görə də rəsmi Bakı istər-istəməz həmin hərbçilərlə əməkdaşlıq etməli, onları Bakıda müxtəlif kurslara cəlb etməlidirlər.

## ATƏT sədri Qarabağla məşğul olmaq istəmir

Azərbaycan prezidenti İlham Əliyev iyunun 7-də Almaniyaya rəsmi səfər etdi. İlham Əliyevin Berlindəki görüş və müzakirələri iki mövzunu əhatə edirdi.

**Birinci mövzu** iki ölkə arasında iqtisadi və ticarət əməkdaşlığına aid idi. Berlində Azərbaycan – Almaniya İqtisadi Forumunun açılışı oldu. Almaniyanın vitse-kansleri, iqtisadiyyat və enerji naziri Ziqmar Qabriel "Cənub Qaz Dəhlizi" layihəsinin əhəmiyyətinə toxunaraq onu Xəzərin karbohidrogen ehtiyatlarını Avropaya çatdıracaq yeni layihə kimi xarakterizə etdi. Ziqmar Qabriel Azərbaycanda çalışan alman şirkətlərinin uğurla fəaliyyət göstərdiklərini dedi.

Daha sonra çıxış edən İlham Əliyev də Almaniya ilə Azərbaycanın yaxşı tərəfdaş olduğunu, ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını bildirdi. Azərbaycan prezidenti Avropa İttifaqının Azərbaycanın həyata keçirdiyi enerji layihələrinə dəstək verdiyini qeyd etdi. Almaniya ilə münasibətlərin iqtisadi əlaqələrin inkişafına da təsir etdiyini deyən İlham Əliyev bildirdi ki, Azərbaycanda daha çox alman şirkətlərini görmək istəyir. Azərbaycan prezidenti qeyd etdi ki, Azərbaycan iqtisadiyyatının inkişafı üçün təhlükəsizlik və sabitlik vacibdir. Bununla da tərəflər müzakirələrdə ikinci mövzuya keçdilər.

**İkinci mövzu** Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı idi. İlham Əliyev forumdakı çıxışında dedi ki, atəşkəs olduqca kövrəkdir, Ermənistan vəziyyətə nəzarət edə bilmir və status-kvo bu cür davam edə bilməz. İlham Əliyev BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmədiyi üçün Ermənistana sanksiyaların tətbiq olunmamasından təəssüfləndiyini bildirdi.

Almaniya kansleri Angella Merkel İlham Əliyevlə görüşdən sonra birgə keçirdikləri mətbuat konfransında da əsas açıqlamalar Dağlıq Qarabağ münaqişəsinə aid idi.

Merkel dedi ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində açar rolunu oynayır. Bunu çoxları bilir. Ancaq bu fikri məhz Almaniya kanslerinin söyləməsi maraqlı idi. Çünki Almaniya təhlükəsizlik konsepsiyasında Rusiyanı strateji tərəfdaş statusundan rəqib statusuna keçirib. Berlinin bu qərarı Ukrayna böhranı, Krımın işğalı və Rusiyanın Donbas separatçılarına verdiyi dəstəyə görədir.

Bəs ATƏT-in hazırki sədri olaraq Almaniya Dağlıq Qarabağ münaqişəsinin həllində nə edə bilər?

Vacib sual bu idi. Ancaq Merkel mətbuat konfransında Almaniyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolu ilə bağlı fikir bildirmədi. Halbuki, cəbhə bölgəsində atəşkəs

pozulduqda Berlin 7 maddəlik təklfilər paketi hazırladığını açıqlamışdı. Merkel mətbuat konfransında bu təkliflərə aydınlıq gətirmədi. Ayrıca, cəbhə bölgəsində vəziyyət gərginləşəndə Almaniyanın xarici işlər naziri Ştaynmayerin Cənubi Qafqaza səfər edəcəyi də açıqlanmışdı.

Görünür, Merkel Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolunu qabartmaqla sadəcə hamıya mesaj verirdi ki, "münaqişənin həllində Avropa, o cümlədən Almaniya fəal vasitəçi rolunda çıxış etməyəcək, Avropanın problemi onsuz da kifayət qədərdir, Avropanın Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmağa vaxtı və enerjisi yoxdur".

İlham Əliyev cavab nitqində Merkelin Rusiya ilə bağlı fikrini bu sözlərlə təsdiq etdi: "Rusiyanı strateji tərəfdaş hesab edirik. Rusiyanın da Azərbaycana münasibəti eynidir. Azərbaycanın Rusiya ilə təhlükəsizlik, nəqliyyat, ticarət sahəsində yaxşı münasibətləri var".

Daha sonra İlham Əliyev dedi ki, Rusiyanın Ermənistana silah satması Azərbaycanda allergiyaya səbəb olmur, ancaq bu, Ermənistanda allergiya doğurur. İlham Əliyev mətbuat konfransında Azərbaycanın Rusiya ilə yanaşı Türkiyə, İsrail, Belarus və İrandan silah aldığını bildirdi. Bu, İlham Əliyevin Azərbaycanın İrandan silah almasına dair ilk publik açıqlaması idi.

## Sankt-Peterburq görüşündən çıxan nəticə(lər)

Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə iyunun 20-də Azərbaycan və Ermənistan prezidentləri Sankt-Peterburqda görüşündən bir gün əvvəl Azərbaycan ordusu genişmiqyaslı hərbi təlimlərə başladı. Təlimlər 6 gün davam etdi. Bu təlimlər Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı il üçün hazırlıq planına uyğun həyata keçirilirdi. Buna baxmayaraq, Sankt-Peterburqda azərbaycanlı və erməni həmkarlarıyla görüşdüyü saatlarda Azərbaycanda keçirilən hərbi təlimlər Putinə rəsmi Bakının bu şəkildə üstüörtülü mesajı idi: "Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq məqsədilə Ermənistan hakimiyyətinə təzyiq etməsəz, atəşkəs müvəqqəti xarakter daşıyacaq".

Putinin Sankt-Peterburq görüşünə başlamadan bir neçə saat əvvəl Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov mesaj xarakterli açıqlama verdi: "Sankt-Peterburq görüşünün əsas məqsədi hərbi əməliyyatların bərpasından sığortalanmaqdır". Bu faktiki o demək idi ki, hazırki mərhələdə Kreml sahibinin məqsədi münaqişəni həll etmək yox, atəşkəsin ömrünü uzatmaqdır. Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmadan atəşkəsin ömrünü uzatmaq status-kvonun ömrünü uzatmaq deməkdir. Status-kvonun ömrünün uzanması isə işğalçının maraqlarına uyğundur.

Rusiya prezidenti Sankt-Peterburqda ilk olaraq erməni həmkarı Serj Sərkisyanla görüşdü. Sərkisyan görüşdə bildirdi ki, atəşkəsin pozulması hallarının araşdırılması mexanizminin yaradılması Dağlıq Qarabağ danışıqlarının aparılması üçün yaxşı zəmin yaradacaq. "Əgər artıq əldə etdiyimiz anlaşmaların implementasiyası üzrə irəliləsəydik, yəni insidentlərin araşdırılması mexanizmlərini yarada bilsəydik, sevinərdik" deyən Sərkisyan bu istiqamətdə

danışıqların aparılmasının işgüzar əhval-ruhiyyə yaradacağını iddia etdi. Yəni Putin kimi Sərkisyan da Sankt-Peterburqda ancaq atəşkəsin ömrünün uzanmasından danışmağa hazır idi. Bu mənada Kremllə İrəvanı ancaq bir sual düşündürür: Necə edək ki, atəşkəs daimi olsun və Azərbaycan cəbhə bölgəsində hərbi gücünü nümayiş etdirməsin?

Azərbaycan prezidenti İlham Əliyev Putinlə görüşdə məsələnin məğzini iki cümlə ilə ifadə etdi: *"Dağlıq Qarabağ münaqişəsində status-kvo qəbuledilməzdir və erməni silahlı qüvvələri bölgədən çıxarılmalıdır".* İlham Əliyev Sərkisyandan fərqli olaraq "atəşkəsin uzanması" və ya "insidentlərin araşdırılması" kəlmələrini işlətmədi. Yəni prezidentlərin keçmiş görüşlərində olduğu kimi Sankt-Peterburqda da mövqelər bir-birindən 180 dərəcə fərqlənirdi.

Üç prezidentin birgə görüşündən də real nəticə çıxmadı. Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin ortaq bəyanatı isə göstərir ki, nə Ermənistan prezidenti Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmağa hazırlaşır, nə də Rusiya prezidenti bu məqsədlə erməni həmkarına təzyiq etməyi düşünür. Bir neçə cümlədən ibarət birgə bəyanat məna yükü az olan ifadələrdən ibarətdir. *"Prezidentlər Qarabağ münaqişəsinin nizamlanmasının inkişafına şərait yaratmağa icazə verən bir sıra məsələlərdə qarşılıqlı anlaşmanın əldə olunduğunu ifadə ediblər"* cümləsinin sonuncu hissəsi diqqəti çəkir.

Görəsən, o hansı "məsələlərdir" ki, onların ətrafında qarşılıqlı anlaşma əldə edilib? Yəqin prezidentlər cəbhə bölgəsində eskalasiyaya yol verməyəcəklərini bəyan ediblər. Bunun da adını qoyublar "bir sıra məsələlər". Prezidentlərin bundan əvvəlki Paris görüşündə də "bir sıra məsələlər" razılaşdırılmışdı. Ancaq Ermənistan Paris görüşündən dərhal sonra işğal altındakı torpaqlarda hərbi təlimlər keçirdi, Azərbaycan hərbçiləri işğalçı qüvvələrin helikopterini vurdu. Bununla da Paris "razılaşmalarının" üstündən xətt çəkildi.

Buna baxmayaraq, prezidentlərin Sankt-Peterburq görüşünün yekunu ilə bağlı Rusiya, Ermənistan və Azərbaycan xarici işlər nazirləri nikbin açıqlamalar verdilər. Rusiyanın xarici işlər naziri Sergey Lavrov dedi ki, prezidentlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına əlavə dinamika vermək barədə razılığa gəliblər.

"Əlavə dinamika" ifadəsinin heç bir mənası yoxdur. Keçmiş illərdə prezidentlərin görüşlərindəki ortaq bəyanatlarda bundan da güclü ifadələr işlənib. Sonrası bəllidir. Lavrovun ardınca Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da oxşar açıqlama verərək bildirib ki, görüş konstruktiv şəkildə keçirilib və Azərbaycan tərəfi görüşün nəticələrini müsbət qiymətləndirir. Aydındır ki, Azərbaycan rəsmiləri Rusiyanın vasitəçiliyi ilə keçirilən görüşdə "müzakirələr konstruktiv keçmədi" ifadəsini işlətməzdilər. Əslində bütün görüşlər "konstruktiv" qiymətləndirilir. Ancaq ortada nəticə yoxdur.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarovla Edvard Nalbandyanın "görüş uğurlu keçdi" kimi eyni açıqlama vermələri əslində ziddiyyətdən xəbər verir. Görüş hər iki tərəf üçün uğurlu keçə bilməzdi. Çünki münaqişənin həllinə baxışda Azərbaycanla Ermənistanın mövqeyi 180 dərəcə fərqlidir və bu fərq Sankt-Peterburqda ortadan qaldırılmadı.

Beləliklə, Sankt-Peterburq görüşü göstərdi ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində əsas vasitəçidir. Ancaq bu o deməkdirmi ki, Rusiya prezidenti Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirməyə hazırdır?

Vladimir Putin hakimiyyətdə olduğu 16 ildə (4 illik baş nazirliyi dövrü də prezidentlikdən fərqlənmədi) ölkə xaricində heç bir problemin həllində müsbət rol oynamadı, əksinə, onun siyasəti yaxın və uzaq ölkələrdə yeni problemlərə yol açdı. Bu illərdə Abxaziya və Cənubi Osetiya zorla Gürcüstandan qoparıldı (yenə Putinin baş nazirliyi dövrünə təsadüf etsə də, keçmiş prezident Dmitri Medvedyev onsuz addım ata bilmirdi), daha sonra Krım ilhaq olundu, Donbas da faktiki Ukraynadan qoparıldı. Bütün bu neqativ nümunələr varkən, hakimiyyətdə olduğu dövrdə Putinin ilk dəfə özünü pozitiv nəticəyə kökləyəcəyini, işğal altındakı torpaqlarımızı Ermənistandan alıb Azərbaycana qaytaracağını gözləmək problematikdir.

Buna baxmayaraq, Putin Sankt-Peterburq görüşündən sonra çalışacaqdı ki, münaqişə həll olunmasa belə, tərəflər atəşkəsə riayət etsinlər. Çünki aprel atəşkəsinin memarı məhz Putindir. Atəşkəs yenidən pozulsa, Putin simasını itirəcək, sözü yerə salınmış kimi görünəcək. Ancaq Putin onu da anlamalıdır ki, münaqişə həll olunmadan yalnız atəşkəsin qorunması mümkün deyil. Bunu aprel döyüşləri də göstərdi. Sankt-Peterburqda heç bir hüquqi sənəd imzalanmadı. Azərbaycan üzərinə hansısa hüquqi öhdəlik götürmədi. Rəsmi Bakı və rəsmi İrəvan Sankt-Peterburqda razılaşdırılan "əlavə dinamika" ifadəsini fərqli dəyərləndirir. Əgər rəsmi İrəvan bu ifadəni atəşkəsin daimi qorunması kimi qəbul edirsə, rəsmi Bakı bu ifadəni Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasının sürətləndirilməsi kimi izah edəcək. Demək, belə şəraitdə atəşkəsin qorunacağına zəmanət yoxdur.

Müqayisə üçün, 2008-ci il noyabrın 2-də Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri Moskva yaxınlığındakı "Mayn Dorf" iqamətgahında 5 bəndlik bəyanata imza atmışdılar.

Həmin bəyanatdakı ifadələr Sankt-Peterburqda razılaşdırılan bəyanatdan daha güclü idi. Məsələn, "Mayn Dorf" bəyannaməsində deyilirdi ki, tərəflər münaqişənin siyasi yolla həllini təmin etməli, yüksək səviyyəli təmasları intensivləşdirməli, etimadın möhkəmləndirilməsi üçün tədbirlər reallaşdırmalıdırlar. "Mayn Dorf" bəyannaməsi kağız üzərində qaldısa, bir az sonra unudulacaq Sankt-Peterburq bəyanatı niyə yerinə yetirilməli idi?

Prezidentlər Sankt-Peterburqdan geri qayıtdıqdan sonra Azərbaycan Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədov Sankt-Peterburqdakı danışıqların məhz "mərhələli həll" planı əsasında aparıldığını dedi. Yəni ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılır, azərbaycanlılar geri qayıdır, məhz bundan sonra referendumla bağlı müzakirələr başlayır. Əlbəttə, bu, Azərbaycan üçün ən ideal variantdır. Ancaq danışıqların məhz bu istiqamətdə getdiyini və Ermənistan prezidentinin həll planının bu şəkildə qəbuluna hazır olduğunu vurğulamaq mümkün deyil. Çünki nə görüşdən əvvəl, nə də sonra danışıqların məhz "mərhələli həll" planına söykəndiyinə dair heç bir açıqlama verilmədi. Əksinə, həm rusiyalı, həm də erməni rəsmilər "atəşkəsin uzunömürlüyündən və sığortalanmasından", "insidentlərin araşdırılması mexanizmindən" danışdılar.

Belə isə Novruz Məmmədovun optimist açıqlaması reallığı nə dərəcədə əks etdirir və nəyə hesablanıb?

**Birincisi,** Novruz Məmmədovun açıqlamasının hakimiyyət içində hazırlandığını proqnozlaşdırmaq olar. Məqsəd Ermənistan və Rusiya siyasi elitasına mesaj göndərməkdir. Erməni cəmiyyəti Novruz Məmmədovun açıqlamasına inansa, prezident Serj Sərkisyanı satqınlıqla ittiham edəcək. Ermənistanın siyasi dairələrində və cəmiyyətində gərginliyin artması isə Azərbaycanın maraqlarına uyğun gəlir.

**İkincisi,** rəsmi Bakı Novruz Məmmədovun açıqlaması vasitəsilə Rusiya hakim elitasının reaksiyasını yoxlayırdı. Norvuz Məmmədovun açıqlaması reallığı əks etdirməsə də, informasiya savaşında istifadə oluna biləcək element idi.

Serj Sərkisyan Sankt-Peterburq görüşündən dərhal sonra Dağlıq Qarabağa getdi.

**Birincisi,** bu səfərin özü də göstərir ki, Sankt-Peterburq görüşü nəticəsiz qalıb. Danışıqlarda irəliləyiş olsaydı, Sərkisyan Dağlıq Qarabağa səfər kimi təxribatdan bir müddət çəkinər, birinci növbədə Sankt-Peterburq təmaslarının yekununu öz yaxın ətrafında müzakirə edər, özü üçün müsbət və mənfi tərəflərini aydınlaşdırardı.

**İkincisi,** Sərkisyan Qarabağa gəlməklə mesaj verirdi ki, referendum məsələsi hələ də onlar üçün önəmlidir və bu "məsələ" həll olunmadan Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razılaşmayacaq. Digər tərəfdən, Sərkisyan Xankəndidəki yerli separatçıları arxayın edir ki, danışıqlarda onun tərəfindən heç bir geri addım yoxdur.

İlham Əliyev də ordu günü münasibətilə iyunun 25-də hərbçilər qarşısında çıxışında önəmli mesajlar verdi.

Əsas mesaj ondan ibarət idi ki, İlham Əliyev Ermənistanın aprel döyüşlərindən sonra danışıqları davam etdirmək üçün irəli sürdüyü şərti qəbil etməyib. İlham Əliyev şərtin nədən ibarət olduğunu söyləmədi. Ancaq böyük ehtimalla söhbət Azərbaycanın işğaldan azad etdiyi strateji yüksəkliklərdən gedirdi. Çünki Ermənistan prezidenti yenidən yüksəkliklərin onlara qaytarılmasından sonra danışıqların bərpasını mümkün hesab edirdi. Bunun reallaşması mümkün deyildi. Azərbaycan Ermənistana aid bölgəni ələ keçirməyib. Ona görə Azərbaycanın hərbi qüvvələri nəzarət etdikləri strateji yüksəklikləri geri verməyəcəklər.

Ermənistan prezidenti Serj Sərkisyan aprel məğlubiyyətindən dərhal sonra mövcud vəziyyətdə danışıqlara qatılmayacağını söyləmişdi. Ancaq Sərkisyan dediyini edə bilməzdi. Çünki o, Rusiya prezidenti Vladimir Putinin görüşmək təklifinə "yox" deyə bilməzdi. Sərkisyan mövcud vəziyyətlə barışaraq həm Vyana, həm də Sankt-Peterburq görüşlərində iştirak etdi.

İlham Əliyev açıqlamasında həm də ona işarə vurdu ki, rəsmi İrəvan danışıqlardan imtina etsəydi, bu, yenidən müharibənin başlanması demək olacaqdı. Həqiqətən, əgər danışıqlar yoxdursa, münaqişənin həllinin alternativ yolları hərəkətə gətirilir. İlham Əliyevin sözlərindən həm də o aydın oldu ki, onun 2015-ci ilin dekabrında Ermənistan prezidenti ilə görüşü formal xarakter daşıyıb.

İlham Əliyevin hərbçilər qarşısında çıxışındakı ikinci mesajı isə ondan ibarət idi ki, həm Vyana, həm də Sankt-Peterburq görüşündə Azərbaycanın maraqları əleyhinə heç bir sənəd qəbul edilməyib. Ancaq prezident belə bir fikir də səsləndirdi: "Danışıqlar mənalı, predmetli

olmalıdır, sadəcə olaraq görüntü, imitasiya naminə aparılmamalıdır". Yəni İlham Əliyev bu sözlərlə faktiki Vyana və Sankt-Peterburq görüşündə predmetli danışıqların getmədiyinə işarə etdi.

İlham Əliyevin Sankt-Peterburq görüşünün nəticəsi ilə bağlı üçüncü mesajı rəsmi Bakının ATƏT sədrinin şəxsi nümayəndəsinin ofisinin işçilərinin say tərkibinin artırılmasına razılaşmasıyla bağlıdır. Əslində bunu rəsmi Bakının güzəşti kimi qəbul etmək lazımdır. Çünki cəbhə bölgəsində monitorinqin aparılması Azərbaycan ordusunun işğalçıya təzyiqinin artırılmasına maneə məqsədi daşıyır. Ancaq İlham Əliyev güzəştin elə də böyük olmadığına eyham vurub. Məsələn, prezident dedi ki, əgər ATƏT ofisində 6 nəfər işləyirsə, bu, maksimum 2 dəfə və ya 2,5 dəfə artırılacaq. Yəni böyük missiyadan söhbət getmir. İlham Əliyevin "təmas xəttinin on kilometrlərlə olduğunu nəzərə almaq lazımdır" sözləri o deməkdir ki, Azərbaycan ordusu işğalçını cəzalandırmaq imkanlarını əlində saxlayır. Çünki ATƏT ofisinin mandatında dəyişiklik yoxdur. Həqiqətən, cəbhə bölgəsində ATƏT müşahidəçilərinin 6 nəfərdən 14 nəfərə yüksəlməsi heç nəyi dəyişməyəcək. Əsas odur ki, danışıqlarda Ermənistanın təklif etdiyi insidentlərin araşdırılması təklifi qəbul edilməyib. Rəsmi Bakının mövqeyi bundan ibarətdir ki, insidentlərin araşdırılması mexanizmi yoxdur. Bu təklifin mənası ondan ibarətdir ki, Azərbaycan ordusu hücum edib işğal altındakı torpaqları azad edə bilməsin. İlham Əliyevin buna cavabı konkretdir: "Azərbaycan münaqişənin dondurulmasına şərait yaradacaq təklifləri qəbul etməyəcək".

Nəhayət, İlham Əliyev hərbçilər qarşısındakı çıxışında aprel döyüşlərdən əvvəl səsləndirdiyi fikirlərini yenidən təkrarladı. **Birincisi,** Azərbaycan dövləti öz tarixi torpaqlarında heç vaxt ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək və bu, danışıqlar mövzusu deyil. **İkincisi,** Azərbaycan Dağlıq Qarabağa Avropada mövcud olan istənilən muxtariyyat modelini tətbiq etməyə hazırdır. İlham Əliyevin misal kimi Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasını göstərməsi də yerindədir. Naxçıvanın parlamenti və hökuməti var, Azərbaycanın maliyyə imkanlarından da bəhrələnir. Dağlıq Qarabağın da erməni və azərbaycanlı nümayəndələrdən ibarət parlamenti, hökuməti, hətta azsaylı polis qüvvələri formalaşdırıla bilər. Üstəgəl, hazırda Dağlıq Qarabağ səfalət içindədir, kasıb Ermənistan bölgənin sosial problemlərini həll edə bilmir. Dağlıq Qarabağ Azərbaycanın tərkibinə qayıdan kimi bölgənin inkişafı ilə bağlı xüsusi proqram qəbul oluna bilər. Bütün bu təkliflər müxtəlif danışıqlarda Ermənistan hakimiyyətinə çatdırılıb. Sadəcə, İrəvan müsbət cavab vermək iqtidarında deyil. Bu da müharibə ehtimalını azaltmır.

## Almaniyanın həll planı yoxdur

Almaniyanın keçmiş xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan o zamankı sədri Valter Ştaynmayer Ermənistana və Azərbaycana səfər etdi. Səfər və verilən açıqlamalar nə ilə yadda qaldı?

**Birincisi,** ATƏT-in keçmiş sədrləri kimi hazırki sədr Almaniya da Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirə bilməyəcək. Bunu Valter Ştaynmayerin İrəvan və Bakıda verdiyi açıqlamalar da göstərirdi.

**İkincisi,** Valter Ştaynmayerin bölgəyə səfəri zamanı verdiyi açıqlamalar da göstərir ki, Berlin ATƏT-ə sərdlik etdiyi müddətdə cəbhə bölgəsində atəşkəsin qorunmasına çalışır. Çünki Ştaynmayerin Bakıda verdiyi açıqlamalardan aydın olurdu ki, Berlin yaxın zamanlarda danışıqlardan nəticə əldə edilməyəcəyi halda bölgədə növbəti eskalasiyanın yarana biləcəyindən ehtiyatlanır.

**Üçüncüsü,** Valter Ştaynmayer Bakıda Qarabağdan olan məcbur köçkünlərlə görüşündə dedi ki, Berlin Dağlıq Qarabağın azərbaycanlı icmasının Dağlıq Qarabağın erməni icması ilə davamlı görüşlərinin keçirilməsinə çalışacaq. Bu təşəbbüsün reallaşması Azərbaycanın maraqlarına cavab verirdi. Ermənistan hakimiyyəti hər zaman Dağlıq Qarabağın separatçı liderlərini danışıqlara cəlb etmək istəyir. Rəsmi Bakı bunun əleyhinədir və mövqeyi belədir ki, Dağlıq Qarabağın erməni icması sonrakı mərhələdə danışıqlara qatıla bilər, bundan əvvəl isə Ermənistan silahlı qoşunları Azərbaycan ərazilərini tərk etməlidirlər. Rəsmi Bakı Qarabağın azərbaycanlı və erməni icması arasında dialoqun genişlənməsinin tərəfdarıdır. Ancaq rəsmi İrəvan buna mane olur. Buna baxmayaraq, Almaniya ATƏT-ə sədrlik etdiyi dövrdə icmaların görüşünü təşkil edə bilmədi və ya təşkil etmək istəmədi.

## Lavrovun açıqlamaları nikbinlik üçün əsas verirmi?

Rusiya xarici işlər naziri Sergey Lavrov iyul ayında həm İrəvanda, həm də Bakıda oldu. Cəbhə bölgəsində aprel döyüşlərindən sonra Lavrov hər ay ən azı bir dəfə Azərbaycan prezidenti İlham Əliyevlə görüşdü. Sergey Lavrov İlham Əliyevlə yanaşı azərbaycanlı həmkarı Elmar Məmmədyarovla da görüşlər keçirdi. Görüşdən sonra iyulun 12-də nazirlər mətbuat konfransı keçirdilər. Görüşlərdə və mətbuata verilən açıqlamalarda aşağıdakı fikirlər diqqəti çəkirdi:

– Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müvəffəqiyyətə əvvəlkindən daha çox yaxınıq;

– Son 3-4 ayda danışıqlar prosesində nəzərəçarpan müsbət dinamika var;

– Prezidentlərin Sankt-Peterburq görüşündən sonra əsas məqsəd odur ki, kiçik ümid yaradan amillərə ehtiyatla yanaşılmalıdır;

– Hazırda danışıqlar konkret məsələlər ətrafında, substantiv şəkildə gedir. Ardıcıl, intensiv danışıqlar nəticəsində həllini tapmamış məsələlərdə müəyyən irəliləyişə nail olmaq mümkündür;

– Minsk qrupu həmsədrləri fəal şəkildə müzakirələrdə iştirak edirlər.

Beləliklə, Bakıda səsləndirilən açıqlamalar sanki optimizm üçün əsas verirdi. Hətta Sergey Lavrovla görüşdə Elmar Məmmədyarov belə bir fikir də işlətdi: "Danışıqlar masasını mərhələli şəkildə, addım-addım mövcud problemlərdən təmizləməliyik". Əslində bu ifadə ilə rəsmi Bakı danışıqların "mərhələli həll" planından kənara çıxmadığına işarə edir. İlham Əliyev iyulun 11-də hökumətin iclasındakı çıxışında da danışıqların məhz "mərhələli həll" planı əsasında aparılması vacibliyini bildirmişdi.

Ancaq Lavrov Bakıda bir dəfə də "mərhələli həll" ifadəsini işlətmədi. Bu ondan xəbər verir ki, Kreml münaqişənin həllinin birinci mərhələsində Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması fikrini hələ qəbul etməyib. Əks halda, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova "prezidentlərin Sankt-Peterburqdakı danışıqları "mərhələli həll" planı əsasında gedirdi" deyən Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Norvuz Məmmədovu təkzib etməzdi.

O ki qaldı Bakıda səsləndirilən "kiçik ümid yaradan amillərə" ifadəsinə, söhbətin Dağlıq Qarabağa veriləcək aralıq statusdan getdiyini ehtimal etmək olar. Belə bir status Azərbaycanın böyük güzəşti sayıla bilər. Bunun mənası odur ki, Dağlıq Qarabağın müvəqqəti statusu olur. Bu arada isə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılır, azərbaycanlılar geri qayıdır və ermənilər əvvəlki həyat tərzlərinə davam edirlər. Ancaq problem ondadır ki, rəsmi İrəvan müvəqqəti statusa etiraz etməsə də bunun nə qədər çəkəcəyini bilmək və yekun statusu müəyyənləşdirəcək referendumun keçiriləcəyi tarixi sənədə salmaq istəyir. Bu isə bütün razılaşmanı pozur. Və Kremlin İrəvanı bu tələbdən vaz keçməyə məcbur etmək istədiyinə dair işarə yoxdur. Tərəflərin danışıqların dinamizmi ilə bağlı optimizmi özünü doğrultmaya da bilər. Keçmiş illərdə də belə hallar olub. Hətta danışıqlarda elə il olub ki, ATƏT-in Minsk Qrupu həmsədrləri "münaqişə bu ilin sonuna qədər həll olunacaq" kimi ümidverici açıqlamalar səsləndiriblər. Bu mənada, Bakıda səsləndirilən bu tip açıqlamalar sanki optimizm üçün əsas verir. Ancaq sonrakı aylarda bu optimizmdən əsər-əlamət qalmadı.

Azərbaycan və Ermənistan prezidentləri 2008-ci ildə Moskvada Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə 5 maddəlik ortaq bəyanat imzalamışdılar. O zaman da bu optimist açıqlamalar səslənmişdi. Ancaq bütün bunlar münaqişənin həllini və sülh anlaşmasının imzalanmasını sürətləndirmədi.

## Yeni format: Rusiya – Azərbaycan – İran

Azərbaycan, Rusiya və İran prezidentlərinin avqustun 8-də Bakıdakı görüşü yeni formatın əsasını qoydu. Bundan sonra hər 3 ölkənin prezidenti mütəmadi görüşəcəklərinə qərar verdilər. Növbəti görüş Tehranda olacaq. Rəsmi Bakı bu formata xüsusi əhəmiyyət verir.

Azərbaycan prezidenti İlham Əliyev Rusiya – İran – Azərbaycan arasındakı üçtərəfli formatı bölgədə sabitlik üçün mühüm faktor adlandırıb: “Biz həm ölkələrimizi qoruyacağıq, həm də regionda əməkdaşlığı dərinləşdirəcəyik”.

Əslində prezidentlərin görüşünün əsas məqsədi şimal-cənub dəhlizini müzakirə etmək idi. Hər 3 ölkə qısa müddət ərzində dəmiryolu tikintisinin tamamlanmasını istəyir. Bu istiqamətdə yeganə problem dəmiryolunun İran hissəsinin (Astara-Rəşt) inşasına başlamaqdır. Azərbaycan bu məqsədlə İrana kredit verməyə, Rusiyanın Dəmir Yolları şirkəti isə tikintini həyata keçirməyə hazırdır.

Buna baxmayaraq, Bakı görüşündə siyasi mesajlar da səsləndi.

**İlham Əliyev** dedi ki, gələcəkdə 3 ölkə arasında siyasi əlaqələri daha da möhkəmləndirməliyik: *“Biz qonşuyuq və bu əlaqələr daha da güclənməlidir”.*

Rusiya prezidenti **Vladimir Putin** 3 ölkə arasında əlaqələrdə yeni səhifənin açıldığını bildirdi: *“Ölkələrimizin sərhədləri yaxınlığında Əfqanıstan, Yaxın Şərq yerləşir. Bunlar qeyri-stabil, qaynar nöqtələrdir və burada İŞİD və digər beynəlxalq terror təşkilatları fəaliyyət göstərir. Bunlar bizə real təhlükədir və ölkələrimizin daha sıx əməkdaşlığını tələb edir. Biz terror təşkilatlarının fəaliyyəti barədə informasiya mübadiləsini vacib hesab edirik”.* Rusiya prezidenti yeni formatın Xəzər regionunun dinamik inkişafına töhfə verəcəyini də dedi.

İran prezidenti **Həsən Ruhani** də bu formatda görüşlərin davam etdirilməsinin zəruriliyini vurğuladı: *“Ölkələrimiz ortaq geosiyasi mövqeyə malikdir, eyni fürsətlər və təhdidlərlə qarşılaşır. Bu təhdidlər müştərək anlaşmanı daha da vacib edir. Bu sahədə danışıqların faydalı olduğunu hesab edirik”.*

Buna baxmayaraq, Bakıdakı görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində geniş fikir mübadiləsi aparılmadı. İlham Əliyev dedi ki, işğalla bağlı status-kvo yolverilməzdir. Bu, Azərbaycan prezidentinin rusiyalı və iranlı həmkarlarına mesajı idi ki, rəsmi Bakı uzun müddət nəticəsiz qalan danışıqlara mənfi yanaşır.

Vladimir Putin İlham Əliyevlə görüşdə Dağlıq Qarabağla bağlı çox “korrekt” ifadələr işlətdi. Putinin cümlələri xüsusi seçilmişdi. O elə ifadələr seçdi ki, Ermənistan prezidenti Serj Sərkisyan bundan narahat olmasın.

Ümumiyyətlə, Putinin Azərbaycana səfərinin Dağlıq Qarabağ münaqişəsinin həllinə az aidiyyatı var idi. Putin indiki məqamda münaqişənin ədalətli həllini sürətləndirməyə hazır deyil. Rusiya dövlət başçısının Bakıda dediyi sözlər də bundan xəbər verir.

Putinin Bakıda Qarabağla bağlı dediyi sözlərdə bir-birinə bənzər iki mesaj var idi.

**Birinci mesaj** o idi ki, Moskva münaqişənin həlli və Dağlıq Qarabağ ətrafındakı torpaqlarının azad olunması məqsədilə Ermənistana təzyiq etməyəcək. Rusiya prezidenti dedi ki, münaqişənin həllində “qalib tərəf” olmamalıdır. Başqa sözlə, Putin elə həll yolu təklif edir ki, tərəflərdən heç biri narazı qalmasın.

Məsələ burasındadır ki, Dağlıq Qarabağ münaqişəsinin həllində hər iki tərəf "qalib" ola bilməz. Ermənistan hakimiyyəti Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını bölgənin statusunu müəyyənləşdirəcək referenduma bağlayır. Azərbaycan heç bir zaman bu təklifi qəbul etməyəcək. Putinin "qalib olmasın" sözlərindən isə belə çıxırdı ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldarsa, bunun qarşılığında Azərbaycan da Ermənistana Dağlıq Qarabağda referendum keçirməsi imkanı verməlidir. Bu cür "həll" Ermənistanın maraqlarına cavab verəcək, çünki Dağlıq Qarabağın müstəqilliyinə şərait yaradacaq.

Putinin **ikinci mesajı** da birinciyə oxşayırdı. Rusiya prezidenti dedi ki, elə həll yolu tapılmalıdır ki, "hər iki xalq özünü məğlub saymasın". Erməni separatçıları üçün referendum tarixi müəyyənləşmədən irəli sürülən həll yolu məğlubiyyət sayılır. Belə çıxır ki, ermənilər özlərini məğlub hesab etməsinlər deyə, Putinin yanaşması baxımından rəsmi Bakı referenduma razılaşmalıdır.

Putinin Bakıda dediyi fikirlər bir daha ondan xəbər verirdi ki, Rusiya həll prosesini sürətləndirməyəcək. Bu isə Ermənistanın maraqlarına uyğundur. Rəsmi İrəvanın da istəyi budur ki, heç bir dövlət Ermənistana Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması istiqamətində təzyiq etməsin.

Putin Bakıya nəqliyyat layihəsini müzakirə etmək üçün gəlmişdi. Bu layihənin həllində problem yoxdur. Azərbaycan, İran və Rusiya dəmir yolunun qısa zamanda tikintisində maraqlıdır. Qarabağ isə Putin üçün arxa plandadır. Rusiya prezidentinin Qarabağla bağlı yeganə istəyi və ya tələbi müharibənin başlanmamasıdır.

## Putin Sərkisyanı sakitləşdirdi

Vladimir Putin Bakıya səfərindən iki gün sonra Moskvada Ermənistan prezidenti Serj Sərkisyanla görüşdü. Putin bu addımı balansı qorumaq baxımından atdı. Çünki Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində tərəfsiz vasitəçi olmaq istəyir. Rusiya prezidenti tərəflərdən birinin lideri ilə görüşdən sonra dərhal o birisi ilə də görüşməlidir.

Putinin Azərbaycan və Türkiyə prezidentləri ilə görüşlərindən sonra Kreml sahibinin erməni həmkarını sakitləşdirməyə ehtiyacı var idi. Çünki Ermənistan cəmiyyəti Putinin Azərbaycan və Türkiyə prezidentləri ilə hər görüşündən sonra böyük narahatıq keçirir və bu görüşlərin Ermənistanın əleyhinə olacağını düşünür. Bundan isə erməni müxalifəti Serj Sərkisyana qarşı istifadə edir. Putin isə indiki şərtlər daxilində Ermənistan müxalifətinin Sərkisyanı devirməsinin əleyhinədir. Ona görə də Putin dərhal Sərkisyanı Moskvaya çağırdı.

Serj Sərkisyan Moskvaya getmədən öncə Milli Təhlükəsizlik Şurası aparatını buraxdı. Bu ondan irəli gəlirdi ki, Sərkisyan tərəfdarlarına belə inanmır. Ermənistanın müdafiə naziri Seyran Ohanyan isə eyni gündə Dağlıq Qarabağa getdi. O burada jurnalistlərə verdiyi açıqlamada Ermənistan ordusunun Rusiyadan yeni silahlar aldığını təsdiqlədi. Seyran Ohanyanın digər maraqlı açıqlaması ondan ibarət idi ki, Ermənistanın hücuma məruz qalacağı

təqdirdə Rusiya Ermənistana kömək edəcək. Yəni Ohanyan bununla erməni ictimaiyyətini sakitləşdirmək istəyirdi ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın maraqlarına zidd addım atmayacaq. Bunu Rusiya prezidentinin Bakıdakı açıqlaması da sübut edirdi. Elə buna görə də Serj Sərkisyan Putinlə görüşdə Dağlıq Qarabağ münaqişəsinin həllində göstərdiyi fəallığa görə Putinə minnətdar olduğunu vurğuladı. Putin isə öz növbəsində Sərkisyanla görüşdə Ermənistanın Rusiya ilə müttəfiq olduğunu xatırladaraq növbəti dəfə Azərbaycan hakimiyyətinə və cəmiyyətinə mesaj göndərdi. Mesajın mənası bu idi ki, Rusiya Cənubi Qafqazdakı müttəfiqinin əleyhinə addım atmayacaq. Kreml Azərbaycanı strateji tərəfdaş, Ermənistanı isə strateji müttəfiq adlandırır. Müttəfiqlik tərəfdaşlıqdan daha üst səviyyə sayılır.

Bu arada, Seyran Ohanyanın Ermənistanın öz silahlarını istehsal etməsi üçün Müdafiə sənayesi üzrə Dövlət Komitəsinin yaradıldığı fikri də diqqət çəkir. Ermənistanın hazırki ağır iqtisadi və sosial durumunda müdafiə sənayesi yaratması problematikdir. Belə bir dövlət komitəsi yaradılsa belə, müdafiə sənayesi Ermənistan ordusu üçün lazımi hərbi silah və sursat, texnika istehsal edə bilməyəcək. Çünki buna milyardlarla dollar vəsait lazımdır. Ermənistanın isə bu qədər maliyyəsi yoxdur. Sadəcə, Ermənstan hakimiyyəti Azərbaycandan geri qalmadığı görüntüsünü yaratmaq istəyirdi. Azərbaycanın müdafiə sənayesi illərdir fəaliyyət göstərir və müxtəlif növ silah, sursat və hərbi texnika istehsal edir, üçüncü ölkələrlə birgə hərbi texnika istehsalının əsası da qoyulub. Bu sahədə Ermənistanın Azərbaycanla yarışması mümkün deyil. Ona görə də Ermənistan müdafiə sənayesi yaratsa belə, əvvəlkitək kreditlə və ya pulsuz aldığı Rusiya silahlarına ümid edəcək.

Vladimir Putin Sərkisyanla birgə mətbuat konfransında Rusiyanın Ermənistana silah çatdırılmasına dair öhdəliklərini yerinə yetirəcəyini bir daha təsdiq etdi. Putin fikirini belə əsaslandırdı ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, Rusiyanın müttəfiqidir, qarşılıqlı vəzifələr mövcuddur. Putin Rusiyaın Ermənistan qarşısında üzərinə düşən öhdəliklərinə sadiq qalacağını bildirdi.

Buna baxmayaraq, Putinin belə bir əlavəsi də diqqəti çəkdi: “Müasir silah bazarında hər ölkə istənilən silahı ala bilər. Belə ölkələrdən biri də Azərbaycandır. Neft ölkəsi olan, sürətlə inkişaf edən iqtisadiyyata, kifayət qədər böyük qızıl-valyuta ehtiyatına malik Azərbaycan, əlbəttə ki, istədiyi yerdən istədiyi silahı almaq imkanındadır”.

## “İsgəndər” raketləri hansı dövlətə məxsusdur: Rusiyaya, yoxsa Ermənistana?

Ermənistan paytaxtı İrəvanda Rusiyadan alınan modern “İsgəndər” raketlərinin (500 km-ə qədər məsafəyə zərbə endirə bilir) nümayiş etdirilməsi Azərbaycanda böyük narazılığa səbəb oldu. Ermənistan ordusunun hərbi paradda həmin raketləri nümayiş etdirməsi Azərbaycana mesaj idi.

**Birinci mesaj** bundan ibarət idi ki, Rusiyanın Ermənistana verdiyi silahlar, o cümlədən müasir "İsgəndər" raketləri Ermənistanı qorumaq və Azərbaycanı təhdid altında saxlamaq gücündədir.

**İkinci mesaj** isə o idi ki, həmin silahlar yalnız Ermənistanı deyil, Dağlıq Qarabağı qorumaq üçün nəzərdə tutulub. Başqa sözlə, həmin silahların bir hissəsi Dağlıq Qarabağda yerləşdiriləcək. Halbuki, bu, beynəlxalq hüquqa ziddir.

"İsgəndər" raketlərinin separatçıların əlinə keçə biləcəyi Rusiyanı narahat etmir. Əks halda, hansısa rusiyalı rəsmi açıqlama verib deməliydi ki, "Rusiyanın Ermənistana verdiyi silahlar Dağlıq Qarabağda yerləşdirilməyəcək". Ancaq rusiyalı rəsmilər və diplomatlar belə bir açıqlama verməyiblər.

**Əsas sual budur:** *İrəvanda nümayiş etdirilən modern "İsgəndər" raketləri Rusiyanın hərbi bazasındakı özəl mülkiyyətidir, yoxsa həqiqətən Ermənistana aiddir?*

Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, Rusiya bu silahı hər dövlətə satmır. Varlı Səudiyyə Ərəbistanı vaxtilə bu raketləri almaq üçün Moskvaya müraciət edib. Moskva Ər-Riyada rədd cavabı verib. Moskva varlı Səduyyə Ərəbistanının əvəzinə həmin raketləri kasıb Ermənistana göndərdi.

*Görəsən rəsmi Bakı müraciət etsə, Rusiya bu raketləri Azərbaycana da satarmı?*

Bu sual da açıq qalır. Sözdə Kreml Azərbaycanı strateji tərəfdaş adlandırır və bölgədə hərbi balansın pozulmasını istəmədiyini bildirir. Ancaq "İsgəndər" raketlərinin ancaq bir dövlətə məxsus olması hərbi balansı pozur. Demək, o biri dövlətdə də bu raketlərdən olmalıdır. Rusiya rəsmi Bakının da raketləri əldə etmə müraciətinə rədd cavabı verərsə, deməli, Kremlin "hərbi balans pozulmamalıdır" kimi problemi yoxdur. Rusiya üçün əsas odur ki, Ermənistan Azərbaycandan zəif olmasın.

Raketlər Rusiyaya məxsus olsaydı, Ermənistan hakimiyyətinin həmin raketləri özününkü kimi nümayiş etdirməsi Moskva tərəfindən təkzib olunmalı idi. Təkzib yoxdursa və ya susqunluq nümayiş etdirilirsə, deməli, bu raketlərin Ermənistana məxsusluğu və ya Ermənistanın maraqları üçün istifadə oluna biləcəyi faktı ortaya qoyulmuş olur. Bu isə o deməkdir ki, həmin silahlar çox rahatlıqla Dağlıq Qarabağda və digər işğal altındakı ərazilərimizdə peyda ola bilər. Bu faktor Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə xidmət etmir. Bundan başqa, Ermənistan hakimiyyəti yenə köhnə təxribatına əl ataraq işğal altındakı Ağdam və digər ərazilərdə hərbi təlimlər keçirdi. Demək, aprel döyüşləri rəsmi İrəvana heç nəyi anlatmadı. Ermənistan əvvəlkitək Rusiyaya arxayındır.

Rusiya hakimiyyətinin və hərbi-sənaye kompleksinə rəhbərlik edən şəxslərin hesablamadığı məqam var: Azərbaycan başqa ölkələrdən də modern silahlar alır. Həmin ölkələr isə Rusiyadan fərqli olaraq Ermənistana pulsuz silah vermirlər. Bu ölkələrin Azərbaycanla Ermənistan arasında hərbi balansın qorunması kimi problemi yoxdur.

Ona görə də Azərbaycan silah ehtiyatını çoxaltmaq və çeşidləndirmək məcburiyyətindədir. Rəsmi Bakı hər zaman çalışacaq ki, bölgədə hərbi balans Azərbaycanın xeyrinə olsun. Bu halda Ermənistan digər dövlətlərdən də silah almaq məcburiyyətində qalacaq. Ermənistanın silahlanmaya daha çox maliyyə xərcləməsi isə bu dövlətin problemlərini artıracaq. Ermənistan Rusiyadan silah alsa da, bu ölkənin başqa növ silahlara da ehtiyacı var. Həmin silahları isə Ermənistan müxtəlif dövlətlərdən pulla almaq məcburiyyətindədir.

Rusiya Ermənistana modern silahlar bağışlamaqla və sentyabrın sonunda Dağlıq Qarabağ separatçılarının iştirakıyla Moskvada konfransa iştiraka şərait yaratmaqla vasitəçi statusuna kölgə salırdı. Azərbaycan və Ermənistan prezidentlərinin Müstəqil Dövlətlər Birliyinin Bişkək toplantısındakı mübahisəsi ondan xəbər verirdi ki, hazırki vəziyyətdə iki prezident arasında razılaşma mümkün deyil.

## Serj Sərkisyanın kadr dəyişiklikləri

Ermənistanın yeni baş naziri Karen Karapetyan ölkə iqtisadiyyatında nəsə yenilik etmək və Ermənistanı ağır iqtisadi böhrandan qurtarmaq istəyir. Ancaq onun istəyi azdır. Karen Karapetyan istəyini reallaşdırmaq üçün 3 ciddi maneəni aşmalıdır:

**Birinci maneə** idarəetmədəki korrupsiyadır. Bu maneəni aşmaq üçün az qala bütün idarəetmə sistemini yenidən qurmalıdır. Ancaq çətin ki, prezident Serj Sərkisyan Karapetyana belə bir imkan tanısın.

**İkinci maneə** iqtisadiyyatdakı monopoliyalardır. Karapetyan heç bir monopoliya ilə bağlı deyil. O, baş nazir vəzifəsinə Rusiyadan gətizdirilib. Ona görə də məntiqlə Karapetyanın Ermənistandakı monopolilayalarla mübarizə aparması mümkündür. Ancaq o yenə qarşısında Sərkiysanı görəcək. Çünki Ermənistanda monopoliyalar onun və keçmiş prezident Robert Köçəryanın dövründə kök salıb və onlar bundan imtina etmək istəmirlər.

**Üçüncü maneə** isə Ermənistanda maliyyə və insan resurslarının tükənməsidir. Bu, digər iki maneədən ən mürəkkəbidir. Kaparetyan "islahat aparacam" desə də, bu işi aparmaq üçün onun nə kifayət qədər maliyyəsi, nə də insani resursu var. Ona görə də Karen Karapetyan yerində sayacaq.

Karen Karapetyan  SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə keçmiş köməkçisi Abel Aqanbekyanı məsləhət üçün keçən həftə İrəvana dəvət etdi. Ancaq Aqanbekyan İrəvanda jurnalistlərə Ermənistan iqtisadiyyatı barədə optimist fikir bildirmədi. Onun *"Serj Sərkisyanla iqtisadiyyatı dirçəltmək mümkün olmayacaq"* sözləri Ermənistanın hakim elitasına narazılıq yaratdı. *"Sərkisyan heç nə bilmir"* deyən Aqanbekyan Ermənistanın gələcəyi üçün yaxşı heç nə vəd etmir. Sərkisyan Aqanbekyanın dediyi kimi, iqtisadiyyatdan heç nə bilməsə də, hakimiyyətdən imtina etməyəcək. Sərkisyan Konstitusiyanı da ona görə dəyişdi ki, Ermənistanı parlamentdəki çoxluq vasitəsilə idarə edə bilsin.

Buna baxmayaraq, Ermənistanın bugünkü faciəsində Aqanbekyan Sərkisyan qədər günahkardır. Məhz bu şəxs hələ SSRİ-də yeni başlanan yenidənqurma dövründə “Dağlıq Qarabağ Ermənistana məxsus olmalıdır” fikrini söyləmişdi. Bu, Dağlıq Qarabağdakı erməni separatçıları üçün fitil rolunu oynadı. Aqanbekyanın “məsləhəti” ilə Sərkisyan və Köçəryan kimi separatçılar işğala baş vurmasaydılar, Ermənistan Azərbaycanla normal qonşuluq münasibətlərinə çalışsaydı, Ermənistan indiki qədər ağır vəziyyətə sürüklənməzdi. Dağıdıcı yolu seçdilər, bu da nəticəsi.

Ermənistan prezidenti Serj Sərkisyan müdafiə naziri Seyran Ohanyanı Viqen Sərkiysanla əvəz etdi. 1975-ci ildə anadan olan Viqen Sərkisyan İrəvan Dövlət Universitetində, eləcə də Fletçer Hüquq və Diplomatiya Məktəbində, Tafts və Harvard universitetlərində təhsil alıb.

Prezidentin Viqen Sərkiysanı müdafiə naziri təyin etməsi orduda islahatlar aparması istəyi ilə bağlıdır. Aprel döyüşləri göstərdi ki, Ermənistan ordusunun əsgər və zabit heyəti tam komplektləşməyib, ərzaq və geyim təminatı aşağı səviyyədədir, ordudakı pullar yeyilib, generallar bu pullarla İrəvanda özlərinə villalar tikdiriblər və s. Yəni Serj Sərkisyan ordudakı bu vəziyyəti dəyişmək üçün müdafiə sistemini keçmiş administrasiya rəhbərinə etibar edib. Yəqin Sərkisyan düşünür ki, Qərb təhsili alan Viqen Sərkiysan ordunu mükəmməl menecment əsasında quracaq, maliyyə oğurlanmayacaq. Qərb ölkələrində də müdafiə nazirləri adətən mülki şəxslər, siyasətçilər olur. Ancaq Qərb ölkələrində oturuşmuş siyasi sistem var. Ermənistan isə müharibə vəziyyətindədir.

Serj Sərkisyan ordunun döyüş qabiliyyəti ilə bağlı məsələləri yeni təyin etdiyi baş qərargah rəisi Movses Akopyana həvalə etdi. Akopyanın Azərbaycanla savaş təcrübəsi var, əslən Dağlıq Qarabağdandır, Xocalı soyqırımında iştirak edib. Movses Akopyan yeni təyinatına qədər “Dağlıq Qarabağ Respublikasının” müdafiə naziri olub. Bu təyinat o demək idi ki, Serj Sərkisyan keçmiş prezident Robert Köçəryan kimi əsas vəzifələrə Dağlıq Qarabağ ermənilərini təyin edir.

Ermənistanda prezidentdən tutmuş müdafiə nazirinə qədər əsas vəzifələrdə Ermənistanda doğulan siyasətçilər yer almayana qədər bölgədə sülh mümkün olmayacaq. Çünki Ermənistanda vəzifədə olan Dağlıq Qarabağ separatçıları Azərbaycanla müharibənin səbəbkarıdır və bölgədə sülhün əldə olunmasında maraqlı deyillər.

## Cənubi Qafqaz total müharibəyə sürüklənir

ABŞ-ın keçmiş dövlət katibi Con Kerrinin *“Dağlıq Qarabağ münaqişəsinin indiki mərhələdə həlli mümkün deyil”* açıqlaması Azərbaycanda tənqid olundu. Oktyabrın 13-də Rusiya prezidentinin köməkçisi Yuri Uşakov isə dedi ki, *“Moskvanın Dağlıq Qarabağ münaqişəsinin yaxın zamanlarda həll olunacağı ilə bağlı böyük nikbinliyi yoxdur”*. Uşakovun bu açıqlaması Kerrinin açıqlamasından fərlqənmirdi. Bu o demək idi ki, nə Vaşinqtonun, nə də Moskvanın Dağlıq Qarabağ münaqişəsinin qısa müddətlə həllinə ümidi yoxdur.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin oktyabrın 7-dəki toplantısında Qarabağ münaqişəsi ilə bağlı belə bir cümlə işlətdi: *"Qapalı görüşlərdə bizi Qarabağı tanımağa məcbur etmək istəyirlər".*

Görünür, həmsədrlər qapalı danışıqlarda rəsmi Bakıdan bunu tələb edirlər: ***"Siz Dağlıq Qarabağda referenduma razılaşmalısınız ki, bunun müqabilində torpaqlarınız azad olunsun"***. Ancaq elə bu ifadənin özünün də, prezidentin dediyi kimi, "müstəqilliyin" tanınması tələbindən fərqi yoxdur. Çünki referendumun nəticəsi əvvəlcədən bəllidir. Dağlıq Qarabağda əhalinin nisbəti ermənilərin xeyrinədir və onlar referendumda "müstəqilliyə" səs verəcəklər.

Azərbaycan cəmiyyətinin bir hissəsində aprel döyüşlərindən sonra böyük dövlətlərin Ermənistan hakimiyyətinə təzyiq edəcəyi ümidi var idi. Ancaq Azərbaycan dövlət başçısının son açıqlaması bu ümidlərin özünü doğrultmadığını göstərirdi. Əksinə, rəsmi Bakıya təzyiq var. Ermənistana təzyiq yoxdursa, bununla böyük dövlətlər Cənubi Qafqazı böyük müharibəyə sürükləyirlər.

Rusiyanın Ermənistanı "İsgəndər" raketləri ilə təchiz etməsi rəsmi Bakını narahat etdi və buna uyğun addımlar atıldı.

**Birincisi,** prezident İlham Əliyev Rusiyanın adını çəkmədən Ermənistanı silahlandıranları tənqid etdi. Ermənistanı silahla yalnız bir ölkə təhciz edir. Ona görə də tənqidin ünvanı bəlli idi.

**İkincisi,** Azərbaycan ordusunda hərbi təlimlərin sayı xeyli artdı. Müxtəlif növ təlimlər və artilleriya atəşləri həyata keçirildi. Bu da Ermənistanın "İsgəndər" raketlərinə yiyələnməsi ilə bağlı idi.

**Üçüncüsü,** Azərbaycan Ermənistan ordusunun "İsgəndər" raketlərini neytrallaşdırmaq üçün həm xaricdən müasir raket kompleksləri almağı planlaşdırır, həm də yerli hərbi-sənaye kompleksi raket komplekslərinin istehsalına başlayır.

**Dördüncüsü,** müdafiə naziri Zakir Həsənovun son açıqlamaları diqqəti çəkir. Zakir Həsənov Azərbaycanın Ermənistanın "İsgəndər" raketlərini məhv edəcək müasir silahları olduğunu bildirdi. Yəni bu bir növ Azərbaycan cəmiyyətinə mesaj idi ki, Azərbaycan ordusunun əlində "İsgəndər" raketlərindən də güclü silahı var. Bu həm də Ermənistan cəmiyyətinə mesajdır.

Beləliklə, bölgədə silahlanmanın miqyası getdikcə genişlənir. Bununla növbəti hərbi qarşıdurmanın qarşısını almaq çətin olacaq. "Biz müharibə istəmirik" ifadəsini hamı işlədir, ancaq bunun baş verməməsi üçün münbit zəmin yoxdur.

Yeni müharibə apreldəkinə bənzəməyəcək. Növbəti müharibə lokal deyil, total xarakter daşıya bilər. Total müharibə yalnız Dağlıq Qarabağ və ətraf rayonlarda cərəyan etməyəcək, müharibə Ermənistanla Azərbaycanın digər bütün ərazilərini əhatə edə bilər. Əlbəttə, bu halda Naxçıvan üzərində də müəyyən təhlükə yaranacaq. Belə olarsa, Naxçıvanın təhlükəsizlik qarantörü kimi Türkiyə də prosesə qoşulmaq məcburiyyətində qalacaq. Rusiya Ermənistanı

müdafiə etsə belə, Azərbaycana qarşı  "İsgəndər" raketlərindən istifadə ediləcəksə, bu, cavabsız qalmayacaq, Azərbaycan da Ermənistan ərazisindəki obyektləri vuracaq. Bu andan başlayaraq Rusiya ilə Türkiyə arasındakı münasibətlər yenidən gərginləşəcək.

Bu, bölgə üçün fəlakət ssenarisidir. Bu fəlakətin qarşısını almaq üçün münaqişənin həllinə başlanmalıdır. Ancaq bu yoxdursa, dəhşətli ssenarinin reallaşması ehtimalı getdikcə artacaq.

## İlham Əliyevin mesajları...

Prezident İlham Əliyev oktyabrın 17-də Rusiyanın "Sputnik" informasiya agentliyinə geniş müsahibə verdi. Müsahibədə İlham Əliyev bir sıra məsələlərə aydınlıq gətirdi.

**Birincisi,** İlham Əliyev dedi ki, Konstitusiya dəyişikliklərinə baxmayaraq, Azərbaycanda növbədənkənar prezident seçkisinə ehtiyac yoxdur və prezident seçkisi planlaşdırıldığı kimi 2018-ci ildə keçiriləcək.

**İkincisi,** İlham Əliyev söylədi ki, TAP və TANAP layihələri "Türk axını" layihəsinə alternativ deyil. Dövlət başçısının fikrincə, Avropa hər iki boru xətti ilə ixrac ediləcək qazı alacaq və buna görə Azərbaycanla Rusiya arasında rəqabət aparmağa ehtiyac yoxdur. Əslində Avropa rəsmiləri və diplomatları qeyri-rəsmi söhbətlərdə daha çox Azərbaycan qazına maraq göstərdiklərini gizlətmirlər, çünki Rusiya qazı Avropa bazarında onsuz da həddən artıqdır və Brüssel bu həcmin artırılmasında maraqlı deyil. Buna baxmayaraq, hiss olunur ki, rəsmi Bakı bu məsələdə Kremllə üz-üzə gəlmək istəmir.

**Üçüncüsü,** İlham Əliyev Rusiyanın Suriyaya hərbi müdaxiləsiylə bağlı konkret fikir bildirməsə də, Rusiya prezidenti Vladimir Putinin beynəlxalq terrorizmə qarşı birgə mübarizə ideyasını dəstəkləyir. Həqiqətən Putin ABŞ-a Suriyada beynəlxalq terrorçulara qarşı birgə mübarizə aparmağı təklif edib. Vaşinqton isə Putinin bu təklifini qəbul etməyib. Görünür, bu onunla əlaqəlidir ki, ABŞ Rusiya ilə birgə terrorçulara qarşı aparılan mübarizənin fonunda Bəşər Əsəd rejiminin güclənməsini istəmir.

**Dördüncüsü,** İlham Əliyev Rusiya hərbi təyyarəsinin Türkiyə səmasında vurulmasında üçüncü qüvvələrin maraqlı olduğuna eyham vurdu. Azərbaycan prezidenti ad çəkmədən məhz həmin qüvvələrin Rusiya – Türkiyə tərəfdaşlığını pozmaq istədiklərinə işarə etdi. Əslində üçüncü qüvvə dedikdə, yenə ağla məhz ABŞ gəlir. Çünki məhz ABŞ-dakı siyasi və hərbi dairələr Türkiyə – Rusiya yaxınlaşmasından narahatdırlar.

**Beşincisi,** İlham Əliyev müsahibəsində ümumən Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyünü istisna etmədiyini bildirdi. Bəziləri bunu artıq məsələnin həll olunduğu və yaxın müddətdə Azərbaycanın bur quruma üzv olacağı kimi anlayıb. Ancaq bu belə deyil. İlham Əliyev birinci cümləsindən sonra iki önəmli faktora toxundu. Birinci faktor odur ki, Azərbaycanın bu quruma üzv olması üçün Avrasiya İqtisadi Birliyi bizim üçün cəlbedici olmalıdır. İkinci faktor isə odur ki, Azərbaycan indiki durumundan narazı deyil və yeni ittifaqlar haqqında hələ düşünmür. Bu iki amildən daha güclü üçüncü amil də var: Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər və Ermənistan qoşunları işğal etdikləri torpaqları

boşaltmayana qədər Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü mümkün deyil. İşğala məruz qalanla işğalçı eyni iqtisadi məkanda ola bilməzlər. Belə olmasaydı, Azərbaycan Ermənistanı bütün regional layihələrdən məhrum etməzdi.

**Altıncısı,** Azərbaycan prezidenti müsahibəsində Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı vacib fikir söylədi: *"Yerli özünüidarəçilik məsələlərində kompromis mümkündür. Əgər razılığa gəlsək, bu özünüidarə Dağlıq Qarabağ Muxtar Respublikası şəklində ola bilər".*

Muxtar respublika ideyası rəsmi Bakının böyük güzəşti sayıla bilər. Əgər Azərbaycan hakimiyyəti əvvəlki illərdə güzəşt kimi daha çox "yüksək statusa malik muxtariyyət" ifadəsini işlədirdisə, indi bunun konkret adını deyir: "muxtar respublika". Muxtar respublikanın özünün parlamenti, hökuməti, yerli polis qüvvələri və s. atributları olur. Bir şərtlə ki, bütün bu strukturlarda Dağlıq Qarabağa qayıdan azərbaycanlılar da iştirak etsin. Çünki, məsələn, Şuşanın özünün də yerli icra strukturları olmalıdır.

İlham Əliyev müsahibəsində belə bir məqamı da vurğuladı ki, Azərbaycan Dağlıq Qarabağda böyük investisiya layihələri reallaşdıracaq. Hazırda Dağlıq Qarabağ Ermənistanın dotasiyasındadır və İrəvan bölgəyə ən azı 150-200 milyon dollar ayırır. Bu məbləğ ağır iqtisadi və sosial vəziyyətdə olan Ermənistan üçün böyük yükdür. Deməli, Azərbaycanın Dağlıq Qarabağa yönəldəcəyi investisiyalar həm Ermənistanı maliyyə yükündən qurtaracaq, həm də Dağlıq Qarabağda birgə yaşayan ermənilərin və azərbaycanlıların sosial və iqtisadi problemlərinin həllinə yönəldiləcək. İnvestisiya layihələrinin də "muxtar respublika" ilə bağlı hazırlanan təkliflər paketində göstərilməsi Azərbaycanın beynəlxalq aləmə güclü mesajı olar.

İlham Əliyevin Rusiya agentliyinə verdiyi müsahibənin əsas hədəfi Ermənistan yox, Rusiya hakimiyyəti idi. Tatarıstan Rusiyanın tərkibində muxtar respublikadır. Bu respublika Rusiyanın ən varlı bölgələrindəndir. Demək, Kreml tərəfdaş adlandırdığı Azərbaycanda da Dağlıq Qarabağ Muxtar Respublikanın əleyhinə olmamalıdır. Ancaq bunu da bəyənməsələr və Ermənistan hakimiyyətinə anlatmasalar İlham Əliyevlə eyni gündə açıqlama verən Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədovun "Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş qalması hər an qaynar müharibəyə səbəb ola bilər" mesajını diqqətə almalı olacaqlar. Cənubi Qafqazda davamlı müharibə isə Rusiyanın maraqlarına cavab vermir.

## Ermənilərin Bakıya gəlişi İrəvanın stereotiplərini dağıtdı

Ermənistanın hazırki və keçmiş 3 vətəndaşı – Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Martirosyan, yazıçı-publisist, ictimai xadim Vahe Avetyan və "Meridian" Qeyri-Hökumət Təşkilatının sədr müavini, hüquq müdafiəçisi Suzanna Çaqinyan Bakıya gələrək Qarabağ mövzusunda təşkil olunan konfransda iştirakları xüsusi əhəmiyyətə malik idi.

**Birincisi,** hər üç erməni Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini dedi. Onlar Dağlıq Qarabağın Azərbaycan tərkibində ən yüksək muxtariyyat statusuna razı olduqlarını dedilər. Bu, Azərbaycan prezident İlham Əliyevin Rusiyanın "Sputnik" agentliyinə verdiyi son

müsahibədə “Dağlıq Qarabağa muxtar respublika statusu verilə bilər” fikri ilə də üst-üstə düşür.

**İkincisi,** Bakıya gələn ermənilər Xocalı soyqırımı abidəsini ziyarət etdilər. Bu, Ermənistan hərbi hissələrinin yerli separatçılarla birgə Azərbaycan ərazisində soyqırım törətməsinin etirafı idi.

**Üçüncüsü,** Bakıdakı konfransda iştirak edən ermənilər prezident Serj Sərkisyanın Ermənistanı uçuruma apardıqlarını və bu şəxsin dövlət başçısı olduğu müddətdə ölkələrinin vəziyyətinin daha da ağırlaşacağını bildirdilər.

Erməni fəalların iştirakı ilə Bakıda keçirilən konfrans Azərbaycanın uğurlu piar-gedişi idi. Ermənilərin Bakıya dəvət edilərək fikirlərini sərbəst bildirməsi Ermənistan hakimiyyətinin illərdir apardığı “azərbaycanlılar bütün ermənilərə nifrət edirlər, ona görə də iki xalqın Qarabağda birgə yaşayışı mümkün deyil” təbliğatını als-üst etdi. Azərbaycanlılar bütün ermənilərə nifrət etmirlər. Azərbaycanlılar Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın Azərbaycan tərkibində varlığını qəbul edən, o cümlədən Xocalıda soyqırımın baş verdiyini etiraf edən ermənilərlə ünsiyyət qurmağa və onları Bakıya dəvət edib müxtəlif konfranslarda iştirak etməsinə şərait yaratmağa hazırdır.

Üç erməni fəalın Bakıya gələrək konfransda çıxış etməsi İrəvana o dərəcədə təsir etdi ki, Ermənistanın heç bir mediası bu haqda xəbər yaymadı. Məsələ burasındadır ki, ermənilərin Bakıya gələrək “Dağlıq Qarabağ əvvəllər olduğu kimi Azərbaycanın tərkibində olmalıdır və bununla iki dövlət normal münasibətlər qurmalıdırlar” deməsi Ermənistanın siyasi dairələrində şok effekti yaratdı. Çünki Ermənistan hakimiyyəti artıq qorxmağa başlayacaq ki, Ermənistanda Bakıya gələn ermənilər kimi düşünənlər az deyil və onlar da gələcəkdə Bakıya gələn ermənilərə qoşula bilər. Ermənistanda başqa ermənilər də var ki, Dağlıq Qarabağın Azərbaycan tərkibində varlığını mümkün sayır, sadəcə, repressiyaya uğrayacaqlarından bunu açıq deməyə qorxular. Bunun əksi mümkün deyil. Azərbaycanın hətta hakimiyyətə qarşı ən qatı müxalif olan fəalı İrəvana gedib “Dağlıq Qarabağ müstəqil və ya Emənistana aid olmalıdır” deməz.

Rəsmi Bakının bu siyasəti genişləndirməsinə ehtiyac var. Ermənistanda Sərkisyana qatı müxalif olan fəallar çoxdur. Dağlıq Qarabağın Ermənistana yük olduğunu dərk edən həmin fəallarla da dialoq qurmağa ehtiyac var. Doğrudur, onlar Dağlıq Qarabağla bağlı qəti fikir söyləməkdə çətinlik çəkirlər, ancaq onlar da bilirlər ki, Azərbaycanla müharibə şəratində yaşamaq Ermənistanı uçuruma aparır.

Bakıya gələn ermənilərin açıqlamaları beynəlxalq aləmə və həmsədr dövlətlərə də ciddi mesajdır ki, Dağlıq Qarabağda yaşayan ermənilər separatçıların hərbi-siyasi təzyiqi altında olmasalar, onlar Azərbaycanın tərkibində yaşamağa hazırdırlar. Çünki onlar anlayırlar ki, daima Azərbaycanla müharibə qorxusu altında yaşamaq olmaz. Bütün hallarda onlar bu müharibədə qalib olmayacaqlar, Azərbaycan isə heç bir halda Dağlıq Qarabağın “müstəqilliyinə” seyrçi qalmayacaq. Digər tərəfdən, hazırki şərtlər daxilində Dağlıq Qarabağda referendum keçirmək mümkün deyil. Çünki separatçıların nəzarəti altında

keçirilən referendumda ermənilərin sərbəst fikir bildirməsi onların həyatı üçün risqlidir. Məhz bu risqə görə Bakıdakı konfransda iştirak edən 3 ermənidən ikisi fikirlərini sərbəst bildirklərinə görə Ermənistan hakimiyyətinin təzyiqi ilə üzləşərək xaricdə sığınacaq alıblar.

## Lələtəpədən verilən mesajlar…

İlham Əliyevin noyabrın 12-də cəbhə bölgəsinə səfəri də məhz hərbi ritorikanın ön plana keçə biləcəyinə işarə idi. Dövlət başçısının Füzuli rayonuna səfəri zamanı bu ilin aprel ayında işğalçılardan geri alınan Lələtəpəyə gedib hərbçilər qarşısında çıxış etməsinin simvolik əhəmiyyəti var idi.

**Birincisi,** İlham Əliyev Lələtəpəyə getməklə rəsmi İrəvanın təxribatlarına cavab vermiş oldu. Məsələ burasındadır ki, son vaxtlar Ermənistan rəsmiləri və generalları cəbhə bölgəsindəki Talış kəndinə getməklə bir növ Azərbaycana acıq verirdilər ki, “bu kənd bizim nəzarətimizdədir”. İlham Əliyev isə Lələtəpəyə gedərək strateji yüksəklikdən düşmən mövqelərinə baxış keçirməklə Talış və ətraf kəndlərin istənilən an işğaldan azad oluna biləcəyinə eyham vurdu.

**İkincisi,** İlham Əliyevin səfərə hərbi geyimdə çıxmasının özü Ermənistana mesaj idi. Başqa sözlə “elə bilməyin ki, aprel döyüşləri təkrarlana bilməz”. Danışıqlar uzanır, ortada isə konkret nəticə yoxdur. Aydındır ki, Ermənistan rəsmiləri, ekspertləri və sadə vətəndaşları hazırda İlham Əliyevin Lələtəpəyə gəlişi və orda verdiyi açıqlamalar üzərində baş sındırır, rəsmi Bakının hansı taktikaya üstünlük verəcəyini anlamağa çalışırlar.

**Üçüncüsü,** İlham Əliyev bir daha xatırladıldı ki, Azərbaycan hərbi potensialını artırmaqda, yeni növ silahlar almaqda davam edəcək. Rəsmi Bakı bu prosesi dayandırmaq fikrində deyil. Rusiyadan aldığı “İsgəndər” raketləri Ermənistanı xilas etməyəcək. Çünki Ermənistanın aldığı hər uzaqmənzilli raketə Azərbaycan beşqat cavab verəcək, mümkün olan yerlərdən eyni tipli raketlər alacaq. Çünki Ermənistanda yanlış olaraq düşünürlər ki, əgər onlarda “İsgəndər” raketləri varsa, Azərbaycan ordusu işğal altındakı torpaqların azad olunması əməliyyatına risq etməyəcək. Əksinə, prezidentin “Şuşa və Xankəndi də Azərbaycanındır” sözləri ona dəlalət edir ki, söhbət yalnız Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasının vacibliyindən getmir, sıralamada Dağlıq Qarabağın özü də var.

**Dördüncüsü,** İlham Əliyevin Lələtəpədə verdiyi ən əhəmiyyətli mesajlardan biri bu oldu: “Ermənistan rəhbərliyi başqasının gücünə güvənməsin”. İlham Əliyev bu cümləsində Rusiya – Ermənistan hərbi ittifaqını nəzərdə tutub. Yəni dövlət başçısı demək istəyib ki, Ermənistan hakimiyyəti və cəmiyyəti elə bilməsin ki, Rusiya – Ermənistan hərbi ittifaqına və ya birgə hərbi qoşun birliklərinin yaradılmasına görə Azərbaycan işğal altındakı torpaqların güc yolu ilə həllinə girişə bilməz.

## Azərbaycan daha çox silah və hərbi texnika alacaq

“Bloomberg” agentliyinin məlumatına görə, Azərbaycan son 10 il ərzində hərbi büdcə ilə yanaşı, silah alışına 22,7 milyard dollar xərcləməklə, Avropada ən iri hərbi texnika idxalçısına çevrilib.

Həqiqətən, Azərbaycan silahlanmaya hər il milyardlarla dollar xərcləmək məcburiyyətindədir. Azərbaycan gələcək hərbi toqquşmaya hazırlaşır. Çünki indiki şərtlər daxilində Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli mümkün deyil. Azərbaycanın siyasi dairələrində və ictimaiyyətinin bir hissəsində belə bir inam var ki, torpaqları geri almaq üçün mütləq ordudan istifadə etmək lazımdır. Apreldəki döyüşlər də buna nümunə oldu. Azərbaycan ordusu strateji yüksəkliyi geri aldı və Ermənistan bu yüksəklikləri yenidən nəzarəti altına almaq üçün əks-hücuma keçmədi. Ermənistan hakimiyyəti reallığı qəbul etdi. Demək, Ermənistan daha böyük əraziləri itirməklə başqa reallıqları da qəbul edə bilər. Bu, Azərbaycan siyasi dairələrində və ictimaiyyətində belə bir inam yaradır ki, qarşı tərəf Azərbaycan ordusunun gücünü görməyənə qədər işğal altındakı torpaqları geri qaytarmayacaq. Ancaq “müharibənin başlayacağı halda Azərbaycana hansı istiqamətlərdən təhlükə yaranacaq” sualı da aktualdır.

Azərbaycan silah və hərbi texnikanı yalnız Dağlıq Qarabağ münaqişəsinə görə əldə etmir. Azərbaycan həssas bölgədə yerləşir. Belə bir bölgədə Azərbaycan mütləq şəkildə güclü orduya malik olmalı və silahlanmaya böyük pullar xərcləməlidir.

**Birincisi,** Azərbaycan güclü ordunun varlığı ilə qonşu dövlətlərdən hər hansı birinin müdaxiləsindən özünü qoruyur.

**İkincisi,** Yaxın Şərqdəki müharibələr və dövlətlərin parçalanması da Azərbaycanın güclü orduya malik olmasını diqtə edir.

Dağlıq Qarabağ münaqişəsi olduğuna görə, bölgənin böyük dövlətləri Azərbaycanın silahlanmaya milyardlarla dollar xərcləməsinə normal yanaşırlar. Aydındır ki, Azərbaycanın torpaqları işğal altında olmasaydı, böyük dövlətlər rəsmi Bakının silahlanmaya bu qədər vəsait xərcləməsini narahatlıqla qarşılayardılar.

Rusiyanın Ermənistana verdiyi “İsgəndər” raketləri hələ də müzakirə predmetidir. Moskva Ermənistanla müqayisədə hərbi balansın Azərbaycanın xeyrinə pozulmasını istəmir. Ona görə də Moskva “İsgəndər” raketlərini Ermənistanda yerləşdirdi.

Buna cavab olaraq rəsmi Bakı hərbi balansın yenidən Azərbaycanın xeyrinə dəyişməsinə çalışır. Bakı yeni və modern silahların alınması məqsədilə Pakistan, İsrail, Türkiyə və Ukrayna ilə danışıqlar aparır. Bu ölkələrdən alınacaq yeni silahlar hərbi baxımdan yenidən Azərbaycanın Ermənistan üzərindəki üstünlüyünü artıracaq. Yəni “İsgəndər” raketləri müvəqqəti olaraq Ermənistana müəyyən üstünlük qazandırıb. Hərbi balansın yenidən Azərbaycanın xeyrinə dəyişəcəyi vaxt uzaqda deyil.

## Həmsədrlərin ortaq bəyanatı Azərbaycana ultimatumdur

2016-cı ilin dekabrında Almaniyanın Hamburq şəhərində ATƏT Xarici İşlər Nazirləri Şurasının 23-cü iclası keçirildi. Almaniyanın ATƏT-ə sədrliyi Dağlıq Qarabağ münaqişəsinin həllinə yeni heç nə gətirmədi. Hamburq toplantısından sonra ATƏT-ə sədrlik Avstriyaya keçdi. Ancaq bu ölkənin də çox təşəbbüskar olacağını gözləməyə dəyməz. ATƏT-də sədrlik simvolik mahiyyət daşıyır. Qazaxıstan ATƏT-ə sədrlik edəndə Astanadan daha çox gözlənti var idi. Çünki Qazaxıstan Azərbaycan və Ermənistanla müxtəlif siyasi, iqtisadi və hərbi platformalarda yer alıb və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bu münaqişə haqqında daha çox bilgilidir. Ancaq Astananın təşəbbüsləri də nəticə vermədi.

ATƏT toplantılarında iştirak edən Minsk qrupu həmsədr dövlətlərinin ya dövlət başçıları, ya da xarici işlər nazirləri Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı adətən ortaq bəyanatla çıxış edirlər. Hamburqdakı toplantıya dövlət başçıları qatılmadılar. Ona görə də budəfəki ortaq bəyanat Rusiya və Fransa xarici işlər nazirlərinə, o cümlədən ABŞ dövlət katibinə aiddir. Maraqlıdır ki, Suriyadakı müharibəyə, Krımın işğalına və Donbasdakı duruma fərqli baxan Rusiya, ABŞ və Fransa Qarabağ məsələsində yekdil mövqe ortaya qoyurlar. Ancaq bu mövqenin Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsiri yoxdur. Əksinə, 3 ölkənin diplomatik qurumları rəhbərlərinin budəfəki ortaq bəyanatının mətni Azərbaycana qarşı ultimativ tonda yazıldı.

Bəyanat sanki Azərbaycana xəbərdarlıq mahiyyəti daşıyır. Doğrudur, mətndə konkret ölkələrin adı çəkilmir ki, Azərbaycanın və ya Ermənistanın məsuliyyəti vurğulansın. Ancaq bir neçə cümlədə Azərbaycana eyham vurulduğunu aydınlaşdırmaq mümkündür. Məsələn, **"münaqişənin hərbi yolla həlli yoxdur"** ifadəsi Azərbaycana mesajdır ki, "torpaqları güc yolu ilə azad etməyə çalışmayın".

Bəyanatdakı "**biz aprel ayında döyüş meydanında törədilmiş vəhşiliklərdən xəbərdarıq və bunu şiddətlə pisləyirik"** ifadəsi də qeyri-müəyyəndir. Döyüş meydanında tərəflər bir-birlərini öldürməyə çalışırlar. Bu hər yerdə belədir. Rusiya və ABŞ təyyarələri Suriyanın və ya İraqın müxtəlif məntəqələrini bombalayanda mülki əhali arasında da itkilər olur. Hər belə bombardmandan sonra Suriyada və İraqda yüzlərlə dinc sakin həlak olur.

**"Biz tərəfləri ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsinin missiyasının genişləndirilməsi istiqamətində maneələri aradan qaldırmağa və insidentlərin araşdırılmasına dair mexanizmin yaradılması təklifi üzrə irəliləyişə nail olmağa çağırırıq".** Bu da birbaşa Azərbaycana ünvanlanmış mesajdır. Çünki rəsmi Bakı cəbhə bölgəsindəki toqquşmaların qarşısını almaq üçün monitorinqin keçirilməsində maraqlı deyil. Bu monitorinq işğalın rəsmiləşdirilməsi və Azərbaycanın torpaqları geri almaq hüququnun əlindən alınması deməkdir.

"**Danışıqlar prosesində irəliləyişə nail olunmayacağı təqdirdə zorakılığın təkrarlanması perspektivləri artacaq və tərəflər buna görə tam məsuliyyət daşıyacaq"** – bu cümlənin birinci hissəsi elə həmsədrlərin özlərinə aiddir. Çünki danışıqlar prosesində irəriləyişin əldə olunmamasına görə onlar da məsuliyyət daşıyırlar. Cümlənin ikinci hissəsi də qeyri-müəyyəndir. Çünki həmsədrlər aprel döyüşlərinə görə Azərbaycanın və Ermənistanın eyni məsuliyyət daşıdıqlarını bildirdilər. Belədirsə, həmsədrlər cəbhə bölgəsində növbəti toqquşmaya görə də məsuliyyəti ancaq bir dövlətin üzərinə qoymayacaqlar. Cəbhə bölgəsində vəziyyət bu gün də gərgindir, üstəlik, Ermənistan prezidenti Serj Sərkisyan Hamburqda

ATƏT toplantısı davam edərkən, Dağlıq Qarabağda hərbi müşavirə keçirir. Bunun özü təxribatdır. Ancaq bu təxribatına görə ATƏT həmsədrləri Serj Sərkisyana etiraz etmirlər.

Həmsədrlərin bəyanatının sonuncu abzası münaqişənin necə həll olunması mexanizminə həsr olunub. Bəyanatın bu hissəsində yeni heç nə yoxdur. Madrid planında nə varsa, həmsədrlərin sonuncu abzasında yer alıb. Həmin abzasdakı bircə maddədən başqa bütün digər maddələr Azərbaycan üçün münasibdir. Həmin cümlə də "gələcəkdə Dağlıq Qarabağın məcburi hüquqi qüvvəyə malik iradə ifadəsi yolu ilə yekun statusunun müəyyənləşməsi" ifadəsindən ibarətdir. Rəsmi Bakı bu maddəni belə görür: "Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ öz statusunu müəyyənləşdirə bilər".

Ümumiyyətlə, beynəlxalq vasitəçilərin "ərazi bütövlüyü" ilə "xalqların öz müqəddəratını təyin etməsi" prinsiplərini bərabər tutması Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməyəcək.

## Rəsmi Bakının yeni strategiyası: Xalq diplomatiyasını genişləndirmək!

Rəsmi Bakı Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə ordunu gücləndirmək, yeni silahlar almaq və Rusiya – Türkiyə yaxınlaşmasından faydalanmaqla yanaşı "xalq diplomatiyası"na da üstünük verməyə başlayıb. Ermənistan hakimiyyətinin qatı tənqidçilərinin noyabrın əvvəllərində Bakıda konfransa dəvət edilmələri də bu siyasətlə bağlı idi. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 30 səhifəlik yazısında bu yanaşmaya geniş yer verildi.

Məqalədə əsas tezislər bunlar idi:

- *"İki dövlətin xalqlarının nümayəndələri münaqişənin real mənbələrini açıq şəkildə və "yerlərdə" müzakirə edərək ümumi məxrəcə gələ, birgə nəticələrə nail ola bilərlər…";*

- *"Azərbaycan və Ermənistan nümayəndələri arasında ən müxtəlif səviyyələrdə, o cümlədən sülhün bərqərar olması üçün mühüm hüquqi məkan olan xalq diplomatiyası formatında əlaqələrin intensivləşdirilməsi xüsusilə dəyərlidir…";*

- *"erməni sosiumunda bəzi adamlar aydın başa düşürlər ki, Azərbaycan onların düşməni deyil…";*

- *"Azərbaycan xalqı həmişə öz qonaqpərvərliyi ilə fərqlənib, kin saxlamayıb və dostluq etməyi bacarıb. Erməni fəallarının Bakıya səfəri bunu növbəti dəfə sübut etdi".*

Ramiz Mehdiyevin bu tezislərindən gəlinən əsas qənaət bu idi ki, Prezident Administrasiyasnın rəhbəri "xalq diplomatiyasının" tərəfdarıdır və münaqişənin sülh yolu ilə həllinə inanır. Çünki geniş həcmli məqalədə "sülh" ifadəsinin sayı "müharibə" ifadəsinin sayından dəfələrlə çox idi. Ümumiyyətlə, məqalənin əsasını erməni ictimai fəalların Bakıya gəlişləri və onların Azərbaycan paytaxtında iştirak etdikləri konfransın tezislərindən ibarət idi. Məqalənin az qala üçdə bir hissəsini Bakıya gələn ermənilərin müxtəlif açıqlamaları təşkil edirdi.

*"Noyabrın 8-də keçirilən konfrans bir daha sübut etdi ki, Azərbaycan və erməni xalqları qarşılıqlı anlaşmaya çalışır"* – bu da Ramiz Mehdiyevin cümləsidir. Bu məqalədən gəlinən digər nəticə isə bundan ibarətdir ki, ermənilərin Bakıya dəvət olunub sülhpərvər açıqlamalar verməsi elə Ramiz Mehdiyevin ideyasıdır. Yaxşı ideyadır. Sadəcə, bu ideya Dağlıq Qarabağ münaqişəsinin həllini nə dərəcədə sürətləndirəcək - əsas sual budur!

Bu arada, **"Ermənistanla Azərbaycan arasında sülh naminə Platforma"**nın yaradıldığı bildirildi. Ermənistan tərəfdən platformanın yaradılması ilə bağlı birgə bəyanatı imzalamış şəxslər elə Bakıdakı konfransda iştirak edənlər idi. Bəyanatda əsas fikir bundan ibarət idi ki, Azərbaycan və Ermənistan bir-birlərinin ərazi bütövlüklərini tanımaqla Dağlıq Qarabağ müanqişəsinin sülh yolu ilə həllini sürətləndirməlidirlər. Ayrıca, sənəddə işğal altındakı torpaqların boşaldılması, qaçqınların geri qayıtması və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın statusunun müəyyənləşməsi hüququ vurğulanır. "Sülh platforması" hər iki ölkədən ictimai fəalların qoşulması üçün açıqdır.

Beləliklə, bu platformanın yaradılması Azərbaycanın uğuru sayıla bilər. Çünki platforma və orada qeyd olunan bəndlər Ermənistan cəmiyyətində Azərbaycanın ərazi bütövlüyünü qəbul edən insanların varlığını göstərir. Önəmli olan Ermənistanda Dağlıq Qarabağın Azərbaycana aid olduğunu qəbul edən insanların sayının artmasına nail olmaqdır ki, onlar bu ətrafda fikir mübadiləsini genişləndirməklə öz cəmiyyətlərinə təsir edə bilsinlər. Bu bir ağıl oyunudur və bu oyunda da Bakı İrəvandan irəlidə olmaq istəyir.

## Levon Ter-Petrosyanın da "Sülh Plaftorması" var

Aprel savaşı cəmi 4 gün davam etdi, ancaq bu müddət kifayət etdi ki, Ermənistan cəmiyyətində ciddi müzakirələr başlasın.

**Birinci hadisə** azərbaycanlı və erməni fəalların birgə təsis etdikləri "sülh platforması" oldu. Bu platforma çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın Azərbaycana aid olduğunu bildirən ermənilərin sayı tədricən artır.

**İkinci hadisə** Ermənistanın eks-prezident Levon Ter-Petrosyanın 17 dekabrda lideri olduğu Ermənistan Milli Konqresinin qurultayındakı çıxışıdır. Bu çıxış da sensasiya əhəmiyyətlidir.

Levon Ter-Petrosyanın ağır xəstə olduğu və aylardır müalicə aldığı haqqında xəbərlər dolaşırdı. Buna baxmayaraq, Levon Ter-Petrosyan qurultayda tərəfdarları qarşısında uzun nitq söylədi. Bu nitqdəki əsas tezislərin səbəbi də elə aprel savaşının nəticələriylə əlaqəlidir.

Levon Ter-Petrosyan Ermənistanın prezidenti olub və məhz onun ölkəsinə rəhbərlik etdiyi müddətdə Azərbaycan torpaqları işğal olunub, Xocalı soyqırımı baş verib. Levon Ter-Petrosyan bu cinayətləri birbaşa həyata keçirənləri, planlayanları Dağlıq Qarabağdan Ermənistanda yüksək vəzifələrə gətirib. Demək, indiki vəziyyətə görə o da məsuliyyət daşıyır.

Buna baxmayaraq, Levon Ter-Petrosyan o illərdə "qələbə eyforiyası" içində olmaq əvəzinə Azərbaycan torpaqlarının işğalının və qonşusu ilə düşmənçilyin Ermənistana və Dağlıq

Qarabağa yaxşı heç nə vəd etmədiyini ilk anlayanlardandır. Ancaq o bunu anladıqda artıq gec idi, baş separatçılar Robert Köçəryan və Serj Sərkisyan artıq Ermənistandakı bütün güc strukturlarına nəzarət edirdilər və onlar imkan vermədilər ki, Levon Ter-Petrosyan Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirən "mərhələli həll" planına imza atsın. Onlar Levon Ter-Petrosyanı devirdilər və eks-prezidentin dövlət başçısı kürsüsündə son sözü bu oldu: "Vaxt gələcək mənim imzalamaq istədiyim sənəddən də ağır şərtlərə razılaşmaq məcburiyyətində qalacaqsınız".

Levon Ter-Petrosyan 18 ildən sonra proqnozunun doğrulduğunu qurultaydakı bu cümləsi ilə təsdiq etdi: "Ötən 18 ildə vəziyyət daha da ağırlaşıb". Levon Ter-Petrosyan haqlı çıxdı. Ermənistan sürətlə kasıblaşır, ölkə əhalisi, o cümlədən Dağlıq Qarabağ səfalət içindədir, erməni gənclər Dağlıq Qarabağ uğrunda ölmək istəmirlər.

Levon Ter-Petrosyanın daha bir tənqid obyekti hakimiyyətin erməni lobbisinin dəstəyinə və ianələrinə bel bağlamasıdır. Eks-prezidentin "1990-cı il savaşlarında cəmi 12 diaspora nümayəndəsi iştirak etmişdi" fikri isə ifşaedici mahiyyət daşıyır. Erməni lobbisi indi də Ermənistana heç nə ilə kömək etmir. Çünki pullarını havaya sovurmaq istəmirlər. Levon Ter-Petrosyan və digər müxalifət təmsilçiləri Ermənistanın ən böyük bəlası kimi korrupsiyanı göstərirlər. Aydındır ki, daima bu cür xəbərləri oxuyan erməni lobbisinin təmsilçiləri Serj Sərkisyana pul verməyəcəklər.

Levon Ter-Petrosyanın hakimiyyətə qarşı işlətdiyi digər əsas arqument ölkə əhalisinin sürətlə azalmasıdır. Heç Levon Ter-Petrosyanın hakimiyyəti, həmçinin müharibənin illərlə davam etdiyi dövrdə Ermənistanda demoqrafik vəziyyət bu qədər ağır deyildi. İndi isə bu Ermənistan hakimiyyəti üçün həllolunmaz problemə çevrilib. Məhz bu arqumentdən çıxış edən Levon Ter-Petrosyan Azərbaycanla sülh əldə edilməyənə qədər Ermənistanı və Dağlıq Qarabağı ağır həyat gözlədiyini vurğulayıb.

Ümumiyyətlə, Ermənistanın eks-prezidenti çıxışının müxtəlif hissələrində Azərbaycanla və Türkiyə ilə barışmağın vacibliyinin Ermənistan üçün həyati əhəmiyyətli olduğuna bir neçə dəfə işarə edib. Çünki Levon Ter-Petrosyan anlayır ki, Azərbaycanın və Türkiyənin Ermənistanı blokadada saxlamasının, bütün regional layihələrdən təcrid etməsinin, üstəgəl, Azərbaycanın silahlanmasının sonu ölkəsi üçün yaxşı olmayacaq.

Maraqlıdır ki, Levon Ter-Petrosyan çıxışının bir neçə yerində həm Azərbaycan və dövlət başçısı İlham Əliyev haqqında müsbət epitetlər işlədib. Erməni xalqı kimi Azərbaycan xalqının da indiki vəziyyətdən əziyyət çəkdiyini deyən Levon Ter-Petrosyan İlham Əliyevi rasional düşünən lider adlandırıb. Başqa sözlə, Ermənistanın keçmiş dövlət başçısı öz ölkəsinin deyil, müharibə vəziyyətində olduğu ölkənin liderinin daha məntiqli və məsələlərə rasional yanaşdığını düşünür. Bu isə dolayısı ilə o deməkdir ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə də rasional yanaşan elə İlham Əliyevdir. Levon Ter-Petrosyanın İlham Əliyev haqqında dediklərindən məhz bu qənaətə gəlmək olar. Hər ikisi Dağlıq Qarabağ münaqişənin mərhələli həllinə üstünlük verir.

Levon Ter-Petrosyanın çıxışında İlham Əliyevin adını çəkmədən Azərbaycan prezidentinin bir neçə fikrini təsdiq edən məqam da az deyil. Məsələn, İlham Əliyev rayonlardan birinə səfər zamanı demişdi ki, Ermənistanı taqətdən salmaq üçün Azərbaycan silahlanacaq və düşmənə müxtəlif istiqamətlərdə təzyiqini artıracaq. Levon Ter-Petrosyan da çıxışında deyib ki, müharibənin özü yox, hətta bu barədə söhbətlər belə Ermənistan əhalisinin azalmasına və gənclərin ölkəni sürətlə tərk etməsinə yol açıb və bu proses getdikcə artır. Levon Ter-Petrosyanın daha bir fikri bundan ibarətdir ki, demoqrafik vəziyyət elə bir acınacaqlı hal ala bilər ki, Ermənistan və Qarabağdan heç nə qalmayacaq və problem öz-özünə həll olunacaq. Bu da faktiki İlham Əliyevin "münaqişənin həlliylə bağlı zaman Azərbaycanın xeyrinə işləyir" yanaşmasının təsdiqidir.

Levon Ter-Petrosyanın çıxışında ziddiyət də özünü biruzə verirdi. Məsələn, onun çıxışı bir tərəfdən aprel savaşının Ermənistan cəmiyyətini daha çox deqradasiyaya uğratması kimi anlaşılırsa, digər tərəfdən, eks-prezident deyir ki, Azərbaycan müharibəyə başlasa, erməni cəmiyyəti yenidən birləşəcək və Azərbaycanı daha böyük itkilərə məruz qoyacaq.

Görünür, bu sözlər erməni auditoriyasını sakitləşdirmək üçün deyilib. Levon Ter-Petrosyan öz çıxışı ilə erməni cəmiyyətində belə qənaətin yaranmasını istəmir ki, o nəyin naminə olursa-olsun barışın tərəfdarıdır. Əslində isə Levon Ter-Petrosyanın çıxışının əksər hissəsinin leytmotivi bundan ibarət idi ki, Ermənistan Azərbaycan və Türkiyə ilə barışmasa, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı özünün də vaxtilə razılaşdığı "mərhələli həll" planını qəbul etməsə, Ermənistanı və Dağlıq Qarabağı faciəvi sonluq gözləyir. Azərbaycan da təzyiq yolu ilə Ermənistan hakimiyyətinə məhz bunu anlatmağa çalışır. Levon Ter-Petrosyanın çıxışının sonu da bu şüar üzərində köklənib: "Sülh, barışıq, mehriban qonşuluq".

## KTMT Ermənistanı qoruya bilməyəcək

2016-cı ilin bitməsinə 2 gün qalmış Azərbaycan – Ermənistan sərhədində baş verən silahlı insident və tərəflərin itki verməsi 2017-ci ilin də ağır keçəcəyinin və lokal toqquşmaların baş verməsi ehtimalının yüksək olacağının işarəsiydi. Son insidentdə Ermənistan 3 hərbçisinin, Azərbaycan isə bir hərbi qulluqçusunun itkin düşdüyünü bəyan etdi. Adətən, Dağlıq Qarabağ istiqamətində hərbi toqquşmalar olanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibindən və ya katibliyindən açıqlama yayınlanmır. Çünki Ermənistan bu qurumun üzvü olsa da, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan dövlətlər Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır və ona görə də bu istiqamətdə gedən lokal toqquşmalara qarşı çıxa bilmir, yalnız narahatlıq ifadə edilir. Aprel döyüşləri zamanı da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı katibliyi fəallıq nümayiş etdirməməklə birbaşa Ermənistanı müdafiə edə bilmədi.

Dekabrın 29-da baş verən insident isə Ermənistan – Azərbaycan sərhədində və Dağlıq Qarabağdan uzaq məsafədə baş verdiyindən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibi, rusiyalı diplomat Nikolay Bordyuja anında açıqlama yayaraq, baş verən insidentə görə faktiki Azərbaycanı günahkar saydı.

**Birincisi,** Bordyuja açıqlamasında Azərbaycanın adını çəkməsə də, dedi ki, "hadisə Ermənistan ərazisində baş verib və bu təxribatdır".

**İkincisi,** Bordyuja qısa açıqlamasında "Dağlıq Qarabağ Respublikası" ifadəsi işlədib. Halbuki, əvvəlki açıqlamalarda daha korrekt – "tanınmayan Dağlıq Qarabağ Respublikası" ifadəsi işlədilirdi.

Nikolay Bordyujanın bu açıqlamasına qarşı Azərbaycan Xarici İşlər Nazirliyi bəyanatla çıxış etdi və baş katibin mövqeyi tənqid olundu. XİN-in bəyanatında belə bir cümlə var idi: *"Ermənistan KTMT-nin sonuncu Sankt-Peterburq zirvə görüşündən sonra növbəti məyusluğa uğrayaraq, belə bir növbəti təxribata əl atması istisna edilməməlidir".*

Həqiqətən Ermənistan – Azərbaycan sərhədində baş verən son hadisə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yararsız qurum olduğunun və öz üzvünü müdafiə etmədiyinin göstəricisi idi. Çünki əgər rəsmi İrəvanın və baş katib Nikolay Bordyujanın iddia etdikləri kimi Azərbaycanın kəşfiyyat qrupu Ermənistan ərazisində əməliyyat keçiribsə, onda niyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı öz üzvünü qoruya bilmir? Axı təşkilatın nizamnaməsinə görə, üzv dövlətlərdən hər hansı birinə hücum olarsa, digər üzv dövlətlər ona hərbi dəstək verməlidirlər. Bu nizamnamədə belədir, reallıq isə fərqlidir. KTMT-nin öz üzvünü birgə qoruması üçün mexanizmi yoxdur. Digər tərəfdən, təşkilatın 2 üzvü – Qazaxıstan və Belarus Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Belə olmasaydı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordyuja deyil, Ermənistan təmsilçisi olmalı idi. Məsələ burasındadır ki, oktyabr ayında rotasiya prinsipi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına Ermənistan təmsilçisi baş katib seçilməli idi. Qazaxıstan prezidenti Nursultan Nazarbayev "xəstəliyi" ilə əlaqədar İrəvana getmədi, nəticədə təşkilat baş katib seçkisini dekabr ayındakı zirvə toplantısına təxirə saldı. Təşkilatın liderlərinin dekabrın 26-da Sankt-Peterburqda keçirilən zirvə toplantısına isə Belarus prezidenti Aleksandr Lukaşenko getmədi. Ermənistan prezidenti Serj Sərkisyan budəfəki toplantıdan da əliboş qayıtdı. Baş katibin seçilməsi aprel ayındakı toplantıya qədər təxirə salındı. Ermənistan siyasətçiləri və eskpertləri açıq etiraf edirlər ki, Qazaxıstan və Belarus təşkilatda Ermənistanın müttəfiqləri sayılsa da, bu, sözdə belədir, əməldə isə həm Astana, həm də Minsk Azərbaycanın real müttəfiqidir və buna görə də Ermənistan vətəndaşının təşkilata baş katib seçilməsinə mane olurlar. Bəli, bu belədir. İstisna deyil ki, aprel toplantısına da Qırğızıstan prezidenti qatılmasın və baş katibin seçilməsi yenə ləngisin. Kreml də nəhayət anlamalıdır ki, Rusiyanın müttəfiqləri belə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini istəyirlər. Yəni Rusiyanın işğalçı Ermənistanı himayə etməsi tək bizim xoşumuza gəlmir, müttəfiqləri də Kremlin bu siyasətindən narazıdırlar. Bütün hallarda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanı qoruya bilməyəcək.

## Respondentlər nə deyir?

"Atlas" Araşdırmalar Mərkəzinin 2016-cı ilin sonunda Dağlıq Qarabağ mövzusunda 500 respondent arasında keçirdiyi sorğunun nəticələri belə idi:

**"2017-ci ildə sülh danışıqlarından irəliləyiş gözləyirsinizmi"** sualına respondentlərin **92%-i** "xeyr", **8%-i** "bəli" cavabını verib. Ötənilki sorğuda eyni suala respondentlərin **86%-i** "xeyr", **14%-i** "bəli" cavabını vermişdi.

Bu nəticə vətəndaşların sülh danışıqlarına inamının ilbəil azaldığını göstərir. 2016-ci ildə bütün yüksək səviyyəli danışıqların nəticəsiz qalması da bunun əyani sübutudur.

Ötən il "2016-cı ildə müharibə başlaya bilərmi" sualına respondentlərin **56 %-i** "müharibə mümkündür", **23 %-i** "müharibə ehtimalı azdır" cavabını vermiş, **21 %-i** isə cavab verməkdə çətinlik çəkdiyini söyləmişdi. 1 il sonra keçirilən sorğunun nəticəsinə görə isə cavablardakı nisbət xeyli dəyişib. **"2017-cı ildə müharibə başlaya bilərmi"** sualına bu dəfə respondentlərin **82%**-i "müharibə mümkündür", **11%-i** "müharibə ehtimalı azdır" cavabını verib. Cəmi **7%** suala cavab verməkdə çətinlik çəkib.

Böyük ehtimalla bir il ərzində cavabda nisbətin dəyişməsi 2016-cı ilin aprelindəki 4 günlük savaşla  əlaqəlidir. Digər tərəfdən, böyük dövlətlərin il ərzində Ermənistan hakimiyyətinə təzyiq etməməsi amili də müharibə ehtimalının artması cavabına təsir göstərib.

**"Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Ermənistan hakimiyyətinə təsir imkanlarını necə qiymətləndirirsiniz"** sualına respondentlərin cavabları belə olub: "Təsir imkanları böyükdür" – **95%**, "təsir imkanları yoxdur və ya azdır" – **5%**.

Cavabdakı fərqin böyük olması Ermənistanın 2016-cı il ərzində Rusiyadan siyasi və hərbi nöqteyi-nəzərdən asılılığının daha da artması ilə bağlıdır. Bu cavab həm də Azərbaycan vətəndaşlarının münaqişənin həllində Rusiyanın kifayət qədər böyük imkanlara malik olduğuna inandığını göstərir.

**"Münaqişənin ədalətli həllini hansı amil sürətləndirəcək"** sualına verilən cavablar bunlardır: "Azərbaycan güc tətbiq edəcəyi halda" **(72%)**, "Ermənistan mərhələli həll" planını qəbul edəcəyi halda" **(16%)** və "Rusiya Ermənistana təzyiq edəcəyi halda" **(12%)**.

## Lavrov "mərhələli həll" planının əleyhinədir

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun 2017-c ilin yanvarın 17-də ilin yekunlarına dair Moskvada keçirdiyi mətbuat konfransında Qarabağla dediyi bütün fikirlər Azərbaycanın maraqlarına zidd idi.

**Birincisi,** Lavrov dedi ki, Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi şərti və işğal olunmuş ərazilərin sülh yolu ilə azad olunması tələbi hər zaman qüvvədə qalır. Başqa sözlə, Lavrov demək istəyib ki, Dağlıq Qarabağın statusu bəlli olmalı və Azərbaycan müharibəyə başlamayacağı təminatını verməlidir ki, Ermənistan işğal altındakı torpaqları

boşaltsın. Lavrovun münaqişənin həllinə bu cür yanaşması Dağlıq Qarabağın "müstəqilliyinə" yol açır. Lavrov faktiki rəsmi İrəvanın tələbini təkrarlayıb və İrəvanın çox çalışdığı "paket həll" variantını dəstəkləyib.

**İkincisi,** Lavrov yenidən cəbhə bölgəsində insidentlərin araşdırılması mexanizminin işə düşməsi və təmas xəttində ATƏT müşahidəçilərinin artırılması barədə razılıqdan danışdı. O dedi ki, 2011-ci ildə də insidentlərin araşdırılması məsələsi Həştərxan görüşündə müzakirə edilib. Ona qalsa, Həştərxan razılaşmasına görə, Ermənistan öldürülən Azərbaycan hərbçisinin nəşini çoxdan Azərbaycana qaytarmalıydı. Ancaq Lavrov bu barədə mətbuat konfransında heç nə deməyib. Bir neçə gün əvvəl bu mövzuda Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarovaya sual verdikdə, o, hərbçinin nəşinin geri qaytarılması məsələsinə münasibət bildirməmiş, mücərrəd cümlələr işlətmişdi.

**Üçüncüsü,** Sergey Lavrov mətbuat konfransında dedi ki, Dağlıq Qarabağ münaqişəsi sırf Azərbaycanın daxili işlərinə aid bir mövzu deyil. Yəni Lavrov demək istəyib ki, Azərbaycan öz məsələsini özü həll edə bilməz, "başqa" dövlətlərin də maraqlarını nəzərə almalıdır. Yəni vaxtilə Rusiyanın Çeçenistanı silah yolu ilə ram etməsinə ixtiyarı var idi, Azərbaycanın isə Dağlıq Qarabağı ram etməsinə hüququ yoxdur.

**Dördüncüsü,** Sergey Lavrov Dağlıq Qarabağa qeyri-qanuni səfər edən bloger Aleksandr Lapşini bu sözlərlə müdafiə etdi: *"Biz istənilən jurnalist və şəxsin dünyanın istənilən yerində hər hansı yeri ziyarət etməsinin kriminallaşdırılmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin əleyhinəyik".* Məlumdur ki, Azərbaycan bu şəxsə qarşı cinayət işi açıb və həmin şəxs Belarus ərazisində saxlanılıb. Həmin bloger 2015-ci ildə Ukrayna pasportu ilə Azərbaycan ərazisinə Gürcüstandan keçib. Pasportda Aleksandr adı Ukrayna dilinə uyğun Oleksandr yazıldığı üçün Lapşin Azərbaycana maneəsiz daxil ola bilib. Azərbaycan tərəfi "Dövlət sərhədinin pozulması haqqında" qanunu pozduğu üçün blogeri beynəlxalq axtarışa verib. Ancaq indi Rusiyanın xarici işlər naziri deyir ki, Moskva bütün tədbirləri görəcək ki, Lapşinin məsələsi həll olunsun, yəni Azərbaycana ekstradisiya edilməsin. Lavrov ekstradisiyaya mane ola bilmədi, həmin şəxs Bakıdadır, məhkəməsinə hazırlıq gedir.

Rəsmi Bakı adətən Moskva ilə sərt polemikadan çəkinir. Rusiya silah almaq üçün Ermənistana 200 milyon dollar kredit verdi, üstəlik, işğalçı ölkənin ərazisində "İsgəndər" raketlərini yerləşdirdi. Birinci halda Azərbaycan XİN nota verdi, ikinci məsələyə isə toxunmadı. Halbuki, Rusiyanın Ermənistanda "İsgəndər" raketlərinin yerləşdirməkdə məqsədi bölgədə hərbi balansın Azərbaycanın xeyrinə dəyişməsinə mane olmaq idi.

Bu dəfə Sergey Lavrovun açıqlamalarına reaksiya verildi. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Lavrovun dediklərinə bu şəkildə cavab verdi ki, əgər Rusiya bütün ciddiliyi ilə Qarabağ problemi ilə məşğul olarsa, status-kvo dəyişəcək, regionda sabitlik təmin olunacaq və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunacaq. Məmmədyarovun bu açıqlamasını belə də oxumaq olar: "Moskva bu məsələ ilə məşğul olmadığına görə status-kvo dəyişmir". Elmar Məmmədyarov Azərbaycan qanunlarını pozan blogerlə bağlı isə bunları dedi: *"Rusiyaya qarşı eyni*

*hərəkətləri törətmiş və onun sərhədlərini qanunsuz keçmiş şəxsə münasibətdə də Rusiyanın hüquq-mühafizə orqanları eyni addımları atardılar".*

Beləliklə, Lavrovun açıqlamaları Bakı ilə Moskva arasında söz duelinə yol açdı. Rusiyada xarici siyasət prioritetlərini prezident müəyyənləşdirir. Lavrov nə qədər ermənipərəst olsa da Qarabağ məsələsində prezident Vladimir Putindən fərqli siyasət həyata keçirə bilməz. Demək, Lavrovun Dağlıq Qarabağ münaqişəsinin həllinə baxışını Putin də bölüşür ki, Rusiyanın xarici işlər naziri Ermənistanı müdafiə edir.

Moskva Qarabağ məsələsində Ermənistanın mövqeyini müdafiə etməsinə baxmayaraq, Azərbaycana silah satmaqda davam edir. İlham Əliyev Davosda çıxışı zamanı dedi ki, Bakı yeni silahların alınması ilə bağlı Moskva ilə danışıqlar aparır. İlham Əliyev onu da qeyd etdi ki, Rusiya ilə Azərbaycan arasında müdafiə sahəsində yeni müqavilələrin imzalanması üçün yaxşı perspektivlər var.

## Ermənistanın boşalmasını sürətləndirən iki səbəb

Erməni saytlarından biri Ermənistanın demoqrafik vəziyyəti ilə bağlı maraqlı statistika açıqladı. 2016-cı ilin avqust və sentyabr ayında Ermənistandan Avropaya köçənlərin sayı 9 ilin ən yüksək göstəricisidir. Əgər 2008-ci ildə hər ay Ermənistandan Avropa ölkələrinə köçənlərin sayı 385 nəfər idisə, keçən ilin avqust ayında 1110, sentyabr ayında isə 1185 nəfər ölkəni tərk edib. Köçənlərin əksəriyyəti 18-34 yaşlarında olan gənclərdir. Ən maraqlısı odur ki, ötən il bir qrup silahlının İrəvan yaxınlığında polis məntəqəsini ələ keçirməsi hadisəsi köçün artmasına səbəb olub.

Serj Sərkisyanın hakimiyyətdə olduğu 2008-2015-ci illər arasında Ermənistanı 300 minə yaxın insan tərk edib. Keçmiş prezident Robert Köçəryanın prezident olduğu 1998-2008-ci illərdə isə Ermənistanı 135 min insan tərk etmişdi. Bu rəqəmlər onu göstərir ki, Köçəryanla müqayidəsə Sərkisyanın hakimiyyəti dövründə Ermənistanı tərk edənlərin sayı iki dəfə artıb.

Ermənistan vətəndaşlarını ölkələrini tərk etməyə iki başlıca səbəb vadar edir:

**Birinci səbəb** ağırlaşan iqtisadi və sosial durumdur. İnsanlar yaxın gələcəkdə vəziyyətin yaxşılığa doğru dəyişəcəyinə inanmırlar. Bunun üçün resurs yoxdur. Ermənilər inandıqları və etibar etdikləri hakimiyyəti formalaşdırsalar belə, həmin hakimiyyət əlindəki resursla vətəndaşlarının həyatını müsbətə doğru dəyişə bilməyəcək.

**İkinci səbəb** isə cəbhə bölgəsindəki ağır vəziyyətdir. Ermənistanla Azərbaycan arasında sülh olmadığına görə Dağlıq Qarabağ ətrafında vəziyyət gərgin olaraq qalacaq, Ermənistan ordusu hər gün itki verir. Müharibə və lokal toqquşmalar ehtimalı yüksəkdir. Ona görə də erməni gənclər Ermənistandan kənarda – Dağlıq Qarabağda ölmək perspektivindənsə, ölkəni tərk etməyə üstünlük verirlər.

Bu iki səbəb Azərbaycanı işğalçı Ermənistana qarşı təzyiqi artırmağa həvəsləndirir.

## Cocuq Mərcanlıya qayıdış

“Gallup International” tərəfindən aparılan sorğunun nəticəsinə görə, Azərbaycan vətəndaşlarının 85 faizi öz vətəni uğrunda döyüşməyə hazırdır. Sorğu dünyanın 64 ölkəsində keçirilib. Sorğuya hər ölkədən 1000 nəfər cəlb edilib. Müqayisə üşün deyək ki, Ermənistanda 72 faiz öz ölkəsi üçün döyüşməyə hazırdır. Əgər sual belə qoyulsaydı ki, nə qədər Ermənistan vətəndaşı Dağlıq Qarabağ uğrunda döyüşməyə hazırdır, nəticə daha aşağı rəqəmlə ifadə olunardı.

Bu arada rəsmi Bakının Cocuq Mərcanlı kəndiylə bağlı siyasəti Ermənistan hakimiyyətini narahat etməyə bilməz. Çünki Ermənistan hakimiyyətindən anlayırlar ki, Azərbaycan Cocuq Mərcanlıyla kifayətlənən deyil, bunun ardı da gələcək.

**Cocuq Mərcanlı** işğal altında olan Cəbrayıl rayonunun kəndidir. 1993-cu ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan kənd bir il sonra Azərbaycan ordusunun hücumu ilə azad olundu. Buna baxmayaraq, kəndin ətrafındakı yüksəkliklər erməni silahlı qruplarının nəzarətində olduğundan əhali kəndi tərk etmək məcburiyyətində qaldı. 2016-ci ilin aprel döyüşlər zamanı Azərbaycan ordusu Lələtəpə strateji yüksəkliyini geri aldı. Bunun nəticəsində prezident İlham Əliyev fərman verərək Cocuq Mərcanlı kəndinin yenidən qurulması, evlərin inşası və infrastrukturun yaradılması üçün 4 milyon manat ayırdı. Bütün bu işlər yekunlaşdıqdan sonra əhalinin kəndə qaydışı mümkün olacaq. Kənd və ətraf ərazilər minalardan təmizlənib.

Əhalinin Cocuq Mərcanlıya geri dönməsi perspektivi Azərbaycanda böyük ruh yüksəkliyi yaratdı. Çünki bu, Dağlıq Qarabağ və ətraf rayonların işğalda olduğu 25 ildə ilk yaşayış məntəqəsidir ki, sakinləri geri qayıda biləcək. Bu, Azərbaycan hökumətinin işğal altındakı torpaqların yenidən qurulmasıyla bağlı hazırladığı “Böyük qayıdış” proqramının ilk addımı olacaq. Cocuq Mərcanlının yenidən quurlması Azərbaycan cəmiyyətində belə bir əhval-ruhiyyə yaradır ki, işğal altındakı digər ərazilərin də geri qaytarılması mümkündür.

## Separatçıların “referendumu” nəyə xidmət edir?

2017-ci ilin fevralın 20-də Dağlıq Qarabağda “referendum” keçirildi. Separatçılar “referendum” vasitəsilə “konstitusiyalarına” iki əsas dəyişiklik etdilər. Separatçıların yaydıqları şişirdilmiş rəqəmə görə, guya “referendumda” seçki hüququna malik 100 min nəfər iştirak edə bilərdi.

Birinci dəyişikliyə görə, “Dağlıq Qarabağ Respublikasının prezidentinin” səlahiyyətləri artırıldı. Buna qədər “Dağlıq Qarabağ Respublikası” yarı parlament, yarı prezident idarəetməsinə malik idi. Dağlıq Qarabağ separatçılarından fərqli olaraq, Ermənistan tam əks yolla gedir, orada parlamentin səlahiyyətləri artırılıb. Ermənistanda aprelin 2-də keçiriləcək parlament seçkilərindən sonra prezident səlahiyyətləri azalacaq, baş nazirin səlahiyyətləri artırılacaq.

**Sual olunur:** *Bəs onda Dağlıq Qarabağ separatçıları niyə "prezidentin" səlahiyyətlərini artırdılar?*

Dağlıq Qarabağ müharibə vəziyyətindədir. Görünür, belə vəziyyətdə separatçılar güclü ələ ehtiyac duyurlar. Onsuz da Dağlıq Qarabağda "müxalifət" yoxdur və parlament yuxarıdan idarə olunur. Buna baxmayaraq, separatçılar müharibənin başlayacağı halda səlahiyyətlərin bir əldə cəmləşməsini istəyirlər.

Separatçıların həyata keçirdikləri ikinci "dəyişikliyə" görə isə Dağlıq Qarabağın adını "Artsax"la əvəz etdilər. Separatçıların bu addımı onunla bağlıdır ki, Qarabağ ifadəsi türk mənşəlidir və bütün dünya, o cümlədən Ermənistan həmin bölgəni məhz Dağlıq Qarabağ kimi adlandırır. Dağlıq Qarabağ adı birbaşa Azərbaycanla bağlılığın ifadəsidir və ona görə də separatçılar öz düşüncələrində bu addan qurtulmaq istəyirlər. Bu da absurd qərardır. Çünki separatçıların və Ermənistanın bölgəni "Artsax" adlandırmasına baxmayaraq, bütün dünya bu bölgəni Dağlıq Qarabağ adlandırır və bütün sənədlərdə də bu addan istifadə olunur. Separatçılar adı dəyişdirməklə beynəlxalq aləm bölgəni "Artsax" adlandırmayacaq.

Ermənistan prezidenti Serj Sərkisyan Dağlıq Qarabağda "referedum" günü İrəvanda çıxış edərək dedi ki, "azərbaycanlılar Xankəndidə çay içmək istəyirdilər, bu çayı heç Ağdam və Kəlbəcərdə də içə bilmirlər".

Dağlıq Qarabağdakı "referendum" və Serj Sərkisyanın son "çay içməklə" bağlı açıqlaması onu göstərir ki, Ermənistan hakimiyyəti Azərbaycanla sülhdə maraqlı deyil. Ermənistan prezidentinin açıqlamaları və Dağlıq Qarabağda keçirilən "referendum" bölgədə hərbi toqquşma ehtimalını artırır. Bunun nətcəsidir ki, 2017-c ilin yanvar və fevral ayları ərzində də cəbhə bölgəsində vəziyyət gərgin olaraq qalır, hər iki tərəfdən itkilər var idi.

Erməni separatçılarının Dağlıq Qarabağda keçirdikləri "referendumu" özləri kimi separatçı bölgələrdən olan Abxaziya və Cənubi Osetiyadan izləyənlər tapıldı. Məsələn, onlardan biri Abxaziya "parlamentinin sədr yardıçmısı" Emma Qamisoniya idi. Abxaz separatçılarının nümayəndəsi Xankəndidə belə dedi: "Artsax əhalisi referendumda böyük həvəslə iştirak edir, məntəqələr dolub-daşır və bu, bizi çox sevindirir. Biz tarixi hadisənin şahidiyik, Artsaxın yeni konstitusiyası insan haqlarının qorunmasına (?!) böyük töhfədir".

Separatçılar arasında əlaqələr sıxdır. Ancaq bunu o separatçı qurumun nümayəndəsi dedi ki, ərazisi tamamən Rusiyanın siyasi, iqtisadi və hərbi nəzarəti altındadır. Rusiya Abxaziya və Cənubi Osetiyanı öz əlavəsinə çevirib, bu iki bölgədə qoşun birlikləri yerləşdirib, hələ prezident Vladimir Putinin müşavirlərindən biri tamamən bu iki bölgənin nəzarətinə məsuldur. Əgər Kreml istəsəydi, əlinin altındakı separatçıların nümayəndələrinə deyərdi ki, "Dağlıq Qarabağdakı referendumu izləməyiniz məsləhət deyil, ora getməyin". Deməyib, tam əksinə, onların Dağlıq Qarabağa getmələrinə yaşıl işıq yandırıb. Dağlıq Qarabağdakı "referendumu" izləyən müşahidəçilərin əksəriyyətini abxaz və osetin separatçılarının təşkil etməsi Rusiyanın özünün də bu "referenduma" marağından irəli gəlir, məqsəd Azərbaycanı Ermənistan kimi vassal etməkdir.

Ermənistan prezidenti Serj Sərkisyan fevralın 20-də sədri olduğu Respublika Partiyasının tədbirində iki maraqlı fikir söylədi. Serj Sərkisyan **birinci cümləsində** bunu dedi: *"Ermənistanda elələri var ki, Dağlıq Qarabağ probleminin həll olunmamasının və Türkiyə tərəfdən blokadanın ölkəmizi uçuruma apardığını düşünür. Bu zərərli fikirdir".* Ermənistan prezidenti **ikinci cümləsində** isə bunu dedi: *"Bizim Azərbaycanla silah yarışında iştirak etməyə ehtiyacımız yoxdur".*

Beləliklə, Ermənistan prezidenti hər fikrində həqiqəti gizlədə bilmir. Birinci fikrin mənası budur ki, Dağlıq Qarabağ və ətraf rayonların işğalı Ermənistana baha başa gəlir. İkinci fikrin mənası isə odur ki, Azərbaycan silahlanmaqda davam edəcək və Ermənistan Azərbaycanla ayaqlaşa bilməyəcək.

Ermənistan hakimiyyəti Azərbaycan torpaqlarını işğal altında saxlayarkən, vacib faktoru diqqətə almır. Ermənistanla Dağlıq Qarabağın birlikdə təxminən 3 milyon əhalisi var. Bəs Ermənistanın və Dağlıq Qarabağın ətrafında vəziyyət necədir? Azərbaycanda 10 milyon, İranda 30 milyon, Türkiyədə 60 milyon (20 milyonu Ermənistana fərqli baxışı səbəbindən siyahıdan kənar tuturam) və Gürcüstanda 500 min türk yaşayır. 3 milyonluq kiçik dövlətin ətrafındakı 100 milyonluq əhali ilə mübarizədə qalib çıxacağı mümkün deyil.

## Atəşkəs bitib

"Atəşkəsi kim pozur və kim pozdu" sualının aktuallığı getdikcə azalır. Hazırki vəziyyətdə atəşkəs daima pozualacaq. Çünki bölgədə şərtlər və Azərbaycanla Ermənistan arasında hərbi balans dəyişib.

Azərbaycan milyardlarla dollar həcmində silahları məhz ona görə alır ki, Dağlıq Qarabağdakı Ermənistan ordusuna təzyiqi artırsın. Ermənistan və Minsk qrupu həmsədrlərinin özləri də yaxşı anlayırlar ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmayana qədər müharibənin qarşısını almaq mümkün olmayacaq. Ancaq gələcək müharibənin baş verməməsi üçün nə Ermənistan hakimiyyəti Dağlıq Qarabağdakı rayonların azad olunmasını sürətləndirir, nə də həmsədr dövlətlər – ABŞ, Fransa və Rusiya rəsmi İrəvanı belə bir addım atmağa məcbur edir. Ermənistan hakimiyyəti razılaşma əsasında ilkin olaraq 2 rayonu azad etsə, bu, sülh yolunda ciddi irəliləyiş olar və cəbhə bölgəsində uzun müddətə sakitlik yaranardı. Ancaq rəsmi İrəvan bu addımı atmağa hazır deyil.

Ermənistan hakimiyyəti Dağlıq Qarabağ ətrafında işğal altında saxladığı rayonlardan şantaj məqsədilə istifadə edir. Şantaj bundan ibarətdir: "Azərbaycan əvvəlcə Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək referenduma razılaşsın, bundan sonra Ermənistan ordusu tədricən Dağlıq Qarabağ ətrafındakı rayonları boşalda bilər". Bu, münaqişənin "paket həll" variantıdır ki, rəsmi Bakı bu prinsipi heç zaman qəbul etməyəcək. Çünki, statusu müəyyənləşdirəcək referenduma bəri başdan razılaşmaq gələcəkdə Dağlıq Qarabağın müstəqilliyinə yol açacaq. Bakının "Dağlıq Qarabağ Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində özmüqəddəratını müəyyənləşdirən referendum keçirə bilər" prinsipini isə İrəvan qəbul etmir.

2017-c il fevralın 25-də cəbhə bölgəsində yenidən ciddi toqquşma qeydə alındı. Rəsmi məlumatlara görə, bu döyüşdə Azərbaycan 5 hərbçisini itirdi. Bu hadisədən bir gün sonra ATƏT-in Minsk qrupunun həmsədrləri cəbhə bögəsindəki gərgin vəziyyətlə bağlı bəyanat yaydılar. Bəyanatdakı bütün cümlələr əvvəlki bəyanatlarda olduğu kimi təkrarlanırdı. Sadəcə, bəyanatda bir cümlə fərqli idi: "Bəzi cəsədlər neytral zonada qalıb".

Eyni cümləni Ermənistandakı saytlar da yazdılar. Həmin saytlarda iki ölkə arasında informasiya müharibəsini əks etdirən belə bir sual da var idi "Əgər Azərbaycan hərbçiləri hücuma keçməyiblərsə, azərbaycanlı hərbçilərin cəsədləri necə olub ki, neytral zonada qalıb?"

Bu sualın cavabı budur ki, işğal davam etdikcə Ermənistanı və Dağlıq Qarabağı rahatlıq gözləmir. Doğrudur, son döyüşdə Azərbaycan ordusu itkiyə məruz qaldı. Ancaq Ermənistan hakimiyyəti onu da anlayır ki, Azərbaycan ordusu bu itkilərin əvəzini çıxacaq. Bu, müdafiə naziri Zakir Həsənovun "hər şəhid olan hərbçimizin əvəzinə qarşı tərəf onqat itki verəcək" konsepsiyasına uyğundur. Növbəti zərbəni Azərbaycan ordusu artıqlamasıyla vurdu.

Erməni saytlarının və həmsədrlərin yazdıqları "neytral zona" Azərbaycana məxsusdur və Dağlıq Qarabağa aidiyyatı olmayan ərazilərdir. Digər tərəfdən, həmsədrlərin "neytral zonadakı cəsədlər" ifadəsi ona işarədir ki, 25 fevralda atəşkəsi Azərbaycan ordusu pozub. Separatçıların və vasitəçilərin "neytral zona" adlandırdıqları ərazidə separatçılar artıq özlərini rahat hiss edə bilmirlər.

## Müharibədə Azərbaycana hansı dövlətlər dəstək verəcək?

Dağlıq Qarabağda müharibə başlasa, Azərbaycanın müttəfiqləri fəallaşacaqlar. Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanı Azərbaycana real dəstək verəcəklər. Bəzi fikirlər var ki, Ankara Moskva ilə yaxınlaşdığına görə Azərbaycana real dəstək verməyəcək. Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan nə qədər rusiyalı həmkarı Vladimir Putinlə dost münasibətlərə çalışsa da, iki dövlətin ortaq iqtisadi və enerji layihələri olsa da, Ankara Ermənistan – Rusiya ittifaqının Azərbaycana qarşı hərbi həmlələrini qəbul etməyəcək. Rəsmi Bakı Ankaraya hərbi əməkdaşlığı daha üst səviyyəyə qaldırmaq təklifini irəli sürsə, Ərdoğan bundan da imtina etməyəcək. Eləcə də Pakistan Azərbaycana hər cür hərbi dəstək verməyə hazırdır. Prezident İlham Əliyevin ötən həftə Pakistana səfəri çərçivəsində hərbi əməkdaşlığın genişləndirilməsi müzakirələri buna sübutdur. Pakistan ən müasir silahlarını, hərbi təyyarələrini Azərbaycana satacaq.

Azərbaycanla Ermənistan arasında müharibə başlayacağı təqdirdə Qərb Azərbaycana dəstək verməyəcək, ümumi bəyanatlar səslənəcək. Azərbaycana real dəstək islam aləminin bir hissəsindən gələcək. Təsadüfi deyil ki, 2017-ci ilin mart ayında Pakistanda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitində Azərbaycana yenə dəstək ifadə olundu. Əlbəttə, bunlar hamısı bəyanat formasındadır, ancaq müharibə başlayarsa, bu bəyanatların real dəstəyə çevriləcəyini gözləmək olar. İslam aləmin bir hissəsi sözdə, bir hissəsi isə əməldə Azərbaycana kömək edəcək.

İlham Əliyev xarici səfərlərini intensivləşdirərkən, Ermənistan prezidenti Serj Sərkisyan da kənara çıxaraq tərəfdar toplamağa çalışır. Serj Sərkisyan 2017-ci ilin mart ayında Brüsseldə səfərdə oldu. O, səfəri çərçivəsində Karnegi Mərkəzində çıxış etdi. Ermənistan prezidenti tədbirdə belə bir sual səsləndirdi: "Necə olur ki, BMT üzvü olmayan Kosovo ATƏT-lə əməkdaşlıq sayəsində dövlət institutlarını formalaşdırır, eyni hüquq isə Dağlıq Qarabağa verilmir?". Sərkisyan daha sonra dedi ki, Ermənistan Kosovonun müstəqilliyini tanımasa da, öz üzərinə ATƏT-də düşən maliyyələşdirmə vasitəsilə faktiki Kosovonun müstəqlliyi prosesində iştirak edir.

Görəsən, Ermənistanın Kosovonun müstəqilliyini tanımasına hansı faktor mane olur? Dağlıq Qarabağın "müstəqlliyinə" çalışan İrəvan nədən Kosovo ilə bağlı fərqli mövqe tutur, Serbiyanın ərazi bütövlüyünə hörmətlə yanaşır? Bu mənada Serbiyanın Azərbaycandan nə fərqi var?

Səbəbi sadədir, İrəvan Rusiyadan qorxur. Moskva birmənalı milli təəssübkeşlikdən çıxış edərək Serbiyanın ərazi bütövlüyünü dəstəkləyir, Kosovo adlı dövləti tanımır, onun təsiri altındakı Ermənistan da bu siyasətdən kənara çıxa bilmir. Ona görə də bir gün Kreml İrəvana bəyan etsə ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır, İrəvan buna da riayət etmək məcburiyyətində qalacaq. Sadəcə, Kremlin İrəvandan belə bir tələbi yoxdur.

Ermənistan hakimiyyəti özünün güclü olduğunu göstərməyə çalışarkən, Dağlıq Qarabağdan fərqli xəbərlər gəlir. Məsələn, 2017-ci ilin fevral ayındakı döyüşlərdən sonra Dağlıq Qarabağdakı hərbi qarnizonlarda həbslər olub. Bu xəbərləri erməni saytları da yazırlar. Həbs edilənlərdən ikisi yüksəkrütbəli zabitdir, ordu hissələrində ərzaq və təchizat məsələlərinə məsul idilər.

Göründüyü kimi, Dağlıq Qarabağda hərbi rejimin varlığına rəğmən, yüksəkrütbəli zabitlər əsgərlərin ərzağını kənarda satırlar. Ötən ilin aprel döyüşlərindən sonra Ermənistan ordusunda korrupsiya halları üzə çıxdı, işğalçı qoşunların sıravi hərbçiləri geyim və ərzaq sarıdan çətinlik çəkərkən, generalların İrəvan ətrafındakı villaları müzakirə predmeti oldu. Budəfəki döyüşlər isə Dağlıq Qarabağdakı işğalçı generalların oğurluğu ilə yadda qaldı. Bu o deməkdir ki, lokal toqquşmalar davam etdikcə, Ermənistan ordusunda başqa problemlər də üzə çıxacaq.

## Türkiyə Azərbaycanda hərbi baza yerləşdirə bilərmi?

Türkiyə Azərbaycanın strateji müttəfiqidir. Son illər bu müttəfiqlik daha da artıb və iki ölkə arasındakı münasibətlər tarixinin qızıl dövrünü yaşayır. Siyasi təmaslar yüksək səviyyədədir, Türkiyənin Azərbaycana, Azərbaycanın isə Türkiyəyə on milyardlarla dollar yatırımları var. Bakı – Tiflis – Ceyhan və Bakı – Tiflis – Ərzurum boru xətləri layihələrinə 2017-ci ilin sonu üçün  biri də əlavə olunacaq: Bakı – Tiflis – Qars dəmiryolu. Növbədə isə TAP və TANAP qaz boru xətlərinin tikintisidir. Türkiyə Azərbaycanla hərbi əməkdaşlığın miqyasını da genişləndirir. İl ərzində iki ölkə arasında 3-4 birgə hərbi təlimlər keçirilir.

Azərbaycanla Ermənistan arasında gərginliyin artması, cəbhə bölgəsindəki mövzud vəziyyət Ankaranı narahat edir. Ankara həmişə olduğu kimi Ermənistandan Azərbaycanın işğal altındakı torpaqlarını boşaltmasını tələb edir. Türkiyə Ermənistanın cəbhə bölgəsindəki təxribatlarına seyrçi qalmır, Ankaradan ard-arda açıqlamalar səslənir. Cəbhə bölgəsində

vəziyyət gərginləşən kimi Azərbaycanın siyasi dairələrində ənənəvi sual gündəmə gəlir: Azərbaycanla Türkiyə arasında mövcud hərbi əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmağa ehtiyac varmı? Çünki Ermənistan Rusiyanın hərbi dəstəyinə arxayındırsa, Azərbaycanın Türkiyənin hərbi dəstəyinə ehtiyacı yarana bilər. Bu mənada mümkün variantlardan biri Türkiyənin Naxçıvanda hərbi bazasını rəsmiləşdirməsidir. Əgər Türkiyə keçmiş SSRİ ilə 1921-ci ildə imzaladığı Qars müqaviləsinə görə Naxçıvanın təhlükəsizliyinə cavabdehdirsə, bunun real olaraq həyata keçirilməsi də mümkündür.

Azərbaycan müstəqil dövlətdir və Bakı Ankara ilə hərbi baza məsələsində razılaşsa, heç bir dövlət bu prosesə mane ola bilməz. Ermənistanın və onun dəstəkçisi Kremlin etirazları məntiqsiz olacaq. Bakının həm Moskvaya, həm də İrəvana ünvanlayacağı məntiqi sual belə olacaq: Rusiya Ermənistanda hərbi bazalarını yerləşdirə bilirsə və bu dövlətin təhlükəsizliyini təminatı altına alırsa, niyə Türkiyə ilə Azərbaycan eyni işi görə bilməz?

Bu suala nə Kremlin, nə də İrəvanın məntiqi cavabı ola bilər. Ona görə də Türkiyənin Azərbaycan ərazisində hərbi baza yaratması ideyası aktuallaşa bilər. Məsələ burasındadır ki, Azərbaycan ordusu Dağlıq Qarabağ istiqamətində uğur qazanarsa, Ermənistan hakimiyyəti Naxçıvan istiqamətində hərbi əməliyyatlar həyata keçirə bilər.

Türkiyə – Azərbaycan hərbi birliyinin rəsmiləşdirilməsi Ermənistan ətrafındakı halqanın daralmasına səbəb olacaq. Azərbaycan ordusu Ermənistan ərazisinə hücum etmir, özünə aid Dağlıq Qarabağı və ətraf rayonları işğalçılardan azad etmək istəmir. Buna heç Rusiya da qarışa bilmir. Eyni saziş Azərbaycanla Türkiyə arasında imzalanarsa, bu, Türkiyənin Dağlıq Qarabağ üzərindəki təhlükəsizliyinə də təminatçı anlamına gələcək. Bundan sonra Ankaranın hansı addımlar atacağı indidən bəlli olmasa da, o da aydındır ki, Ermənistan qarşısında Azərbaycan – Türkiyə hərbi ittifaqını görəcək.

Buna baxmayaraq, bəzi yerli ekspertlər Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın genişləndirilməsinin əleyhinə olduqlarını iki arqumentlə əsaslandırırlar. Onların birinci arqumenti odur ki, "Türkiyə Azərbaycanda hərbi baza yaratsa, Ermənistan Rusiyadan asılı olduğu kimi, Azərbaycan da Türkiyədən asılı vəziyyətə düşəcək". İkinci arqument isə Türkiyə ordusunda Fətullah Gülən tərəfdarlarının 2016-cı ilin iyul ayında gerçəkləşdirmək istədiyi hərbi çevriliş cəhdidir: "Gülən şəbəkəsi 30 il ərzində Türkiyə ordusunda möhkəmləndi və bir sıra generallar çevrilişə cəhd etdilər. Kim təminat verə bilər ki, onlar kimi generallar eyni fəaliyyəti Azərbaycan ərazisində həyata keçirməyəcəklər?"

Bu suallarda müəyyən məntiq var. Sadəcə, bu gün Azərbaycanın əsas diqqəti işğal altındakı rayonların azad edilməsinə yönəlib, bu, azərbaycanlıların milli ideyasına çevrilib. Əgər bu milli ideyanın həyata keçirilməsində Türkiyə Azərbaycana kömək edəcəksə, bundan istifadə etmək lazımdır, "sonra nə olacaq" sualı bu gün üçün aktual deyil. Ona qalsa, Amerikanın Yaponiya və bir sıra Avropa ölkəsində hərbi bazası var. Bu o demək deyil ki, Yaponiya, Polşa və ya Baltik ölkələri Vaşinqtondan asılıdır. Sadəcə, Vaşinqton Polşa və Baltik ölkələrində hərbi bazalarını ona görə yerləşdirib ki, Rusiya Gürcüstan və Ukraynada etdiklərini buralarda etməyi ağlına gətirməsin.

***Elxan Şahinoğlu*** *– siyasi analitik, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri. Kitabın müəllifi 1971-ci ildə Bakıda anadan olub, Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin məzunudur (1988-1993). SSRİ illərində tələbə hərəkatının fəal üzvlərindən olub. Tələbəlik illərində müxtəlif nəşrlərlə əməkdaşlıq edib. Universiteti bitirdikdən sonra Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunda analitik qrupun rəhbəri kimi fəaliyyətə başlayıb. 1994-2005-ci illərdə "Millət", "Azadlıq", "Gün səhər" qəzetlərində beynəlxalq əlaqələr və xarici siyasət şöbəsinin müdiri vəzifələrində, Türkiyənin "TRT" televiziyasının və "Anadolu" agentliyinin Bakıdakı bürolarında çalışıb. 2005-ci ildə "Atlas" Araşdırmalar Mərkəzini təsis edib. Bundan başqa, müstəqil yazar kimi fəaliyyət göstərir. Rəhbəri olduğu "Atlas" Araşdırmalar Mərkəzi regional təhlükəsizlik, o cümlədən Azərbaycanın yaxın qonşularla və beynəlxalq təşkilatlarla münasibətləri mövzularını tədqiq edir, ayrıca, Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə danışıqlar prosesinin monitorinqini aparır. "Aprel ataş(kəs)i" müəllifin üçüncü, Dağlıq Qarabağ mövzusunda isə ikinci kitabıdır. O, "Dağlıq Qarabağ: Statussuz status" (2010-cu il) və Ukraynadakı hadisələrdən bəhs edən "Maydandan Maydana" (2015-ci il) kitablarının müəllifidir.*



Elxan Şahinoğlu

# APREL ATƏŞ(KƏS)İ

**Elxan Şahinoğlu** – siyasi analitik, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri. Kitabın müəllifi 1971-ci ildə Bakıda anadan olub, Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin məzunudur (1988-1993). SSRİ illərində tələbə hərəkatının fəal üzvlərindən olub. Tələbəlik illərində müxtəlif nəşrlərlə əməkdaşlıq edib. Universiteti bitirdikdən sonra Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunda analitik qrupun rəhbəri kimi fəaliyyətə başlayıb. 1994-2005-ci illərdə "Millət", "Azadlıq", "Gün səhər" qəzetlərində beynəlxalq əlaqələr və xarici siyasət şöbəsinin müdiri vəzifələrində, Türkiyənin "TRT" televiziyasının və "Anadolu" agentliyinin Bakıdakı bürolarında çalışıb. 2005-ci ildə "Atlas" Araşdırmalar Mərkəzini təsis edib. Bundan başqa, müstəqil yazar kimi fəaliyyət göstərir. Rəhbəri olduğu "Atlas" Araşdırmalar Mərkəzi regional təhlükəsizlik, o cümlədən Azərbaycanın yaxın qonşularla və beynəlxalq təşkilatlarla münasibətləri mövzularını tədqiq edir, ayrıca, Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə danışıqlar prosesinin monitorinqini aparır. "Aprel atəş(kəs)i" müəllifin üçüncü, Dağlıq Qarabağ mövzusunda isə ikinci kitabıdır. O, "Dağlıq Qarabağ: Statussuz status" (2010-cu il) və Ukraynadakı hadisələrdən bəhs edən "Maydandan Maydana" (2015-ci il) kitablarının müəllifidir.

ISBN 978-9952-36-328-9

9 789952 363289

www.qanun.az

3

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing